Xalqın qəzeti!

# Xalq qəzeti

№ 155 (30271) 26 iyul 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır. Bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir.

# Prezident İlham Əliyevin əməkdaşlıq məntiqi: Çin və Cənubi Qafqazda sülh

**Prezident İlham Əliyevin Çinin "China Media Group" media korporasiyasına verdiyi və "China Global Television Network" televiziya kanalında yayımlanmış müsahibəsində bir neçə məqam diqqətimizi çəkdi. Həmin məqamlardan biri çinli müxbirin ölkəsindəki məşhur atalar sözünü xatırlatması idi: "Ticarət dayananda, müharibələr başlayır." Ardınca bildirdi ki, ticarət nə qədər çox olarsa, ölkə əhalisi üçün daha çox fürsətlər açılar. Bu deyimlərlə həmrəyliyini ifadə edən dövlətimizin başçısı vurğuladı ki, ticarət sabitliyi, təhlükəsizliyi möhkəmləndirir və müəyyən dərəcədə, sözün yaxşı mənasında, qarşılıqlı bağlılığı artırır: Bu şəraitdə, əlbəttə, sabitlik bərqərar olur".**



Bundan sonra çinli müxbirin Azərbaycan-Ermənistan münasibətlərinə keçid alması məntiqidir. Çünki hazırda bu münasibətlərin qaydaya salınmaması, normallaşmaması həm də ticarətə zərər vuran, onun qarşısını alan amil rolunda çıxış edir. Söhbət, əlbəttə ki, qlobal ticarətdən gedir. O ticarətdən ki, cənab İlham Əliyev müsahibəsində onun müxtəlif tərəflərindən, mövcud müstəvidə Azərbaycanın oynadığı roldan, ölkəmizin mövqeyindən, maraq və mənafelərindən, kifayət qədər əhatəli söz açdı...

*(ardı 3-cü səhifədə)*

## Kreml tərəflərin ümidlərini doğrultmağa çalışır



**Sülh danışıqlarının Brüssel raundundan 10 gün sonra Moskvada Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov, Sergey Lavrov və Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib.**

Sülh danışıqlarından əvvəl bakılı və irəvanlı həmkarları ilə görüşən Rusiyanın baş diplomatı Moskvanın sülh müqaviləsi üzrə razılığa gəlməyə kömək etməyə hazır olduğunu deyib: "Bizim səylərimiz Ermənistan–Azərbaycan sərhədində vəziyyətin sabitləşməsinə, humanitar problemlərin həllinə, iqtisadi-nəqliyyat əlaqələrinin açılmasına, vətəndaş cəmiyyətləri, ekspertlər, politoloqlar və parlamentarilər vasitəsilə insanlar arasında əlaqələrin inkişafına yönəlib".

Məlumata görə, S.Lavrovun Ermənistan və Azərbaycan XİN rəhbərləri ilə ikitərəfli danışıqlarında Rusiya–Azərbaycan və Rusiya–Ermənistan arasında aktual və önəm kəsb edən mövzular, siyasi, ticarət-iqtisadi və humanitar sahələri əhatə edən məsələlər müzakirə olunub.

*(ardı 5-ci səhifədə)*

## Azərbaycandan Avropaya "yaşıl enerji" körpüsü



**Energetika naziri Pərviz Şahbazov "Twitter" səhifəsində Azərbaycanın Gürcüstan, Rumıniya və Macarıstan ilə "yaşıl enerji"nin Avropaya ötürülməsi üçün birgə müəssisə yaratdığını bildirib.**

Nazir qeyd edib ki, bununla bağlı Buxarestdə Anlaşma Memorandumu imzalanıb: "Buxarestdə Gürcüstan, Rumıniya və Macarıstandan olan həmkarlarla "yaşıl enerji"nin Xəzər dənizindən Avropaya ötürülməsini nəzərdə tutan layihənin reallaşdırılması üçün 4 ölkə arasında birgə müəssisənin yaradılmasına dair Anlaşma Memorandumunu imzaladıq".

*(ardı 7-ci səhifədə)*

## Ağdam-Xankəndi marşrutu ən optimal yoldur

**Üzdəniraq qonşularımızı tanıyandan bəri onlarda müşahidə etdiyimiz bu xüsusiyyət məhz belə deməyə əsas verir.**

30 il başqasının torpağını işğal et, orada daşı-daş üstdə qoyma, hər cür vəhşiliyə əl at, bütün bunlara görə layiqli cavabını al. Amma əməllərinə görə üzrxahlıq etmək əvəzinə, özünü "mələk" qiyafəsində qələmə verməyə çalışmaq, həqiqətən də tayı-bərabəri olmayan həyasızlıqdır.

*(ardı 4-cü səhifədə)*



## 19 laçınlı ailə də doğma yurda qovuşdu



Səhifə ⇨ 4

## İstehlakçı hüquqlarının müdafiəsi bəşəri missiyadır

Səhifə ⇨ 7

## Fransa bölgədə olan-qalan nüfuzunu da itirir

**Fransa Prezidenti Emmanuel Makronun, Xarici işlər naziri Ketrin Kolonnanın, parlamentin yuxarı palatası – Senatın sədri Jerar Larşenin və ölkənin digər rəsmi şəxslərinin Azərbaycanın daxili işlərinə qarışması adət halını alıb. Onlar yeri gəldi-gəlmədi Qarabağ iqtisadi rayonunda yaşayan erməni azlığının hüquqlarının qorunması və təhlükəsizliklərinin təmin edilməsi məsələsini qaldırırlar. Bu çağırışlar əsassız olduğundan, istər-istəməz, hiddət doğurur.**



Azərbaycan Qarabağda yaşayan ermənilərlə danışmağa hazır olduğunu dəfələrlə yüksək səviyyədə bəyan edib. Prezident İlham Əliyev 2022-ci ilin noyabrın 17-də Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Aİ-nin və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul edərkən bu barədə deyib: "Hesab edirəm, vacib odur ki, Ermənistan, əslində, istədiyini açıq şəkildə elan edir. Əgər onlar Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirlərsə, bu, alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Biz buna hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni, kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur..."

*(ardı 4-cü səhifədə)*

## "Azərişıq" ASC-nin Qarabağ hesabatı




Səhifə ⇨ 7

## Filmləri qoruyan xəzinə

Səhifə ⇨ 10

## Qarabağ və Şərqi Zəngəzurda "ağıllı" aqrar şəbəkə genişlənir



Səhifə ⇨ 8

# Marianna Vardinoyannisin ailəsinə

Görkəmli ictimai xadim, parlaq şəxsiyyət Marianna Vardinoyannisin vəfatı xəbərini sonsuz kədər hissi ilə qarşıladıq.

Marianna Vardinoyannis dərin məzmunlu və şərəfli ömür yolu keçərək, insanlıq və bəşəriyyət naminə nəcib əməlləri, bəşəri dəyərlərin təşviqi, çoxşaxəli humanitar və xeyriyyəçilik fəaliyyəti ilə dünyada böyük nüfuz və ehtiram qazanmışdı.

Yüksək insani keyfiyyətləri özündə cəmləşdirən Marianna Vardinoyannis Azərbaycanın əsl dostu idi. Onun Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında böyük xidmətləri var idi. Məhz buna görə o, Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif olunmuşdur.

Bütün həyat və fəaliyyətini uca amallara həsr etmiş səmimi və xeyirxah insan Marianna Vardinoyannisin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Bu ağır itkinin acısını bölüşür, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyul 2023-cü il**

# Vardis Vardinoyannis ailəsinə

Səmimi dostum, əziz və dəyərli insan olan Mariannanın vəfatı məni dərindən sarsıtdı. Yaxın insanı itirmək ağrısı heç nə ilə müqayisə oluna bilməz.

Qəlblərimizi dolduran bu kədər hissini ifadə etməyə söz tapmaq çətindir.

Görkəmli ictimai xadim, vəfalı ömür-gün yoldaşı, etibarlı dost – Marianna onu tanıyanlar üçün xeyirxahlıq, nəciblik, mərhəmət, şəfqət rəmzi idi.

O, parlaq, çalışqan, təşəbbüskar, insanların ağrı-acısını dərindən hiss etməyi bacaran əvəzsiz şəxsiyyət olaraq yaddaşlarda qalacaqdır.

Marianna Vardinoyannis həm də Azərbaycanın səmimi dostu idi. Təsadüfi deyil ki, onun Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif edilmişdir.

Marianna ilə görüşlərimiz zamanı yaratdığı sevgi dolu, xoş və unudulmaz xatirələr daim qəlbimdə yaşayacaqdır.

Bu ağır günlərdə dərdinizi bölüşür, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirəm.

**Səmimiyyətlə,**

***Sizin Mehriban ƏLİYEVA***

# Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşü



**İyulun 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov ilə ikitərəfli, daha sonra isə Rusiya xarici işlər naziri və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan ilə üçtərəfli görüşlər keçirib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşlərdə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, Azərbaycan tərəfindən regionda sülh və təhlükəsizliyin bərqərar olunması istiqamətində atılan addımlar əleyhinə Ermənistan tərəfindən törədilən hədə və qeyri-qanuni fəaliyyətlər, habelə təyyarələrin uçuşuna törədilən maneələr də daxil olmaqla, hərbi təxribatlar barədə ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb. Ceyhun Bayramov bölgədə humanitar vəziyyətə dair səsləndirilən iddiaların tamamilə əsassız olmaqla yanaşı, bunların siyasi manipulyasiya olduğunu vurğulayıb.

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda təsbit olunmuş öhdəliklərə zidd olaraq, Ermənistan tərəfindən Laçın yolundan hərbi məqsədlər, habelə Azərbaycanın təbii sərvətlərinin qanunsuz daşınması üçün sui-istifadə hallarına qarşı tədbirlərin Azərbaycanın suveren hüququ olduğu bildirilib. Bu məqsədlə, eyni zamanda, Azərbaycan tərəfindən Laçın dövlət sərhədindən buraxılış məntəqəsinin təsis edilməsinin zəruri tədbir olduğu diqqətə çatdırılıb.

Nazir sərhəd-buraxılış məntəqəsinin yaradılmasından bəri erməni sakinlərin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlanan keçidi üçün şəraitin yaradılmasına baxmayaraq, Ermənistan tərəfindən iyunun 15-də keçid məntəqəsinə qarşı törədilmiş təxribatın erməni sakinlərin keçidinə maneçilik törətdiyini bildirib. Hazırda Azərbaycan tərəfindən erməni sakinlərin tibbi məqsədlər üçün keçidinin təmin olunduğu diqqətə çatdırılıb.

Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla bir sıra təkliflər irəli sürülməsinə baxmayaraq, erməni tərəfinin bütün təkliflərə qarşı çıxması onların məkrli niyyətlərini və humanitar vəziyyət barədə iddiaların siyasi şantaj olduğunu göstərdiyi qeyd olunub.

Azərbaycanın öz suveren ərazilərində yaşayan ermənilərin reinteqrasiyası tədbirlərinə müdaxilə cəhdlərinə son qoyulması, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün sözdə və əməldə Ermənistan tərəfindən qeyd-şərtsiz təsdiqlənməsinin, eləcə də öhdəliklərə zidd olaraq hələ də tam olaraq Azərbaycan ərazisində mövcud olan erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasının bölgədə sülhün təmin edilməsi üçün ən zəruri şərtlər olduğu nazir Ceyhun Bayramov tərəfindən vurğulanıb.

***"Xalq qəzeti"***

# Müdafiə qurumları rəhbərlərinin görüşü



**İstanbul şəhərində keçirilən "IDEF - 23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev və Türkiyənin milli müdafiə naziri, Yaşar Gülerin iştirakı ilə görüş keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığın cari vəziyyəti və gələcəkdə bu istiqamətdə görüləcək işlərin daha da inkişaf etdirilməsi barədə müzakirələr aparılıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

***"Xalq qəzeti"***

# Müdafiə Nazirliyinin rəhbər heyəti "IDEF-23" sərgisinin açılış mərasimində



**İyulun 25-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti İstanbul şəhərində keçirilən "IDEF-23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisinin açılış mərasimində iştirak edib.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, nazirliyin rəhbər heyəti sərgidə "ASELSAN", "ROKETSAN", "DEARSAN" və digər şirkətlərin stendlərində nümayiş etdirilən silah, texnika və hərbi təyinatlı vasitələrlə tanış olub.

Səfər çərçivəsində general-polkovnik Z.Həsənov, həmçinin Türkiyənin texnologiya naziri Mehmet Fatih Kacır ilə görüşüb.

Görüşdə hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb və qarşılıqlı hədiyyələr təqdim edilib.

# Ermənistan təxribatçı addımlara və bəyanatlara son qoymalıdır

**30 il müddətində beynəlxalq hüququn bütün norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı davam etdirdiyi təcavüzə, etnik təmizləmə siyasətinə qarşı beynəlxalq təşkilatların xəbərdarlıqlarını, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini heçə sayan Ermənistanın Azərbaycana qarşı beynəlxalq səviyyədə tədbirlər görməyə çağırış etməsi absurddur və riyakarlıqdır.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın Fransanın "Le Monde" qəzetinə müsahibəsində səsləndirdiyi iddialara dair şərhində deyilir.

"Ermənistan baş nazirinin bölgənin azərbaycanlı əhalisinə etnik təmizləmə və soyqırımı da daxil olmaqla, ən ağır müharibə və insanlıq əleyhinə cinayətlərin törədilməsi yolu ilə Ermənistan tərəfindən yaradılmış qondarma rejimi "demokratik yolla seçilmiş hakimiyyət" adlandırması Ermənistan rəsmilərinin 30 ilə yaxın davam edən işğalçı siyasət və əməllərdən əl çəkmədiyinin bariz nümunəsidir. Ermənistan baş naziri Paşinyanın bu fikirləri həmçinin onun "Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanındığına" dair bəyanatına tamamilə ziddir.

Azərbaycanın öz suveren ərazilərində yaşayan ermənilərin reinteqrasiyası tədbirlərinə Ermənistan rəsmilərinin müdaxilə cəhdlərinə son qoyulması, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün sözdə və əməldə Ermənistan tərəfindən qeyd-şərtsiz təsdiqlənməsi bölgədə sülhün təmin edilməsi üçün ən zəruri şərtdir.

Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü hər hansı bir bəhanə ilə şərtləndirməsi qətiyyən qəbuledilməzdir, iki ölkə arasında münasibətlərin normallaşmasına yönəlmiş səylərə zərbədir və bölgədə gərginliyin saxlanmasına xidmət edir. Ermənistan tərəfi nəhayət anlamalıdır ki, bölgədə sülh və sabitliyin bərpa edilməsinə törətdiyi maneçilik səyləri heç bir nəticə verməyəcək. Ermənistan tərəfini təxribatçı addım və bəyanatlara son verməyə, beynəlxalq öhdəliklərinə əməl etməyə çağırırıq", – deyə Azərbaycan XİN-in şərhində vurğulanıb.

***"Xalq qəzeti"***

# Xarici media Qarabağda "humanitar fəlakət"lə bağlı erməni yalanlarına inanmır

**Bir çox xarici KİV-lər Laçın yolu ilə bağlı vəziyyət və Qarabağ separatçılarının regionda guya "humanitar fəlakət" barədə yalan bəyanatlarını ifşa edən materiallar dərc edirlər. Məqalələrdə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizə humanitar yüklərin çatdırılması imkanı barədə Avropa İttifaqının bəyanatından sonra separatçı rejiminin artan spekulyasiyalarına xüsusi diqqət yetirilir.**

Bu barədə xüsusilə Rumıniyanın "DIGI24" və Bolqarıstanın "sofiaglobe" nəşrləri, eləcə də Ukraynanın "ukranews.com" portalında ətraflı bəhs olunub. Həmin nəşrlərdə yayımlanan və siyasi icmalçı Svetlana Kuşnirin müəllifi olduğu məqalədə deyilir ki, Qarabağda separatçılar "Aİ-nin Azərbaycanın Qarabağ bölgəsinin erməni anklavına humanitar yüklərin çatdırılması üçün əlavə yolun açılması haqqında bəyanatından sonra" humanitar marşrutu bağlayıblar.

Müəllif qeyd edir ki, Avropa Şurasının Prezidenti Şarl Mişel Bakının Azərbaycanın Ağdam şəhəri vasitəsilə Qarabağın erməni əhalisinə humanitar yardımın çatdırılmasını təşkil etmək niyyəti barədə bildirib. Materialda deyilir: "Şarl Mişelin Azərbaycanın əlavə marşrut açmağa hazır olması barədə bəyanatına cavab olaraq "Artsaxın təhlükəsizliyi və inkişafı cəbhəsi" rusiyapərəst hərəkatının nümayəndələri iyulun 18-də Ağdamdan Xankəndiyə gedən yolu beton bloklarla bağlayıb, burada "aclıq və humanitar fəlakət"in hökm sürdüyünü bildirirlər. Bu bəyanatlar Xankəndidə korporativ məclislər üçün asanlıqla ət, balıq, pendir, desertlər sifariş etdiyini deyən ukraynalı deputat Vladimir Kreydenkonun araşdırması ilə təkzib edilir".

Latviyanın "La.lv" portalı isə öz növbəsində oxucuların diqqətini "Artsaxın təhlükəsizliyi və inkişaf cəbhəsi" adlandırılan qurumun rusiyalı oliqarx Ruben Vardanyan tərəfindən təsis edilməsinə yönəldir. Bu barədə Ukraynanın "Censor", "Politeka.net", "Ukranews" və "Kr" kimi xəbər saytları da xəbər verir. "Kr" bildirir ki, "Kreml Ukrayna Donbası, Gürcüstan Cənubi Osetiyası və Moldova Dnestryanı ssenarisi üzrə Qarabağda Ermənistan-Azərbaycan münaqişəsini dondurmağa çalışır. O, yalnız bu yolla öz mövqelərini, o cümlədən Cənubi Qafqazda və Şərqi Avropadakı hərbi mövcudluğunu qoruyub saxlaya biləcək".

Nəşrlərdə qeyd edilir ki, "Rusiyanın separatçı anklavların köməyi ilə nəzarətə götürməyə çalışdığı digər postsovet ölkələrində olduğu kimi, Ermənistan-Azərbaycan danışıqlar prosesində də əsl vasitəçi Aİ və ABŞ-dır".

"Sülh sazişinin bağlanması Rusiya Prezidenti Vladimir Putini Cənubi Qafqazdakı mövqeyindən məhrum edəcək və İrəvanın son olaraq Qərbə yönləndirilməsinə töhfə verəcək", – deyə Svetlana Kuşnir "Ukranews"da dərc olunmuş məqaləsində yazır.

ABŞ-ın nüfuzlu "The Washington Times" qəzetində dərc olunan məqalənin müəllifi də bu fikirlə şərikdir. Məqalədə qeyd olunur: "Rusiya Cənubi Qafqazda etnik münaqişə ocaqlarının sönməməsi üçün Qarabağdakı erməni azlığını manipulyasiya etməyə çalışır".

Öz növbəsində, ingilis dilində nəşr olunan Rumıniyanın "Romanian Newsweek" həftəlik jurnalı vurğulayır: "Bu, [erməni separatçılarından Qarabağda istifadə olunması] Moskvaya Cənubi Qafqazda hərbi mövcudluğunu saxlamağa imkan verir".

Gürcüstanın "Primetime" və "Nyushub" nəşrləri ona diqqət çəkirlər ki, Moskvadan fərqli olaraq Avropa İttifaqı Cənubi Qafqazda sülhdə maraqlıdır. Çünki Avropa İttifaqı regional nəqliyyat marşrutları, xüsusən də Zəngəzur dəhlizi vasitəsilə Rusiyadan yan keçməklə Çinə birbaşa tranzit imkanı əldə edəcək.

Eyni mövzuya "Moldova-1" televiziya şousunun buraxılışında da toxunulub. Burada bildirilir: "Bu dəhlizin açılması Avropa İttifaqına Rusiyadan yan keçməklə, Türkiyə, Azərbaycan, Xəzər dənizi və Mərkəzi Asiya vasitəsilə Çinlə birbaşa nəqliyyat əlaqəsi yaratmağa imkan verəcək".

Avropa və ABŞ KİV-lərində qeyd edilir ki, bu, həmçinin Azərbaycana Avropa İttifaqının əsas enerji tərəfdaşına çevrilməsinə, Avropaya isə Rusiya qalıq yanacağından məhrum olmağı kompensasiya etməyə imkan verəcək.

# Misirin milli bayramı qeyd olunub



**İyulun 25-də Bakıda Misirin milli bayramı – İyul İnqilabının 71-ci ildönümü qeyd olunub.**

Tədbirdə çıxış edən Misirin ölkəmizdəki səfiri Hişam Mohamed Nağı Abdel Həmid inqilabdan ötən illərdə ölkəsinin keçdiyi inkişaf yolundan danışıb. Bildirib ki, inqilab, həmçinin Misiri ərəb dünyasında regional lider edib və onun təsir sərhədlərini aşaraq Afrika, Asiya və Latın Amerikasında müstəqillik hərəkatlarını ruhlandırıb.

İki ölkə arasındakı əlaqələrdən danışan səfir qeyd edib ki, Azərbaycan və Misir arasında hər zaman səmimi dostluq münasibətləri olub. Səfir vurğulayıb ki, Misir 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub. "Keçən il biz hökumətlərimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdik", – deyə o vurğulayıb.

Sonra çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Misir xalqını və dövlətini əlamətdar bayram münasibətilə təbrik edib.

Nazir xalqlarımızı dini və tarixi bağlara əsaslanan ənənəvi dostluq münasibətlərinin birləşdirdiyini qeyd edib, bu gözəl ənənələr üzərində qurulan dövlətlərarası münasibətlərimizin bu gün də yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırıb.

O, həmçinin ikitərəfli münasibətlərimizlə yanaşı, ölkələrimiz arasında beynəlxalq təşkilatlar səviyyəsində qarşılıqlı dəstəyi də vurğulayıb.

***"Xalq qəzeti"***

# Prezident İlham Əliyevin əməkdaşlıq məntiqi: Çin və Cənubi Qafqazda sülh

## Yaxud "ticarət dayananda, müharibələr başlayır" deyiminə sözardı

(əvvəli 1-ci səhifədə)

Məlumdur ki, Azərbaycan 44 günlük müharibədə məğlub etdiyi, rüsvayçı duruma saldığı Ermənistana əl uzadıb, ölkəni sülhə dəvət edib. Həm Prezident İlham Əliyevin, həm də dövlət rəsmilərimizin açıqlamalarında İrəvanın bölgədəki iqtisadi inkişafdan öz payını götürəcəyi fikri üzərində dayanılıb. Yəni dolayısı ilə Azərbaycan Ermənistan üçün böyük ticarət şansının, gəlir mənbəyinin yaranacağını vurğulayıb. Nəzərə alaq ki, Bakı zaman-zaman İrəvanın Zəngəzur dəhlizi kimi nəhəng layihəyə qoşulmasının mümkünlüyü məsələsini də qabardıb. Bir sözlə, Azərbaycan savaş yerinə ticarət, əməkdaşlıq formulunu prioritet götürüb və bu məramını bütün beynəlxalq platformalarda açıqlayıb, təminat verib.

Lakin Ermənistandan adekvat münasibət yoxdur. Əksinə, ölkənin rəhbərliyinin, eləcə də xaricdəki erməni lobbi və diaspor təşkilatlarının reallıqları dəyişmək, avantürist mövqe tutmaq cəhdlərinin şahidiyik. Nəticədə çinli müxbirin də vurğuladığı kimi, atəşkəs mövcuddur, lakin vəziyyət mürəkkəb olaraq qalır. Bu mənada onun dövlətimizin başçısından sülh müqaviləsinin nə zaman imzalanacağını soruşması məntiqidir. Çünki jurnalist təmsil etdiyi ölkənin regiondakı qlobal iqtisadi maraqlarından xəbərdardır. O yaxşı bilir ki, həmin maraqlar Cənubi Qafqazda dayanıqlı sülhün yaranmasını, belə demək mümkünsə, diktəyə çevirib. Bu yerdə "China Media Group" media korporasiyasının müxbirinin cənab İlham Əliyevə daha əvvəl ünvanladığı bir suala da nəzər salaq: "Məndə çox maraqlı məlumatlar var ki, Sizinlə bölüşmək istərdim. Oradan görünür ki, Çindən Avropaya göndərilən mallar dənizlə orta hesabla 36 gün çəkir, əgər siyasi məsələlər olmasa, Transsibir marşrutu ilə 20 gün çəkir və Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, Orta Dəhlizlə isə cəmi 12 gün çəkir".

Diqqət yetirək, çinli media təmsilçisi, bilavasitə gün məsələsindən söz açır. O, yaxşı dərk edir ki, genişlənməkdə və şaxələnməkdə olan Çin iqtisadiyyatı üçün satış bazarları önəmli faktordur, bu, öz yerində. Əsas məsələ malların həmin bazarlara, yəni istehlakçılara maksimum tez bir zamanda çatdırılmasıdır. Axı hər gün maliyyə deməkdir. Bir günün itirilməsi isə maliyyənin itirilməsidir. Deməli, çinli müxbirin Prezident İlham Əliyevdən Ermənistanla sülh müqaviləsi haqqında nə düşündüyünü, həmin müqaviləni nə vaxt gözləməyin mümkünlüyünü soruşması adi sual deyil, eyni zamanda Çinin strateji maraqlarından irəli gələn məsələdir.



Prezident İlham Əliyev müsahibəsində Ermənistanla sülhə ən yaxın gələcəkdə nail olmağın mümkünlüyünü bildirib: "Nəyə görə mən bu cür düşünürəm, çünki Ermənistan çox mühüm bəyanatla çıxış etməli idi ki, onlar nəinki Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, – əslində, onlar bunu rəsmən ötən ilin oktyabrında bəyan etdilər və sonra bir neçə dəfə təsdiqlədilər, – həmçinin bu ilin mayında onlar bunu aydınlaşdırdılar. Çünki biz tələb etdik ki, onlar Qarabağı Azərbaycanın hissəsi kimi tanıdıqlarını qeyd etsinlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometr ərazidə tanıdılar. Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır".

Göründüyü kimi, bir məsələ qalıb – dildə bəyan edilənlərin kağız üzərinə köçürülməsi. Ancaq çinli müxbirin də vurğuladığı kimi, bu xüsusda mürəkkəblik var. Əslində durum, ilk baxışdan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üçün müsbət zəminin olmadığından xəbər verir. Görürük ki, Ermənistan çeşidli təxribatlara əl atır, anti-Azərbaycan ritorikasını işə salır, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz regionunda formalaşmış reallıqları saymazdan gəlməyə cəhd göstərir. Əlbəttə, onu da nəzərə almalıyıq ki, Ermənistan hakimiyyəti müharibədən ötən iki il yarımdan artıq müddətdə indi dilə gətirdiklərini deməmək üçün çox çalışıb, ancaq yekunda Azərbaycanın mövqeyi ilə razılaşmaq məcburiyyətində qalıb.

Heç şübhəsiz, ölkə sülh müqaviləsi imzalayacaqsa, bu, onun istəyinin nəticəsi kimi meydana çıxmayacaqdır. Ancaq bizim rəsmi İrəvanın, eləcə də erməni cəmiyyətinin nə zaman səmimiyyət notlarına köklənəcəyini gözləməyə vaxtımız yoxdur. Üstəlik, erməni qövmünün heç vaxt səmimi olmadığını təsdiqləyən tarix var. Deməli, nəticəyə gəlirik ki, sülh müqaviləsi imzalanacaqsa, bu, Ermənistan hakimiyyətinin, necə deyərlər, başına-gözünə döyməklə gerçəkləşdirəcəyimiz proses kimi dəyərləndiriləcəkdir. Çox güman, çinli müxbir, böyük anlamda götürsək, Çin dövləti bunu bilməmiş deyil. Hər bir halda cənab İlham Əliyev izah edir və bildirir ki, İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı ölkəmizin mövqeyi həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir: "Biz sülh müqaviləsinin əsasını təşkil etməli olan beş beynəlxalq təməl prinsipini hazırladıq. Bir neçə dəfə danışıqlar aparılıb və iyunun sonunda davam etdiriləcək. Fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın. Artıq dediyim kimi, bir – onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar".

Əlbəttə, Azərbaycan Prezidenti Çinin media qurumuna müsahibəsində indiyədək keçilmiş yola, təcrübəyə diqqət yetirərək, sülh müqaviləsinin imzalanmasına maneçilik motivlərini də açıqlayır. Ermənistanın siyasi manevr, prosesi yubatmaq cəhdlərindən söz açır. Ancaq cənab İlham Əliyev dəfələrlə vurğulayıb ki, İrəvan gec-tez sülh müqaviləsini imzalamağa məcbur olacaq.

Buna görə dövlətimizin başçısı müsahibəsində perspektiv sülh mühitinə baxışını ifadə edir. Azərbaycan Prezidenti bildirir ki, sülh müqaviləsi, həqiqətən, mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar. Qafqazda real sülhün formalaşması isə həm də bütün kommunikasiyaların açılması anlamı verən hadisədir.

Deməli, yekun nəticəyə gəlirik ki, hazırda Cənubi Qafqazda region ölkələrinin, həmçinin Çinin də maraq və mənafelərindən irəli gələn ab-havanın formalaşması üçün zəmin var. Azərbaycan göstərir ki, mövcud durumun qərarlaşması naminə üzərinə düşən hər şeyi edir, bütün iddiaları cavablandırır, çətinliklərə sinə gərir.

Bəli, ölkəmiz Ermənistan tərəfindən gətirilən "arqumentləri" cavabsız qoymamaqla göstərmək istəyir ki, sülh gündəliyinə sadiqdir. Əlbəttə, bu gündəlik suveren haqlarımızı ikinci plana atmamalıdır. Rəsmi Bakı heç bir halda imkan verə bilməz ki, Qarabağda erməni avantürizmi üçün şans yaransın. Buna görə Prezident İlham Əliyev Çinin nüfuzlu media qurumuna müsahibəsində bildirir: "Həmçinin əlavə etmək istəyirəm, Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, Azərbaycan onlarla etnik qrupun, o cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı problemimiz olmayıb. Buna görə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar. Düşünürəm ki, bu, tam şəkildə beynəlxalq hüququn normalarına uyğundur və fikrimcə, Azərbaycanın bu mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilir".

Sonda onu da deyək ki, Azərbaycan Prezidenti İlham Əliyev hər zaman, xüsusən də 44 günlük müharibədən sonra yaşadığımız Cənubi Qafqaz coğrafiyasını qlobal əməkdaşlıq platforması kimi xarakterizə edən fikirlər səsləndirməsi ilə gündəmə gəlib. Dövlətimizin həm bu müsahibədə, həm də 2023-cü il iyulun 21-23-də keçirilmiş Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən bildirdikləri fikirlərlə, həmin əməkdaşlıq platformasının, bir növ, yol xəritəsini çəkmiş oldu. Bu yanaşma əməkdaşlığı nifaqa, mənfəəti təfriqəyə, gəliri təxribat meyillərinə, faydanı separatçılığa, nəhayət, tərəqqini və inkişafı düşmənçilik təmayüllərinə qarşı qoyan nəhəng, uzaqgörən düşüncə tərzidir. Hazırda Ermənistan cəmiyyətinin də bu düşüncənin gətirəcəyi imkanlardan faydalanmaq şansı var. Haylar nəzərə almalıdırlar ki, şans, birincisi, hər zaman ələ düşmür, ikincisi, istifadə edilmədikdə üz döndərir.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Minsk qrupu münaqişənin həlli üçün yaradılmışdı...

## İndi savaş yoxdur, deməli, vasitəçiyə də ehtiyac qalmır

**Son zamanlar bəzi Qərb mənbələrindən "mərhum" Minsk qrupunun "xortladılması" barədə gələn xəbərlər sübut edir ki, kimlərsə Cənubi Qafqaza sülh gətirilməsinin qəti əleyhinədir. Elə olmasaydı, 28 illik "fəaliyyəti" nəticəsiz qalan, Ermənistan dövlətinin Azərbaycan ərazilərində törətdiyi vəhşilikləri görə-görə riyakarlıqdan əl çəkməyən Minsk qrupunun bərpası haqqında bu qədər inadla danışmazdılar.**

Əvvəla, Minsk qrupu Azərbaycan və Ermənistanın razılığı əsasında yaradılmışdı ki, münaqişənin ədalətli şəkildə həllinə nail ola bilək. Qrupun fəaliyyəti isə sübut etdi ki, bu, əyri üçlük məhz Ermənistanın işğalına, separatçılığına, terror və təxribatlarına haqq qazandırmaq niyyətində imiş. Bu boyda rəzalətdən və xəyanətdən sonra Azərbaycan həmin qrupun fəaliyyətinin bərpasına razı olarmı? Əsla yox. Elə isə təkcə işğalçı vandalların istəyinə görə hansısa qrup yaradıla bilməz. Doğrudur, Ermənistan rəhbərliyi həftədə olmasa da, ayda bir dəfə xarici "dəstəkverənlərdən" ibarət hansısa qrupu qəbul edir. Öz işləridir. Öz ölkələrində istədikləri qədər xarici qrup qəbul edə bilərlər. Ancaq Azərbaycanın daxili işlərinə qarışmamaq şərti ilə.

ABŞ-dan gələn xəbərləri formalaşdıran "mütəxəssislər" bilmirlərmi ki, münaqişə yoxdursa (Azərbaycan dövlətinin həmin münaqişəni hələ 2020-ci ilin payızında hərbi-siyasi yolla həll etdiyini kim bilmir ki?), deməli vasitəçiyə ehtiyac da yoxdur. Bilirlər. Ancaq münaqişə bitsə də, regiona sülh gətirilməsini istəməyənlər də çoxdur. Bəs kimlərsə nə üçün regiona sülh gətirilməsini istəmirlər? Çünki onların öz maraqları var – Ağ ev istəyir ki, Rusiya Qafqazdan getsin, Kreml çalışır ki, ABŞ Qafqaza girə bilməsin, Parisin öz "qarın ağrıları" var və ona görə də riyakarcasına birləşirlər ki, heç olmazsa, daha bir neçə il Qafqaza sülh, sabitlik gəlməsin. Çünki hər üç mərkəz "bulanıq suda balıq tutmağın" daha asan olduğunu yaxşı bilir.

Azərbaycanın mövqeyi qətidir: "Biz bu qrupun riyakarlığının fəsadlarını 28 il yaşamışıq. Ona görə də belə bir platforma rəsmi Bakıya lazım deyil və biz razılıq verməsək, Minsk qrupu elə olduğu yerdə qalacaq!" Ermənistan isə israr edir ki, Minsk qrupunun fəaliyyəti bərpa olunmalıdır. Amma bu israrın səbəbini açıqlaya bilmirlər. Çünki "münaqişənin həlli" ifadəsini dilə gətirə bilmirlər. Azərbaycan Prezidenti 2020-ci ilin noyabrından sonra az qala hər həftə xatırladıb ki, həmin münaqişə artıq yoxdur. Qarabağda yaşayan ermənilərin vəziyyətini qabarda bilmirlər. Çünki Prezident İlham Əliyev dönə-dönə vurğulayır ki, orada yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır və ölkəmizdəki digər azsaylı xalqlar kimi onlar da sərbəst yaşaya biləcəklər.

Sual olunur: Bəs ermənilər nə üçün Minsk qrupu kimi özünü rüsvay etmiş bir təsisatı diriltməyə çalışırlar? Mənim fikrimcə, son otuz ilin məhrumiyyətləri erməniləri o qədər yorub, üzüb ki, indi onları heç bir qrup maraqlandırmır. Sadəcə kənardan verilən tapşırıqlardır ki, bu gün belə qışqırın, sabah elə, o biri gün isə başqa cür.

Elə ATƏT də bəzi güc mərkəzlərinin əlində oyuncağa çevrilib. Yadımdadır, bu il aprelin ortalarında ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın Xarici işlər naziri Buyar Osmani Bakıda və İrəvanda olmuşdu. Bu riyakar diplomat Azərbaycan paytaxtında olanda çoxlu müzakirələr aparsa da, Minsk qrupu haqqında heç nə deməmişdi. İrəvanda, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla görüşdə isə makedoniyalı olduğunu "unudaraq", erməni kimi danışmışdı: "Minsk qrupunun işi hazırda dondurulub. Lakin bu format yenə lazım ola bilər".

Bu adam, üstəlik, İrəvandan Azərbaycanın əleyhinə təhdidlər də səsləndirmişdi. O yaxşı bilir ki, Minsk qrupunu Azərbaycan tərəfi "pensiyaya göndərib". Ona görə də ermənilərə təsəlli vermiş, azərbaycanlıları isə təhdid edən fikirlər səsləndirmişdi: "Minsk qrupunun işi hazırda dondurulub. Amma istisna etmirəm ki, uyğun şərtlər yaranarsa, bu formatın rolu yenidən artacaq. ATƏT təkcə Minsk qrupu demək deyil, təşkilatın ermənilərlə azərbaycanlılar arasında sülh prosesini dəstəkləmək üçün istifadə oluna biləcək bir çox başqa alət və mexanizmləri var".

İndi mən – sadə bir azərbaycanlı olaraq cənab Buyar Osmanidən soruşuram: "Əgər ATƏT-in elə alət və mexanizmləri var idisə, onda nə üçün vəhşi, quduz, qaniçən ermənilərin otuz il viranəyə çevirdiyi Azərbaycan ərazilərini görmədiniz? Təbii ki, gördünüz, ancaq həqiqəti söyləməyinizə riyakarlığınız mane oldu. Məhz ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, prinsipsizliyi, ikiüzlülüyü nəticəsində Azərbaycan ərazilərinin işğalı dərinləşdi, Ermənistanın mövqeyi radikallaşdı. Amma dünya elə qala bilməzdi. Beynəlxalq təşkilatların, o cümlədən Minsk qrupunun həll edə bilmədiyi məsələni Azərbaycan təkbaşına, öz daxili potensialı, liderinin qətiyyəti, ordusunun şücaəti ilə həll etdi.




Rəsmi Bakının qətiyyətini təkrar edirik: Bu gün artıq Dağlıq Qarabağ problemi yoxdur. Azərbaycan öz ərazisinə nəzarət edir. Qalan məsələləri Konstitusiyası və suveren hüquqları ilə özü həll edəcək. Azərbaycan tərəfi Qarabağ bölgəsində yaşayan 20-25 min erməni əhalisinə digər vətəndaşlarına hüquq və azadlıqları verməyi, onların problemlərinin dövlətin daim diqqətində olacağını dəfələrlə bəyan edib.

Sonda xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il fevralın 18-də Münxendə keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı demişdi: "Minsk qrupu artıq "pensiyaya" çıxıb və faktiki olaraq mövcud deyil. Ola bilsin, yalnız kağız üzərində mövcuddur. 28 il ərzində heç bir nəticə verməmiş Minsk qrupunun sabiq həmsədrlərinin vəziyyətə təsir göstərmək üçün hələ də bəzi vasitələri var. Buna görə də bizim Birləşmiş Ştatlar, Rusiya və indi həm də Avropa İttifaqı tərəfindən təşkil edilən platformamız var".

Dövlət başçımız Avropanın mərkəzində, köhnə qitənin rəsmilərinin və siyasətçilərinin gözlərinə baxa-baxa nümayiş etdirdiyi qətiyyətdə Parisin Cənubi Qafqazdakı canfəşanlığını da unutmamışdı: "Bu da aydındır, sən vasitəçisənsə, kiminsə tərəfini saxlaya bilməzsən. Siz kiminsə tərəfini saxlamağınızı nümayiş etdirə bilməzsiniz".

Təəssüf ki, bitərəf ola bilmədilər və heç bir fəaliyyəti olmayan, heç bir iş görməyən Minsk qrupu tarixin arxivinə göndərildi.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Fransa bölgədə olan-qalan nüfuzunu da itirir

(əvvəli 1-ci səhifədə)



Bir sıra nüanslar rəsmi Bakının erməni azlıqla danışmaqda səmimi istəyinin olduğunu nümayiş etdirir. Milli Məclisin deputatı Ramin Məmmədov Qarabağda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs kimi müəyyən olunub. Martın 1-də Xocalıda ilkin təmaslar aparılıb. Bundan sonra Azərbaycan tərəfi Qarabağ ermənilərini növbəti görüş üçün rəsmi şəkildə Bakıya dəvət edib. Ancaq onlar bu təklifdən imtina ediblər. Bundan sonra onlara ikinci təklif ünvanlanıb. Haylar bundan da boyun qaçırıblar. Belə olan təqdirdə Azərbaycan Prezidenti üçüncü təklifin olmayacağını artıq bəyan edib. Zənnimizcə, fransalı rəsmilər Azərbaycana bu istiqamətdə hansısa çağırış etməzdən qabaq proseslərin xronoloji ardıcıllığına diqqət yetirməlidirlər. Onlar yalnız bundan sonra fikir yürüdə bilərlər. Əgər bu fikir konstruktiv olacaqsa, qarşılıqlı fayda verəcəksə, onu müzakirə və qəbul etmək məqbul sayıla bilər. Hərçənd ki, E.Makronun prezident olduğu müddətdə Fransanın məhsuldar, proseslərə əməli töhfə verəcək yanaşma sərgiləyəcəyi az ehtimal olunandır.

Fransanın müstəmləkəçilik siyasəti, buna rəğmən Azərbaycanın daxili işlərinə müdaxilə etmək cəhdləri Prezident İlham Əliyevin Çinin "China Media Group" media korporasiyasına müsahibəsi zamanı toxunduğu məsələlərdən biri olub. Dövlətimizin başçısı qeyd edib ki, hazırda biz Fransa hökumətinin, əgər belə demək olarsa, çox əsassız hücumları ilə üzləşirik: "Təsəvvür edirsinizmi, Fransa Ermənistanın ən böyük vəkilinə çevrilib. Yaxşı, bu, onların işidir, lakin onlar Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevriliblər. Onlar bizə hər istiqamətdə hücum çəkirlər. Onların xarici siyasi bəyanatları və rəsmilərin bəyanatları hər cür siyasi etikadan kənara çıxır. Onlar müharibə zamanı bizi elə məsələlərdə ittiham etdilər ki, biz bunları heç vaxt etməmişik və bununla bağlı, üzr belə istəmədilər. İndi isə onlar bizi öz ərazimizdə gördüyümüz işlərə görə ittiham edirlər. Baxın hələ bunu kim edir? O ölkə ki, Korsika dilinə qadağa qoyur, Korsikada öz müqəddəratını təyin etmək hərəkatını qəddarcasına boğur. Onlar Qarabağda ermənilərin "öz müqəddəratını təyin etmələrini" təşviq edirlər. Bu, necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda, dedim ki, əgər onlar "Dağlıq Qarabağ respublikasını" haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu erməninin yaşadığı Marsel şəhərinin ətrafında qurub, "Dağlıq Qarabağ respublikasını" orada elan etsinlər, biz də tanıyaq".

Prezident İlham Əliyev qeyd edib ki, bu ölkə hələ də öz müstəmləkəçilik siyasətini davam etdirir: "Baxın Mayot adasına, Fransanın müstəmləkəsi. Yeni Kaledoniya, Fransanın müstəmləkəsi. Onlar hələ də insan hüquqları haqqında danışır!? Bu, siyasi riyakarlıqdır. İndi söylədiklərimi biz deyəndə isə siz görürsünüz ki, onlar bütün mətbuatı dərhal işə salır, Azərbaycanı, onun rəhbərlərini və siyasətini təhqir etməyə, hücum çəkməyə, şayiə yaymağa başlayırlar".

Dövlət başçımız haqlıdır. Fransa digər keçmiş müstəmləkəçi ölkələrdən müstəmləkəçilik "irsini" yaşatması ilə seçilir. Rəsmi Paris dünyanın min kilometrlərlə uzaqda yerləşən müxtəlif ərazilərini özünün əsarəti altında saxlamaqda davam edir, milli azlıqların hüquqlarını pozur, onların müstəqillik arzularını ürəklərində qoyur. Bu, azmış kimi başqalarına öyüd-nəsihət verir, onlara necə yaşamağı öyrədir. Azərbaycanın isə aşkar şəkildə daxili işlərinə qarışır. Qarabağ iqtisadi rayonunda etnik separatizmi qızışdırır, ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına mane olmağa çalışır. Parisin bu siyasəti Azərbaycanın haqlı etirazına səbəb olur.

Digər tərəfdən, bu faktı qeyd etmək də fransız rəsmilərin çağırışlarının əsassız olduğunu sübuta yetirmək üçün kifayət edər. Qarabağda erməni azlığının yaşadığı yerlər beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın suveren ərazisidir. Vaxtilə – 1923-cü ilin iyulun 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə ölkəmizin tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Xankəndi şəhəri yeni yaradılmış muxtar vilayətin mərkəzi şəhəri olub.

Yeri gəlmişkən, mənbələrdə bu yaşayış məntəqəmizlə bağlı "Xanın kəndi" mənasını verən Xankəndi toponiminin XVIII əsrin sonlarından etibarən işlədilməyə başlandığı qeyd olunur. Xankəndi 1822-ci ildən Yelizavetpol quberniyasının Şuşa qəzasının tərkibində daxil edilməklə bilavasitə Rusiya imperiyasının hakimiyyəti altında olub. Kənd 1847-ci ildə rəsmi olaraq Xankəndi adını alıb. Qarabağ xanlığının ikinci xanı İbrahim Xəlil xanın mülkü Xankəndidə yerləşirmiş, xana məxsus damazlıq atlar (Qarabağ atları) burada saxlanılırmış.

Tədricən inkişaf edərək şəhərə çevrilən Xankəndi DQMV-nin mərkəzinə çevrildikdən az sonra – 1923-cü ilin avqustun 10-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin fərmanı ilə Bakı Xalq Komissarları Sovetinin sədri, 1918-ci ilin martında Bakıda baş vermiş soyqırımının təşkilatçısı və rəhbəri, əliqanlı cəllad Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılıb. Bununla belə, hələ sovet dövründə Xankəndi sözü xalq arasında Stepanakert sözü ilə yanaşı işlədilib.

Azərbaycan Ali Soveti 1991-ci il 26 noyabr tarixli qərarı ilə DQMV-nin ləğv olunması barədə qərar qəbul edib. Vilayətin ərazisi Yuxarı Qarabağ iqtisadi rayonunun tərkibinə daxil edilib. Dövlət başçımızın Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında 2021-ci ilin 7 iyul tarixli fərmanına əsasən, Xankəndi şəhərinin də daxil olduğu yeni Qarabağ iqtisadi rayonu yaradılıb. Fərmanın məhz iyulun 7-də – DQMV-nin yaradılmasının 98-ci ildönümü günündə imzalanmasının rəmzi mahiyyət daşıdığı da gün kimi aydındır.

Azərbaycan rəhbərliyi ölkəmizin özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsini ondan ayırmaq istəyənlərə bununla tutarlı cavab verdi. Bunu fransız rəsmilər də birdəfəlik yadda saxlamalıdırlar. Onlar bilməlidirlər ki, Xankəndi Azərbaycanın inzibati ərazi bölgüsünə görə, respublika tabeli şəhərlərimizdən biridir və bu şəhərdə gec-tez Azərbaycanın üçrəngli dövlət bayrağı dalğalanacaqdır. Onu da bilməlidirlər ki, Fransa bununla bölgədə olan-qalan nüfuzunu da itirir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Aydın QULİYEV,**
**siyasi şərhçi**

– Fransanın Azərbaycana qarşı olan hücumları getdikcə sistemli dövlət siyasəti xarakteri almaqda və özünü ən müxtəlif ziyankar formalarda bürüzə verməkdədir. Parisin Azərbaycan əleyhinə siyasətinin ən populyar və aydın ifadə olunan təzahür forması ölkəmizin daxili işlərinə kobud şəkildə müdaxilə etməsidir. Amma Azərbaycan dövlətinin mövqelərinin güclü olması, həm daxili, həm də xarici siyasətin cəmiyyət tərəfindən tam dəstəklənməsi nəticəsində biz Fransanın siyasətinin ziyanlı nəticələrini ciddi şəkildə hiss etmirik.

Fransa hazırda müstəmləkəçilik siyasətini yeni forma və üsullarda davam etdirmək üçün üsullar axtarır. Eyni zamanda, onun keçmiş müstəmləkələri olan ölkələrə azad və suveren şəkildə yaşamasına imkan vermir. Həmin ölkələrin daxili işlərinə qarışır. O ölkələrin təbii sərvətlərini talan edib aparmaq istəyir. Eyni zamanda, özünün daxilində sosial ədalət və haqları uğrunda insanlara qarşı hörmətsizlik, zorakılıq edir. Daxildə etirazçıların üzərinə atlılar, silahlılar yeriyir, az qala, ağır texnika etirazçılarla mübarizəyə cəlb olunur. Paris insanların haqq səsini boğmağa çalışır.

Bundan əlavə, Fransa daxilində öz milli haqları uğrunda mübarizə aparan müxtəlif xalqların hüquqlarını kobud şəkildə pozur. Doğrudan da, ironik vəziyyət yaranıb. Fransa daxilində korsikalıların milli muxtariyyət hüququna, hətta öz dillərində danışmaq hüququna hörmət etmədiyi təqdirdə, Azərbaycanın daxili işlərinə kobud şəkildə müdaxilə edir. Burada ermənilərin heç bir haqları, əsasları olmayan "müstəqillik səyləri"nə dəstək verir. Fransanın apardığı siyasət beynəlxalq hüquq normalarına tamamilə ziddir. Bu siyasət BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, dövlətlərarası münasibətlərin qurulmasının əsas prinsiplərinin əleyhinədir. Bu siyasət dövlətlərarası etimad mühitini zədələyir. Bütün bunlar onu deməyə əsas verir ki, Fransa bölgəmizdəki proseslərdə heç vaxt ədalətli rol oynaya bilməz.

# Ağdam–Xankəndi marşrutu ən optimal yoldur

## *Bir vaxtlar bu dəhliz Qarabağın təchizat qapısı idi*



(əvvəli 1-ci səhifədə)

Son günlər Laçın yolu ətrafında yaranmış vəziyyət barədə ermənilərin dünyaya sırımağa çalışdıqları yalanlar da hayların həmişəki mərəzlərindən əl çəkmədiklərini göstərir. Bununla belə, ermənilərin son üç ildə sərgilədikləri davranışlar belə düşünməyə əsas verir ki, həyasızlığa düçar olmuş ermənilərin Azərbaycanın qanun və qaydalarını qəbul etməkdən savayı başqa yolları yoxdur. Hər bir ölkə öz ərazisində qayda-qanunu tətbiq etməkdə suveren hüquqlara malikdir. İkinci Qarabağ müharibəsində qalib gəlmiş Azərbaycan da torpaq bütünlüyünü bərpa etdikdən sonra azad edilmiş ərazilərində ölkə qanunlarına uyğun qaydalar tətbiq edib.

Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başlaması da məhz bu prosesin tərkib hissəsidir. Bundan əlavə, belə bir məntəqənin yaradılması sərhədlərin müəyyən olunmadığı ölkə ilə – Ermənistanla Qarabağda yaşayan erməni əsilli vətəndaşların münasibətlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayır. Çünki ermənilər həmin yoldan öz maraqlarına uyğun istifadə etməyə çalışırdılar. Ermənilərin tam başqa, reallığa uyğun olmayan hərəkətlərə yol verməli Azərbaycanın Laçın sərhəd məntəqəsində nəzarətin gücləndirilməsini və alternativ marşrutun təklif olunması zərurətini ortaya çıxardı. Əslində, Azərbaycan humanistlik nümayiş etdirir. Öz ərazisində yaşayan erməni əsilli vətəndaşlara zəruri məhsulların daşınmasına şərait yaradır. Ən əsası, rəsmi Bakının Ağdamdan Xankəndiyə gedən yoldan Qarabağ sakinlərinin humanitar ehtiyaclarının ödənilməsi üçün Beynəlxalq Qızıl Xaç Komitəsinə ünvanladığı təklif, əlbəttə ki, maddi-texniki baxımdan qanuni və məqsədəuyğundur.

Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel də Azərbaycanın Ağdam vasitəsilə Qarabağa humanitar yardım göstərməyə hazır olduğunu bildirməklə, Aİ-nin də bu yola qarşı çıxmadığını təsdiqləmişdi. "Mən Azərbaycanın Ağdam vasitəsilə humanitar yükləri bərabər şəkildə həyata keçirməyə hazır olduğunu da qeyd etdim… BQXK-nın tibbi təxliyənin bərpasını da alqışlayıram", – deyə Avropa İttifaqının rəhbəri bu yola dəstəyini bildirmişdi.

Analitiklər də hesab edirlər ki, Azərbaycan BQXK-yə Ağdam-Xankəndi yolu ilə Qarabağ erməniləri üçün humanitar yardımların aparılması təklifində həm maddi-texniki təminat, həm də beynəlxalq hüquq baxımından haqlıdır.

Mütəxəssislər onu da vurğulayırlar ki, bu, Qarabağ bölgəsinin ermənilər yaşayan hissəsini təmin etməyin ən kəsə yoludur. Məlumdur ki, keçmiş SSRİ dövründə Qarabağın təchizatı məhz bu yol vasitəsilə həyata keçirilirdi. 1970-ci illərin sonlarında Azərbaycan hökuməti də rayonun yol hərəkətini tamamlayan Xankəndiyə Bakı-Ağdam dəmir yolunun tikintisini başa çatdırmışdı. İndi logistika baxımından bu yol BQXK üçün Laçın marşrutundan daha əlverişlidir. Fakt budur ki, BQXK-nın Bərdə şəhərində nümayəndəliyi və müvafiq resurs bazası var. Bərdədən Ağdama 45 kilometr, Ağdamdan Xankəndinə isə cəmi 26 kilometrdir. Halbuki İrəvan ilə Xankəndi arasında məsafə 330 kilometrə bərabərdir.

Yeri gəlmişkən, Xankəndini Bakıdan təxminən eyni məsafə ayırır və bu marşrutun üçdəkisi yüksək sürətli magistraldır. Yəni, hətta Bakıdan da BQXKnın çatdırılmaları daha rahat və tez həyata keçirə bilər. Təbii ki, Ağdam-Xankəndi yolundan istifadə təklifi rəsmi Bakının Qarabağ regionunun reinteqrasiyası istiqamətində həyata keçirdiyi kursa uyğundur.

Ancaq Ermənistan və onun xarici himayədarları bu yoldan istifadə etmək istəmirlər və bununla da siyasi spekulyasiyaya yol verirlər. Əslində, ermənilərin bu imtinasını rasist yanaşma kimi də qiymətləndirmək olar.

Ermənilər iddia edirlər ki, guya, İrəvandan gətirilən məhsullar "daha yaxşıdır". Maraqlıdır ki, erməniləri belə qənaətə gəlməyə hansı meyarlar vadar edir? Azərbaycandan gətiriləcək qida məhsullarının keyfiyyətinin Ermənistandan gələn məhsulların keyfiyyətindən pis olduğunu təsdiqləyəcək hansı ölçülər və parametrlər var? Əllərində belə arqumentlər varmı? Əlbəttə ki, normal heç bir əsası yoxdur. Ermənilər belə bir iddiani ortaya atmaqla yalnız irqçi təfəkkürlərini bir daha dünyaya nümayiş etdirirlər.

Bu məsələdə diqqət çəkən daha bir mühüm məqam var. Heç soruşan varmı ki, Ermənistanda ƏDV-si ödənilmiş mallar nə üçün humanitar yardım adı altında Azərbaycana gətirilməlidir? Belə çıxır ki, Ermənistan humanitar yardım adı altında başqa ölkəyə göndərdiyi məhsullardan gəlir əldə edir. Buna heç bir halda yol vermək olmaz.

Bir sözlə, Azərbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsinin təhlükəsizliyinə tam təminat verir, indiyədək nəinki Laçın yolunda, ümumiyyətlə, münaqişənin 30 ilində onların avtomobilləri ilə bağlı heç bir insident olmayıb. Ağdam–Xankəndi yolundan da istifadədə də hamını razı salan nəticə əldə olunacaq. Bunun əksini düşünənlər isə bağlı qapı arxasında qalacaqlar. Rəsmi Bakı buna tam zəmanət verir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

# 19 laçınlı ailə də doğma yurda qovuşdu



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən Laçına qayıdış marafonunun 8-ci köçü də ruh yüksəkliyi ilə gerçəkləşib.**

Yenidən qurulan Laçın şəhəri bu dəfə 19 ailəyə qucaq açıb və daha 89 nəfər laçınlı yurduna qovuşub. Bununla 152 ailənin, yəni 591 nəfərin doğma məkanda məskunlaşması təmin edilib. Səhər Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınan və bir neçə saatdan sonra Laçına çatan məcburi köçkünlər 31 ildən sonra öz doğma yurdlarına qədəm qoyanda böyük coşqu ilə qarşılanıblar. Onlar əvvəlki köç karvanı ilə Laçına qayıdan həmyerliləri ilə sevinclərini bölüşüb, şəhərin gözəl mənzərəsini birlikdə seyr ediblər.

Artıq o nisgilli günlər geridə qalıb. Bu münasibətlə açarların təqdimetmə mərasimi olub. Yenidən öz evində məskunlaşacaq ailələr təntənəli surətdə açarları təhvil alıblar. Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər. Onlar bu yolda canlarından keçən şəhidlərimizi də böyük ehtiramla yad ediblər.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə yaşaması üçün bütün şərait yaradılıb.

***"Xalq qəzeti"***

# Mahruzlu kəndinin nümayəndələri ilə görüş

**Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti tərəfindən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yenidən tikiləcək şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin sakinləri ilə görüşlər davam edir.**

Növbəti görüş Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə keçirilib. Belə görüşlərin əsas məqsədi ərazilərin tarixi, mədəni irsi və sosial dəyərləri, digər xüsusiyyətləri barədə ətraflı məlumat toplamaq və yaşayış yerlərinin yeni konsepsiyasını sakinlərə təqdim etməkdir.

Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə keçirilən görüşdə kənd sakinlərinə layihələndirilən ərazi barədə ətraflı məlumat təqdim olunmuş və onları maraqlandıran suallar cavablandırılıb. Bundan başqa, sakinlərin öz kəndləri barədə istək və təklifləri dinlənilib, onlarla fikir mübadiləsi aparılıb.

***"Xalq qəzeti"***

# Baş Prokurorluğun hesabatı: yekunlar, vəzifələr



**Dünən Azərbaycan Respublikasının Baş Prokurorluğunda videokonfrans rejimində 2023-cü ilin birinci yarımilinin yekunlarına dair geniş kollegiya iclası keçirilib.**

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, cari ilin birinci yarımilində ölkə ərazisində 19.533 cinayət qeydə alınmaqla onların 88,3 faizinin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 9946 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 674-ü prokurorluq orqanlarında istintaq edilmişdir.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 452, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 8184 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir ki, ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə 151 milyon 424 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 40,2 faizinin, yəni 60 milyon 860 min manat hissəsinin ödənilməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 43 milyon 136 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 40,4 faizinin, yəni 17 milyon 407 min manat hissəsinin ödənilməsinə nail olunmuşdur.

Xüsusi qeyd edilib ki, prokurorluqda aparılan müasir məzmunlu islahat tədbirlərinin davamı kimi qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliliyin artırılması işində müstəsna önəmə malik cənab Prezidentin 7 may 2021-ci il tarixli Fərmanında öz əksini tapmış "Elektron prokurorluq" informasiya sistemi artıq prokurorluq orqanlarının tam istifadəsinə verilmişdir.

Hesabat dövründə dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizənin ötən dövrlərdə olduğu kimi davam etdirilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri aşkar edilməklə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi bildirilib.

Qeyd olunub ki, cari ilin birinci yarımilində korrupsiya hüquqpozmasına yol vermiş 218 şəxs barəsində 144 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, 3 milyon 996 min manat məbləğində ziyanın ödənilməsi təmin edilib, 3 milyon 578 min manat məbləğində əmlak üzərinə həbs qoyulub.

Bundan əlavə, hesabat dövründə aparılmış araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi, həmçinin cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə 118 təqdimat verilib.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində 28 şəxs cinayət başında yaxalanıb, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 85 cinayət işi başlanıb.

Cari ilin birinci yarımilində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 310 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

2023-cü ilin birinci yarımili ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 733 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Kollegiya iclasında qeyd edilib ki, ötən yarımildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 25 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 16-na töhmət və ya şiddətli töhmət elan edilib, 7 nəfər vəzifədən azad edilib, 1 nəfərə irad tutulub, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilib.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə ağır və xüsusilə ağır cinayətlərdə ittiham olunan 12 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Vurğulanıb ki, 2023-cü ilin birinci yarımilində də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, Elm-Tədris Mərkəzi tərəfindən prokurorluq işçilərinin və digər hüquq mühafizə orqanlarının əməkdaşlarının peşə hazırlığının artırılması üçün təlimlər keçirilmişdir.

Kollegiya iclasında hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmuşdur.

Daha sonra Sumqayıt şəhər, Laçın, Qazax rayon və Qubadlı hərbi prokurorları hesabat dövründə görülmüş işlərlə bağlı, Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi isə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi barədə məruzələrlə çıxış edib, müzakirələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən uğurlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanlarının bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəyinə əminliyini ifadə edib.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Kreml tərəflərin ümidlərini doğrultmağa çalışır

## *Moskva müzakirələrinin dinamikası yüksək olsa da, konkret nəticə əldə edilmədi*

*(əvvəli 1-ci səhifədə)*

### Tərəflər nikbinliyə köklənmişdi

"Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinin dinamikası kifayət qədər yüksəkdir". Bu sözləri Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Rusiya və Ermənistan XİN başçıları ilə üçtərəfli danışıqlardan əvvəl deyib. C.Bayramov qeyd edib ki, xarici işlər nazirləri sonuncu dəfə, təxminən, 2 ay əvvəl görüşüblər. O vaxtdan indiyədək müxtəlif səviyyələrdə çox sayda görüşlər, təmaslar olub: "Danışıqlar prosesinin dinamikası kifayət qədər yüksək olsa da, nəticələr dinamikadan bir qədər aşağıdır. Amma, ümumiyyətlə, müsbət nəticənin olmadığını demək düzgün deyil".

"İrəvan Bakı ilə danışıqlarda konstruktivliyə köklənib". Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə Rusiya və Azərbaycandan olan həmkarları ilə üçtərəfli görüşdən əvvəl belə deyib. "Bəzi məsələlərdə konkret nəticələr, digərlərində razılıq əldə etmək perspektivləri var", – söyləyən Mirzoyan danışıqların bütün platformalarda, bütün istiqamətlərdə aparıldığını vurğulayıb.

### Paşinyanın bədbin proqnozu özünü doğrultdu

"Görüşlərin harada keçirilməsindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında danışıqların gündəliyi dəyişmir. Danışıqlar müxtəlif platformalarda – Moskvada, Vaşinqtonda və Brüsseldə aparılır". Bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan dünən keçirdiyi mətbuat konfransında Vaşinqton, Brüssel və Moskvada keçirilən görüşlərdə prioritetlərin dəyişib-dəyişməməsi ilə bağlı sualı cavablandırarkən deyib.

Onun sözlərinə görə, danışıqlarda uğur qazanmaq lazımdır, amma gündəlikdə duran məsələlər heç bir halda dəyişmir, prinsipial məsələlər dəyişmir, müzakirənin məntiqi də dəyişmir. "Dünyada elə bir ölkə yoxdur ki, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasın", – deyən Hayastanın baş nazirinin sözlərinə görə, Ermənistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, lakin bu, heç də həmişə bəyan edilməyib. Moskvada Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov, Sergey Lavrov və Ararat Mirzoyan arasında keçiriləcək üçtərəfli görüşdən gözləntilərə gəlincə, Paşinyan bildirib ki, Mirzoyandan Bakı ilə mümkün sülh müqaviləsinin daha bir neçə maddəsinin razılaşdırılmasında irəliləyiş gözləyir.

Sülh müqaviləsi layihəsi üzərində işlərin davam etdiyini vurğulayan Paşinyan Moskva danışıqları ilə bağlı "Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi imzalanmaq üçün hələ hazır deyil" kimi pessimist proqnoz verməyi də "unutmayıb".

Qeyd edək ki, Moskvadakı üçtərəfli görüş 2 ölkə arasında sülh danışıqlarının Brüssel və Vaşinqton platformalarına alternativ dialoq masası sayılır.

* * *

Moskvada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun rusiyalı həmkarı Sergey Lavrov və Ermənistan naziri Ararat Mirzoyan ilə üçtərəfli görüşü başa çatıb. Nazirlər Azərbaycan və Ermənistan arasında sülh sazişi layihəsi üzrə danışıqların növbəti raundunu keçirməyi planlaşdırıblar.

*İ.BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# DSX-dən Ermənistana xəbərdarlıq

**Əldə edilmiş məlumata əsasən Ermənistan tərəfindən 26 iyulda "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində müxtəlif nəqliyyat vasitələrinin toplanmasını təşkil etməklə nümayişkarcasına növbəti təxribat əməli planlaşdırılır.**

Bu barədə Dövlət Sərhədi Xidmətindən bildirilib.

"Ermənistan tərəfini bu kimi təxribat məqsədi daşıyan və vəziyyətin gərginləşməsinə xidmət edən əməllərdən çəkinməyə çağırırıq.

Bir daha bildiririk ki, mümkün təxribat əməllərinə görə bütün məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşəcəkdir", – məlumatda bildirilir.

*"Xalq qəzeti"*

# BQXK: Başqasına şəfqət, Bakıya kələk

## Əsas missiyası dünyada dara düşənlərə, ac-yalavaclara şəfqət əli uzatmaq olan beynəlxalq qurum niyə ikili standartlardan çıxış edir?

**Azərbaycan XİN-nin BQXK-nin bölgədə humanitar vəziyyətlə bağlı iyulun 25-də səsləndirdiyi bəyanatına dair şərhində deyilir: "Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) humanitar mandatına riayət olunması və ondan siyasi məqsədlər üçün sui-istifadə edilməməsi vacibdir".**

2023-cü il iyunun 15-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin atəşə tutulması, iyul ayında erməni əsilli sürücülərin BQXK-yə məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək səyləri Ermənistan tərəfindən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı növbəti qeyri-qanuni fəaliyyət, eləcə də sərhəd-keçid məntəqəsinin fəaliyyətinə maneçilik kimi qiymətləndirildi. Azərbaycan XİN bu kimi pozucu tədbirlərə son qoyulmasını tələb etdi.

XİN-in şərhində deyilir: "Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət cəhdlərinin qarşısını almaqla yanaşı, Azərbaycan tərəfi BQXK ilə vacib əməkdaşlığı davam etdirib. Azərbaycan tərəfinin BQXK ilə apardığı müzakirələrdən sonra, zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinin davam etməsinə şərait yaradılıb və gün ərzində onlarca erməni sakin hər iki istiqamətdə sərhəd məntəqəsindən keçib".

* * *

SSRİ dağılandan, nankor qonşular tərəfindən işğala məruz qalandan sonra Azərbaycan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə məcbur oldu. Bir milyona yaxın qaçqın və məcburi köçkün ordusu ilə humanitar böhranın məngənəsində sıxılan, əsrin sonunda ikinci dəfə müstəqilliyinə qovuşmuş Vətənimizin problemləri başından aşırdı. Bu səbəbdən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qırmızı Xaç Komitəsi ölkəmizə təşrif buyurdular, müxtəlif səpkili proqramlarla insanlarımıza yardım əllərini uzatmağa başladılar. 1992-ci ilin martında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin müraciəti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin respublikada nümayəndəliyi açıldı. Qarşılıqlı fəaliyyət beynəlxalq qaydalar çərçivəsində, yerli qanunvericilik əsasında aparılırdı. Münaqişə nəticəsində doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlərimiz üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinin həyata keçirdiyi humanitar proqramlar Azərbaycan hökuməti tərəfindən daim yüksək qiymətləndirilib.

* * *

Çətin günlər arxada qaldı. Müzəffər ordumuz Qarabağımızı yağı düşməndən azad etdi. İndi artıq keçmiş köçkünlər mərhələ-mərhələ doğma yurdlarına dönürlər. Amma, təəssüf ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda erməni separatçı-daşnak tör-töküntüsü hələ də qalmaqdadır. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtinə əməl etməyən bu qeyri-qanuni silahlılar, burada hərbi xidmətlərini keçən Ermənistan vətəndaşları torpaqlarımızı tərk etməyə tələsmirlər. Qarabağın erməni əhalisi isə postmüharibə dövrünün reallığı ilə barışmaq, sülhə gəlmək, Azərbaycana inteqrasiya olunmaq əvəzinə, Bakı ilə ultimativ dildə danışmağa çalışır. Onları bu cür davranışlara təhrik edən "özününkülərdən" savayı kənar qüvvələr də var. Azərbaycanın Laçın yolunda qurduğu sərhəd məntəqəsində baş verən son hadisələr həmin qüvvələrin içində Beynəlxalq Qırmızı Xaç Komitəsinin olduğunu da üzə çıxardı. Məhz onların xidməti və tibbi yardım maşınlarında erməni separatçıları Qarabağa bəyannamədə göstərilməyən məhsulları qaçaqmal yolu ilə keçirməyə çalışdılar. İstər yerli, istərsə də beynəlxalq qanunvericiliyə zidd pozuntu faktları ilə bağlı Bakının sorğusuna BQXK-nın nə Xankəndidəki, nə də İrəvandakı nümayəndəliyi bugünədək ağlabatan bir cavab-açıqlama verməyib. Bu, "şəfqət missiyalı" beynəlxalq təşkilatın Azərbaycana qarşı ikili standartlarına aid birinci hadisə deyil. Onun hələ Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş soydaşlarımızın taleyi ilə bağlı məsələni axıradək araşdırmadığının səbəbi tam aydın deyil. Rəsmi Bakının ictimaiyyətimiz üçün bu ağrılı mövzu ilə əlaqədar çoxsaylı müraciətləri hələ də cavabsız qalıb.

* * *

Azərbaycan XİN-in şərhində deyilir: "Daha böyük miqdarda dərman preparatları və yüklərin daşınması və tədarükü üçün Azərbaycan tərəfindən "Ağdam-Xankəndi" yolundan istifadə etməklə yardım təklif olunub. Lakin buna baxmayaraq, təəssüflər olsun ki, erməni tərəfi təkidlə bu yoldan imtina edir. Bununla yanaşı, erməni sakinlərin tibbi məqsədlər üçün Laçın sərhəd nəzarət-buraxılış məntəqəsindən BQXK vasitəsilə keçidinin daha da asanlaşdırılması məqsədilə BQXK-nın həkiminin əraziyə getməsi ilə bağlı razılıq əldə olunmasına baxmayaraq, yerində bundan imtina olunması da təəssüf doğurur". Şərhdə, həmçinin qeyd olunur ki, ermənilərin Azərbaycan tərəfindən atılan addımlara və dəstək niyyətinə, o cümlədən BQXK tərəfindən sözügedən bəyanatda da qeyd edildiyi kimi, "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadə təkliflərinə qarşı çıxması bölgədə "gərgin humanitar vəziyyət" iddialarının siyasi manipulyasiya və təzyiq vasitəsi olduğunu bir daha sübut edir.

* * *




BQXK-nın dünyanın müxtəlif qaynar nöqtələrində fəaliyyət göstərən nümayəndəliklərinin şübhəli biznes layihələri, korrupsiya qalmaqalları, çirkli pulların yuyulması və sair kimi qaranlıq əməlləri barədə məlumatlar mediaya da sızmışdır. Bir faktı da qeyd edək ki Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 54 hərbçimiz BQXK vasitəsilə ailələri ilə əlaqə saxlasalar da, sonrakı illərdə onların talelərinin necə olması ilə bağlı heç bir məlumat verilmədi. Yəni, erməni əsirliyində olmazın əzablar çəkən soydaşlarımıza qarşı erməni faşistlərinin hərbi cinayətlərinin araşdırılması istiqamətində BQXK nəinki konkret heç bir iş görmədi, buna səy də göstərmədi. Hansını deyəsən, belə faktlar bir deyil, beş deyil.

Azərbaycana, problemlərimizə biganəlik BQXK-nın ikili standartlara uyğun fəaliyyətinin əsasını təşkil edirmiş. Sonuncu faktı da oxucularımızın diqqətinə çatdıraq. 2014-cü ildə itkin düşən soydaşlarımızın DNT məlumat bazası yaradıldı və həmin məlumatlar BQXK-ya təqdim edildi. Üstündən az qala 10 il keçməsinə baxmayaraq, bu istiqamətdə hər hansı irəliləyiş görünmür. Bu da BQXK-nin itkin düşən azərbaycanlıların taleyinə biganə yanaşmasının əyani göstəricisi.

1863-cü ildə İsveçrədə yaradılan Beynəlxalq Qırmızı Xaç Komitəsi xüsusi xeyriyyə təşkilatı kimi planetin münaqişələrdən əziyyət çəkən nöqtələrində, dinindən və irqindən asılı olmayaraq, insanlara yardım edir. Amma bu "şəfqətli xeyriyyəçiliyin" altında bəd niyyətlər də gizlənibmiş. Necə deyərlər, adı bulaşmış bu beynəlxalq şəbəkə kiməsə şəfqət göstərəndə, digərinə də kələk gəlirmiş. Biz, sadəcə onları gec tanıdıq. Eybi yoxdur, ziyanın yarısından da qayıtmaq pis deyil.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# İki min il əvvəldən gələcəyə uzanan Böyük İpək Yolu

## Qədim marşrut bu gün xalqları və ölkələri daha çox yaxınlaşdırır




**Böyük İpək Yolu Azərbaycanın inkişafında tarixən təkcə iqtisadi deyil, həm də ictimai-siyasi, mənəvi və elmi dünyagörüşü, sülh şəraitinin, dincyanaşı yaşam tərzinin qorunub saxlanması baxımından mühüm önəm daşıyıb. Bununla belə bu yolun mənəvi-mədəni, sosial nəticələri, eyni zamanda tranzit cəmiyyətlərin də tərəqqisində xüsusi rol oynayıb. Ümumiyyətlə, Böyük İpək Yolu ölkələri quru və dənizlər vasitəsilə yaxınlaşdırmaqla, mövcud əlaqələri genişləndirməklə bərabər, ticarət münasibətləri əsasında konkret iqtisadi-maddi tələbat və ehtiyacları gerçəkləşdirib.**

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi ilə ölkəmizin Böyük İpək Yolunun bərpasında iştirakı diqqət mərkəzində saxlanıldı. Respublikamızın iqtisadi qüdrətinin yüksəlməsində, regional və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində, dünya birliyinə daha geniş şəkildə inteqrasiyanın reallaşmasında bu amil həyati zərurətə çevrildi.

Keçmiş SSRİ-nin dağılması nəticəsində pozulmuş iqtisadi, xüsusi ilə nəqliyyat əlaqələrinin daha geniş coğrafiyada bərpası zərurəti Böyük İpək Yolunun müasir şəraitdə yeni elmi əsaslarla qurulmasını mühüm və təxirəsalınmaz vəzifələrdən biri kimi önə çəkdi. Bu işdə Avropa Komissiyasının hazırladığı və Azərbaycanın iqtisadi inkişaf strategiyasında əsas yer tutan Tarixi İpək Yolunun bərpası, "Avropa-Qafqaz-Asiya" (TRASEKA) nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi mühüm rol oynadı.

Prezident İlham Əliyev iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibəsində müxbirin "Azərbaycanın "Bir kəmər, bir yol" kimi nəhəng infrastruktur layihəsini qısa müddətdə–307 günə icra etməsinə necə nail olub?" sualına cavabında da bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı belə bir təşəbbüsün inkişafımızın sürətlənməsində mühüm rol oynadığını xatırladaraq Azərbaycanın belə bir regional bağlantının mərkəzində dayanmasının önəmli üstünlüklərini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: "Xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq…".

Ötən müddətdə dövlətimizin başçısının vurğuladığı kimi, ilk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyuldu, qonşularla bağlantı körpülərinin qurulması diqqətdə saxlanıldı. Beləliklə, "Bir kəmər, bir yol" layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemi qısa zamanda gerçəkləşdi. Bununla da, sözügedən istiqamətdə sonrakı proseslərin sürətlə aparılmasına əlverişli zəmin yarandı.

Prezident İlham Əliyev belə bir fikir səsləndirərkən, hazırda görülən işləri nəzərdə tutur. Məsələn, indi Yeni Bakı Ticarət Limanı genişləndirilir, çünki bununla Şərqdən Qərbə daşınan yüklərin həcminin artacağı təqdirdə yükaşırma problemlərinin qarşısı alınır. Başqa sözlə, Azərbaycanın mövcud ticarət infrastrukturu bir neçə il əvvəl fəaliyyətə başlayanda onun yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə Yeni Bakı Ticarət Limanının imkanlarını 25 milyon tona qədər çatdırmaq qarşıya mühüm vəzifə kimi qoyulur. Bundan başqa, Xəzər dənizində daha çox gəmi tikintisi diqqətdə saxlanılır. İndi gəmiqayırma zavodunun ildə 20-dək gəmi inşa edəcəyi planlaşdırılır. Bu həm Azərbaycanda, həm də Xəzər dənizində yükdaşımaya tələbatın artması ilə bağlıdır. Ümumiyyətlə, hazırda Azərbaycan Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahibdir. Bu, ölkəmizin daha çox yük daşımaq imkanından xəbər verir.

Azərbaycan indi mövcud dəmir yolunun müasirləşdirilməsini də qarşıya mühüm vəzifə kimi qoyub. Məqsəd qatarların sayının və sürətinin artırılması ilə bağlıdır. Çünki Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi ildən-ilə artır. Eyni zamanda, tariflərlə bağlı vahid siyasətin reallaşması istiqamətində də danışıqlar aparılır. Gömrük qaydaları sahəsində daha geniş qarşılıqlı əlaqələndirmə qurulması da diqqətdə saxlanılır.

Prezident İlham Əliyev müsahibədə müxbirin "Azərbaycan "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" layihəsinin təşəbbüskarıdır. Bu, nə dərəcədə əhəmiyyətlidir?" sualını da cavablandırıb: "Əslində, bu, "Bir kəmər, bir yol" layihəsinin bir hissəsidir. Çünki bizə məlumdur ki, hazırkı geosiyasi vəziyyətdə Transxəzər marşrutu Mərkəzi Asiya ölkələri üçün ən əhəmiyyətli marşruta çevrilib. Dediyim kimi, xəritəyə baxanda aydın olur ki, Avropaya və əks-istiqamətdə yüklərin daşınması üçün Mərkəzi Asiya ölkələrinin seçimi o qədər də geniş deyil".

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasına xidmət etməklə region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda Çin–Qazaxıstan sərhədindən başlayan marşrut Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Orta Dəhlizlə artacaq yüklərin optimal ötürülməsi məqsədilə zəruri infrastrukturun genişləndirilməsi, dəhliz boyu ölkələrin vahid tarif siyasətinin formalaşması istiqamətində aparılan məsələlərin beynəlxalq səviyyədə uğurla müzakirə edilməsi, eləcə də bu istiqamətdə ölkəmizdə vahid nəqliyyat sistemi və gömrük əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi istiqamətində aparılan uğurlu işlər gələcəkdə bu dəhlizlə daşımaların sürətlə artmasına səbəb olacaq. Eyni zamanda Orta Dəhlizin potensial imkanlarından səmərəli istifadə edilməsi əlverişli coğrafi mövqedə yerləşən Azərbaycanın iqtisadiyyatının dayanıqlı və davamlı inkişafına mühüm töhfə verəcək.

Orta Dəhlizdən keçən blok qatarı Çindən Avropaya yükləri orta hesabla 20-25 günə çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir. Hazırda 10 milyon metrik ton və ya hər 200 min konteynerlə qiymətləndirilən bu marşrutun potensialının Azərbaycan, Qazaxıstan və Gürcüstan tərəfindən genişləndirilməsi istiqamətində mühüm işlər görülür.

Yeri gəlmişkən, Transxəzər marşrutunu gəmilərsiz təsəvvür etmək mümkün deyil. Son dövrlər ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanmasının tərkibinin yenilənməsi dəniz nəqliyyatının rəqabətqabiliyyətini yüksəldərək bu dəhlizin potensial imkanlarından istifadəni xeyli genişləndirib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ilin yanvar-iyun aylarında dəniz nəqliyyatında yükdaşımaların həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21,7 faiz artaraq 4 milyon 514 min 700 ton təşkil edib. Ölkəmizin dəniz limanları tərəfindən isə 2023-cü ilin birinci yarımilliyində 6 milyon 328 min ton yükaşırma işləri həyata keçirilib ki, bunun da 82,4 faizi tranzit yüklərin payına düşüb.

Rusiya–Ukrayna müharibəsi başlayandan indiyədək dünyanın ən böyük yükdaşıma şirkətləri tərəfindən Azərbaycan üzərindən daşımaları şərtləndirən Orta Dəhlizdən istifadəyə start verilib. Bu isə ölkəmizin ərazisindən tranzit yükdaşımaların həcmində kəskin artıma gətirib çıxarıb.

Orta Dəhliz Bakıda aparılan işlərlə yekunlaşmır. Layihə çərçivəsində Xəzərin şərq sahilində inkişaf etdirilən və genişləndirilərək modernləşdirilən limanlar arasında Kurık (Qazaxıstan) və Türkmənbaşı (Türkmənistan) da var.

Kurıkın illik emal gücü 4,1 milyon ton və ya 20 futluq ekvivalentdə 240 min konteyner idisə, hazırda həcm təxminən 6 milyon tona çatdırılıb.

Türkmənbaşı limanının gücü isə 4 milyon ton və 20 futluq ekvivalentdə 400 min konteyner olduğundan, ilk baxışdan real daşıma həcmləri üçün kiçik sayıla bilər. Lakin Orta Dəhliz sürətlə inkişaf etdiyindən, Türkmənistanın layihədəki yeri və rolu da dəfələrlə artacaq.

*"Xalq qəzeti"*

---

# Azərbaycanın Çinlə ticarət dövriyyəsi 37 faizdən çox artıb

## Bu ölkə 4-cü böyük idxal-ixrac tərəfdaşımızdır

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin ilk 6 ayı ərzində Azərbaycanla Çin arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 37,7 faiz və ya 361,9 milyon dollar artaraq 1 milyard 321,8 milyon dollar təşkil edib.**

I yarımildə respublikamızdan dost ölkəyə ixracın həcmi də 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 dəfə və ya 38,2 milyon dollar artaraq 55,7 milyon dollara bərabər olub. Hesabat dövründə Çindən Azərbaycana idxalın həcmi isə 34,3 faiz və ya 323,7 milyon dollar artaraq 1 milyard 266,1 milyon dollara yüksəlib.

Ümumiyyətlə, iki ölkə arasında arasında ticarət dövriyyəsinin həcmi 30 ildə 800 dəfədən çox artıb. Başqa sözlə, Azərbaycanın Çinlə ticarət dövriyyəsinin həcmi 1992-ci ildə, diplomatik münasibətlərin başlanğıcında 1,49 milyon dollar olduğu halda, 2021-ci ildə 1,2 milyard dollara çatıb. Ötən ildə də ikitərəfli ticari-iqtisadi əlaqələr sağlam və sabit inkişaf tempini qoruyub, ticarət dövriyyəsi 2021-ci illə müqayisədə 23,5 faiz artaraq 2 milyard 159 milyon ABŞ dolları təşkil edib. Beləliklə, Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşı kimi tanınıb.



Göründüyü kimi, ötən dövrdə qarşılıqlı etimad, hörmət və dostluğa əsaslanan Azərbaycan-Çin əlaqələri yüksələn xətlə inkişaf edib. Bu müsbət dinamika ölkələrimizi etibarlı tərəfdaşa çevirib. Dövlət başçıları Prezident İlham Əliyev və Si Cinpinin siyasi iradəsi və dostluğu ikitərəfli əməkdaşlığın inkişafında əsas hərəkətverici qüvvə kimi çıxış edib. İki ölkə arasında təşəkkül tapan yüksək səviyyəli əlaqələr iqtisadi tərəfdaşlığın gücləndirilməsi üçün geniş imkanlar yaradıb.

Azərbaycanın Çindəki ticarət nümayəndəsi Teymur Nadiroğlu mediaya müsahibəsində bildirib ki, Çində istehlak bazarında baş verən kiçilmə nəticəsində qısamüddətli perspektivdə bir sıra qida məhsullarımızın bu ölkəyə ixracında müəyyən azalma müşahidə edilsə də, uzunmüddətli perspektivdə mövcud bazarın Azərbaycan üçün önəmi daha da artacaq. İki ölkə arasında ticarət həcminin, xüsusən də respublikamızdan dost ölkəyə qeyri-neft məhsullarının ixracının artırılması iqtisadi əlaqələri daha da genişləndirəcək.

Çin dünyanın istehsal mərkəzi olduğu üçün burada xammala böyük tələbat var. Bu baxımdan ölkəmizdə istehsal olunan kimya sənayesinə aid məhsullara, xüsusən də polimerlərə olan tələbat daha çoxdur. Bununla yanaşı, Azərbaycan pambığına da çinli şirkətlər tərəfindən xüsusi maraq göstərilir.

Azərbaycan xalçaçılıq mədəniyyətinin Çində tanıdılması və xalçalarımızın bu ölkəyə ixracı ilə bağlı da davamlı tədbirlər həyata keçirilir. Xalçalarımız Çində fəaliyyət göstərən ticarət evlərimizdə nümayiş etdirilir. Xalçaçılıq mədəniyyətimizlə bağlı Çin dilində məlumatlar hazırlanıb müvafiq qurum və şirkətlərə göndərilir.

Artıq ilk dəfə olaraq əllə toxunulmuş Azərbaycan xalçalarının Çinə ixracı reallaşıb. Xalçalarımızın "Beijing Hualian Group" (BHG) şirkətinə məxsus bu ölkənin tanınan "SKP Mall" ticarət mərkəzindəki "SKP Home Selected" mağazasında satışı uğurla gerçəkləşib.

Azərbaycanın Çindəki ticarət nümayəndəsinin məlumatına əsasən Çin müxtəlif ölkələrin şərabçıları arasında böyük rəqabətə malik geniş şərab istehlakı bazarına malikdir. Belə ki, bu dövlət 70-dən çox ölkədən şərab məhsulları idxal edir. Artıq Azərbaycan şərabı da Çin idxalçıları və istehlakçıları arasında populyarlıq qazanır. Şübhəsiz ki, bu məsələdə ölkəmizdə çinli istehlakçıların marağını daha da artırmaq üçün şərab məhsullarının butik, orijinal, yüksək keyfiyyətli, münasib qiymətli olaraq ixracı istiqamətində tədbirlər həyata keçirilir.

Onu da qeyd edək ki, respublikamızın Çindəki ticarət nümayəndəliyi tərəfindən Azərbaycan şərabçılıq mədəniyyətinin və şərablarının bu ölkədə təbliğ edilməsi istiqamətində mütəmadi şəkildə müvafiq layihələr icra olunur. Bu məqsədlə 2018-ci ildən etibarən Çində bir neçə şəhərdə Azərbaycan Şərab və Ticarət Evi fəaliyyət göstərir. Hər il keçirilən sərgilərdə Azərbaycan şərabları nümayiş olunur. Eyni zamanda populyar somelyelərin iştirakı ilə Çində Azərbaycan şərablarının master-klas və dequstasiya tədbirləri təşkil edilir. Bu tədbirlər zamanı, xüsusilə "Bayan Şirə", "Mədrəsə" və "Xindoqni" kimi Azərbaycanın aborigen üzüm sortlarından hazırlanan şərab məhsulları təbliğ olunur.

İki ölkə arasında əlaqələrin inkişafında mühüm rol oynayan Azərbaycanın Çində fəaliyyət göstərən ticarət evlərindən danışarkən, bir məqamı da xatırlatmaq istərdik. "Made in Azerbaijan" məhsullarının dost ölkəyə ixracının artırılmasında və bu ölkədə məhsullarımızın təbliğində 2018-ci ildən etibarən Şanxay, Urumçi, Çindao, Harbin, Cinan, Vuhan, Canciaciye kimi şəhərlərdə dörd ticarət evi, üç şərab evi və dörd ticarət bölməsi uğurla fəaliyyət göstərir. Bundan savayı, Çinin məşhur "JD.com" elektron ticarət platformasında onlayn "Azərbaycan Ticarət Evi" də İki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişafına mühüm təsir göstərir.

Xatırladaq ki, sözügedən ticarət evləri, eləcə də "JD.com" elektron ticarət platforması "Made in Azerbaijan" məhsulları ilə yanaşı, ölkəmizin investisiya, nəqliyyat-tranzit və turizm potensialının təbliğində də önəmli vasitə kimi nüfuz qazanıb. Bu cür ticarət evlərinin sayının artması isə daha çox çinli vətəndaşın ölkəmizlə yaxından tanış olmaq imkanı yaradır.

İki ölkə arasında ticari-iqtisadi əməkdaşlıqdan bəhs edərkən, bir məqamı da xatırladaq. Bu da Çin şirkətlərinin Azərbaycana sərmayə marağının dəyərləndirilməsi və respublikamızın investisiya mühitinin Çində təbliği vəziyyəti ilə bağlıdır. Bununla bağlı bildirək ki, 1995-ci ildən indiyədək bu ölkə sərmayədarları tərəfindən respublikamıza ümumilikdə 900 milyon ABŞ dollarından çox birbaşa investisiya yatırılıb. Azərbaycanda 200-dən çox Çin kapitallı şirkət qeydiyyatdan keçib və bu rəqəm ildən-ilə artmaqdadır. Çin şirkətləri Azərbaycanda sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələrdə uğurla fəaliyyət göstərirlər.

Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi müəyyənləşdirilib. Bununla yanaşı, dövlətimizin başçısının tapşırığına əsasən işğaldan azad edilən ərazilərdə "Yaşıl enerji" zonasının yaradılması nəzərdə tutulub. Bu baxımdan alternativ və bərpaolunan enerji sahəsində iki ölkə arasında böyük əməkdaşlıq potensialı mövcuddur və hazırda çinli investorlar tərəfindən bu sahəyə böyük maraq göstərilir. Bütün bunlarla bərabər, yaxın gələcəkdə respublikamızda Azərbaycan-Çin Sənaye Parkının qurulması da nəzərdə tutulur.

*V.BİNYATOĞLU, "Xalq qəzeti"*

---

# **Ərdoğan:** Ankara müdafiə sənayesinə böyük əhəmiyyət verir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çərşənbə axşamı bildirib ki, embarqolara baxmayaraq, Türkiyə hökuməti müdafiə sənayesinin inkişafına böyük əhəmiyyət verir. Türkiyə Prezidenti İstanbulda keçirilən 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisinə videomüraciətində deyib: "Türkiyə qarşıya çıxan bir çox maneələrə, gizli və açıq embarqolara baxmayaraq, müdafiə sənayesini inkişaf etdirməyə böyük əhəmiyyət verir".**



İyulun 28-nə qədər davam edəcək ən böyük qlobal müdafiə tədbirlərindən biri olan bu sərgidə quru nəqliyyat vasitələri, silahlar, simulyatorlar, radarlar, sonarlar, dəniz platforması həlləri, aviasiya sistemləri, raketlər, logistika vasitələri, təchizat avadanlığı və təhlükəsizlik sistemləri də daxil olmaqla, bir sıra müdafiə məhsulları nümayiş etdirilir. Rəcəb Tayyib Ərdoğan daha sonra deyib: "Türkiyənin müdafiə sənayesi sektoru son illərdə bütün dünya tərəfindən heyranlıqla izlənilən bir uğur hekayəsi yazır. Sənayemiz zirehli texnikası, artilleriyası, raketləri, hava hücumundan müdafiə sistemləri, münaqişə zonalarında sınaqdan keçirilən hər cür silah və radar sistemləri ilə öz potensialını bir daha nümayiş etdirdi".

Türkiyə Prezidenti öz ölkəsinin pilotsuz təyyarə texnologiyası sahəsindəki imkanlarını yüksək qiymətləndirib, onun bu sahədə dünyanın ilk üç ölkəsi arasında olduğunu deyib. O əlavə edib ki, öz döyüş gəmisini istehsal edən 10 ölkədən biri olan Türkiyə bu sahədə də mühüm ixracatçıdır. Türkiyənin müdafiə sənayesində iz qoyacaq 850 fərqli layihəni "həssaslıqla" həyata keçirdiyini söyləyən R.T.Ərdoğan bildirib: "Keçən il 4,4 milyard dollarlıq ixracat rəqəminə çatdıq. Bu ilin ilk altı ayında 2,3 milyard dollarlıq rekord ixrac səviyyəsinə nail olduq. 2023-cü ildə hədəfimiz 6 milyard dollardır". O əlavə edib ki, Ankara təkcə məhsul satmaq üçün deyil, həm də uzunmüddətli tərəfdaşlıqlar qurmaq və birgə layihələr hazırlamaq istəyir.

"Müdafiə sənayesindəki bilik və təcrübəmizi dostlarımızın faydalanması üçün təqdim etməkdən məmnunuq", - deyə R.T. Ərdoğan sonda bildirib.

*"Xalq qəzeti"*

---

# Ehtiyatlı olun: yanğın ola bilər!

**Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirilən kütləvi maarifləndirmə işlərinə, o cümlədən edilən müraciətlərə, əkinçilik fəaliyyəti ilə məşğul olan fermer və təsərrüfat sahibləri ilə mütəmadi olaraq keçirilən maarifləndirici xarakterli görüşlərə baxmayaraq, yenə də bir sıra yanğın təhlükəsizliyi qaydalarına etinasız münasibət müşahidə olunmaqdadır. İcrası sadə olan həmin təhlükəsizlik qaydalarına belə münasibət isə sonda acı nəticələrə gətirib çıxarır.**

Son zamanlar meşə və meşə ətrafı ərazilərdə baş verən yanğınlarla əlaqədar aparılan təhlillər bu yanğınların bir sıra hallarda meşə massivi ilə əkin sahələri arasında şumlama yolu ilə təhlükəsizlik zolaqlarının yaradılmaması ilə bağlı olduğunu deməyə əsas verir. Belə ki, qanunvericiliyə uyğun olaraq əkin sahələri ilə meşə zolağı arasında eni 4 metrdən az olmamaqla şumlama aparılmalıdır ki, bu da əkin sahəsində hər hansı səbəbdən baş verən yanğının genişlənərək meşəyə keçməsinin qarşısını alır.

Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi bir daha əkinçilik fəaliyyəti ilə məşğul olan şəxslərə, o cümlədən fermer və təsərrüfat sahiblərinə müraciət edərək əkin sahələrinin ətrafında eni 4 metrdən az olmamaqla mineral zolağın yaradılmasının qanunvericiliklə tələb olunduğunu və bu tələbin icra olunmamasının hüquqi məsuliyyət yaratdığını xatırladır.

*S.RZAYEVA, "Xalq qəzeti"*

# Azərbaycandan Avropaya “yaşıl enerji” körpüsü

## Bu məqsədlə Gürcüstan, Rumıniya və Macarıstanla birgə müəssisə yaradılır

(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Gürcüstanın Qara dəniz sahillərindən Rumıniyanın Qara dəniz sahillərinədək elektrik kabelinin çəkilməsi haqqında saziş imzalanıb. Saziş çərçivəsində Gürcüstan və Rumıniya arasında min meqavatadək gücə malik 1195 kilometr uzunluqda elektrik ötürmə xəttinin çəkilməsi və rəqəmsal birləşdirici kabelin uzadılması planlaşdırılır. Kabel Azərbaycanda istehsal olunan “yaşıl” elektrik enerjisinin Gürcüstan



və Qara dəniz vasitəsilə Rumıniyaya və oradan Avropanın digər hissələrinə nəqli üçün nəzərdə tutulub.

Yeri gəlmişkən, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen sözügedən sazişin Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracağını və regionlarımıza təmiz enerjiyə keçidə müsbət təsir göstərəcəyini deyib. Ursula fon der Lyayen daha sonra sözügedən sənəddə bərpaolunan enerjiyə geniş diqqət ayrılmasından məmnunluğunu ifadə edərək xatırladıb: “Bərpaolunan enerji mənbələrinin artmaqda olan payının inteqrasiyası üçün bizə güclü elektrik enerjisi interkonnektorları lazımdır. Məhz buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bu, çox iddialı bir layihədir.

Bu təşəbbüs bizi həm rəqəmsal kommunikasiya, həm də enerji üçün Qara dənizin hər iki tərəfi, həmçinin Xəzər regionu ilə bağlayacaq. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini də gücləndirməyə kömək edəcək”.

Prezident İlham Əliyev yuxarıda xatırladılan iclasdakı çıxışında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında sazişin icrası ilə adları çəkilən dörd ölkə tərəfindən Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə veriləcəyini qeyd edib. Dövlətimizin başçısı daha sonra bu sazişi “yaşıl enerji” dəhlizinin yaradılması istiqamətində atılan mühüm addım kimi dəyərləndirib və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenə enerji təhlükəsizliyi və şaxələndirilməsi layihələrində Azərbaycana verdiyi davamlı dəstəyə görə minnətdarlıq edib.

Dövlətimizin başçısı çıxışlarının birində ölkəmizin Avropanın mühüm elektrik enerjisi, əsasən, “yaşıl enerji” təchizatçısına çevrilməyi planlaşdırdığını deyərək, respublikamızın quruda külək və günəş enerjisinin həcminin 27 qiqavatdan çox, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisinin 157 qiqavat təşkil etdiyini bildirib.

Ölkə rəhbəri 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisinin istehsal olunacağının planlaşdırıldığını və həmin göstəricilərin 80 faizinin ixraca yönəldiləcəyini, ümumiyyətlə, 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə güclər yaradılmasının nəzərdə tutulduğunu söyləyib: “Təkcə bir qlobal enerji şirkəti Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır. İki gün əvvəl Azərbaycanın Energetika Nazirliyi digər qlobal enerji şirkəti ilə çərçivə sazişini imzalayıb. Həmin şirkət Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycan ixracının birinci mərhələsində, ən azı, 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaq”.

Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanması bu regionda bərpaolunan enerjinin ixracı ilə bağlı mühüm əhəmiyyət daşıyan yeni bir imkandır. Bu sənəd, eyni zamanda, dünyada baş verən hazırkı dərin böhran şəraitində həmrəylik nümayiş etdirməyin və ehtiyatları bir araya gətirməyin zəruriliyinin bariz ifadəsidir.

Ümumiyyətlə, strateji tərəfdaşlıq haqqında adıçəkilən saziş enerji sahəsində uzunmüddətli qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addım kimi diqqət çəkir. Deyə bilərəm ki, bir tərəfdən Azərbaycan və Gürcüstan, digər tərəfdən isə Avropa arasında “yaşıl enerji” ticarətinin inkişafını nəzərə alaraq, bərpaolunan enerjinin generasiyası üzrə mövcud potensialdan faydalanmaq bu gün heç vaxt olmadığı qədər mühüm əhəmiyyət kəsb edir.

Avropa Komissiyası yaydığı anlaşma açıqlamasında bu sazişin Avropa İttifaqının Cənubi Qafqazdakı tərəfdaşlığını inkişaf etdirəcəyini və hər iki regiona “təmiz enerji” keçidində kömək edəcəyini, eyni zamanda, təchizat təhlükəsizliyini artıracağını bəyan edib. Eyni zamanda, Brüsselin etibarlı tərəfdaşlarla əməkdaşlığının getdikcə daha çox önəm daşıdığını bildirib.

Qeyd edək ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti**

### Ekspert rəyi

**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**



Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma bir müddət bundan əvvəl eksklüziv müsahibəsində ölkəsinin respublikamızla birgə “yaşıl dəhliz” layihəsini maliyyələşdirməyə maraqlı olduğunu bildirib. O, iki ölkə arasında əlaqələrin təbii qaz sahəsində özünü yüksək səviyyədə doğrultduğunu, bununla belə Azərbaycanın bərpaolunan enerji sahəsində də böyük potensialı olduğunu diqqətə çatdırıb.

Səfir qeyd edib ki, Cənubi Qafqazdan “yaşıl elektrik” enerjisi Gürcüstan və Rumıniya vasitəsilə Macarıstanın enerji təchizatının şaxələndirilməsi və təmin edilməsi üçün əlverişli bir imkandır. Qara dəniz sualtı kabel layihəsinin həyata keçirilməsi ilə bağlı artıq texniki və maliyyə məsələlərinin nəzərdən keçirilməsinə başlanılıb. Bu, demək olar ki, 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəməri olacaq. Yeri gəlmişkən, Macarıstan hökuməti layihədə iştirak etməyə hazırdır.

Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq.

Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq nəticəsində bu 4 ölkənin elektrik ötürücü xətləri və sistemləri birləşdirilməklə Avropa təkcə Gürcüstana deyil, həm də bütün Cənubi Qafqaz regionuna qoşula biləcək. Adları sadalanan dövlətlər arasında iqtisadi əməkdaşlığın inkişafı bu layihənin həyata keçirilməsini yeni müstəviyə çıxaracaq.



## Suvarma kəməri şəbəkəsi genişlənir

### İlin əvvəlindən 25 kilometr boru xətti çəkilib

***Azərbaycanda bu ilin ilk yarısında 24,5 kilometr suvarma məqsədli boru kəməri çəkilib.***

“Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin məlumatına görə, hesabat dövründə ölkədə 62,4 kilometr suvarma kanalı və 71 kilometr kollektor-drenaj şəbəkəsi tikilib, yenidən qurulub və bərpa edilib.

Suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə ölkə üzrə 933 ədəd hidrotexniki qurğu, 2 min 353 ədəd subartezian quyusu və 119 ədəd nasos stansiyası təmir edilib.

Xatırladaq ki, respublikamızda əkin sahələrini suvarma suyu ilə təmin edən kanalların təxminən 70 faizi torpaq məcralıdır.

## Astaraçay üzərində yeni avtomobil körpüsü salınır

### Bu, Şimal-Cənub dəhlizini canlandırmaq tələbi ilə bağlıdır



***Azərbaycanla İran arasında Astaraçay üzərində yeni avtomobil körpüsünün tikintisinin başa çatdırılması və yaxın 4 ay ərzində istismara verilməsi barədə razılığa gəlinib.***

Bu barədə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və İranın Yol və şəhərsalma naziri Mehrdad Bəzirpaş arasında telefon danışığında razılığa gəlinib.

Ş.Mustafayev bu yaxınlarda İranın sərhədyanı Astara şəhərində keçirilən görüşə toxunaraq, mütəmadi olaraq yüksək səviyyədə görüşlər keçirildiyini açıqlayıb. O, həmçinin İranın yol və şəhərsalma nazirini Tehran və Bakı arasında əlaqələrin inkişafı üçün Azərbaycana səfərə dəvət edib.

***“Xalq qəzeti”***

**Azərbaycan İstehlakçı Hüquqlarının Müdafiəsi və Mühafizəsi üzrə Beynəlxalq Şəbəkənin (ICPEN) Məsləhət Qrupuna üzv seçilib. 2023–2024-cü illərdə fəaliyyət göstərəcək Qrupa hazırda Polşanın Rəqabət və İstehlakçıların Müdafiəsi Ofisi sədrlik edir.**

## İstehlakçı hüquqlarının müdafiəsi bəşəri missiyadır



Məsləhət Qrupuna üzvlük Azərbaycanın bu şəbəkəyə üzv ölkələrlə müvafiq sahədə əməkdaşlığının gücləndirilməsinə, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi və səmərəli tətbiqi istiqamətində aparılan işlərə töhfə verəcək.

Dövlət Xidmətindən redaksiyamıza daxil olan məlumatda bildirilib ki, təşkilata üzvlük çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ICPEN-in Məsləhət Qrupunun bu günlərdə keçirilmiş ilk iclasında iştirak edib. İclasda istehlakçı hüquqlarının müdafiəsi sahəsində əsas prinsiplər, tətbiq olunan mühafizə metodları və üzv dövlətlərlə əməkdaşlıq məsələləri müzakirə edilib.

Qeyd edək ki, Məsləhət Qrupunda ölkəmizlə yanaşı, ABŞ, Kanada, Kolumbiya, Peru, Portuqaliya, Böyük Britaniya, Almaniya, İrlandiya, Latviya, Niderland, Belçika, Norveç, Türkiyə, Avstraliya, Yeni Zelandiya, Zimbabve və Esvatini təmsil olunurlar. Azərbaycan Respublikası 2006-cı ildən etibarən İstehlakçıların Hüquqlarının Müdafiəsi və Mühafizəsi üzrə Beynəlxalq Şəbəkəyə (ICPEN) üzvdür və təşkilatda İqtisadiyyat Nazirliyini təmsil edir.

***“Xalq qəzeti”***

# “Azərişıq” ASC-nin Qarabağ hesabatı

## Hadrutda jurnalistlərlə görüşdə uğurlardan geniş söhbət açıldı

**Dünən Hadrut qəsəbəsində “Azərişıq” ASC-nin əməkdaşlarının media nümayəndələri ilə görüşü keçirildi. Tədbirdə 2023-cü ilin 6 ayı ərzində paylayıcı şəbəkələrdə görülmüş işlərlə bağlı jurnalistlərə ətraflı məlumat verildi.**




Səhmdar cəmiyyətin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Vaqif Mustafayev hesabat dövründə paylayıcı şəbəkələrdə həyata keçirilmiş islahatlar nəticəsində əldə edilmiş nailiyyətlər, ictimai, sosial və maarifləndirici fəaliyyət haqqında media nümayəndələrini məlumatlandırdı.

“Azərişıq” ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə çıxış edərək səhmdar cəmiyyətin gənc mütəxəssislərin təkmilləşdirilməsi, kadr islahatları planından danışdı, ölkədə, əsasən də, işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma, bərpa işləri və digər innovativ yeniliklərlə bağlı ətraflı məlumat verdi.

İşğaldan azad edilmiş ərazilərdə hazırda “Azərişığ”ın 932 abunəçisinin olduğunu diqqətə çatdıran A.Məmmədzadə bildirdi ki, onların 279-u qeyri-əhali qrupuna aiddir. Həmin abunəçilərin hamısı “smart” sayğaclarla təmin olunub. Mərkəz direktoru onu da əlavə etdi ki, növbəti illərdə qurumun bu ərazilər üzrə abunəçilərinin sayı xeyli artacaq və “Azərişıq” ASC elektrik enerjisinə olan istənilən tələbatı tam qarşılamağa hazırdır.

Bundan əlavə, ölkədə alternativ və bərpaolunan enerji ilə təminat sahəsində görülən işlər barədə məlumat verən A. Məmmədzadə dedi ki, bu ilin ilk yarısında Xızı rayonunun Yeni Yaşma və Şorabad qəsəbələrində yerləşən külək elektrik stansiyalarında 24,3 milyon kilovat-saat elektrik enerjisi istehsal olunaraq elektrik şəbəkələrinə ötürülüb. Eyni zamanda, “Azərişıq” tərəfindən “yaşıl enerji” zonasının tələblərinə uyğun olaraq 35 kilovat-saat izolyasiyalı kabel xəttinin tətbiqinə başlanılıb. Həmin xətt vasitəsilə, həmçinin internetin ötürülməsi təmin olunacaq.

Sonra “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti Texniki Departamentinin direktoru Vüsal Qənbərov cari ilin ilk yarısında şəbəkələrdə aparılan yenidənqurma və bərpa işlərindən söhbət açdı. O, müasir texnologiyaların geniş tətbiqi və təkmilləşdirilməsi, çılpaq naqillərlə çəkilmiş elektrik veriliş xətlərinin tədricən kabel xətləri ilə əvəz edilməsi, o cümlədən şəbəkələrdəki güc mərkəzlərinin rəqəmsal qurğu və avadanlıqlarla təchiz edilməsini xüsusi qeyd etdi.

Bildirilib ki, hesabat dövründə ölkə ərazisində, ümumilikdə, 362 komplekt transformator məntəqəsi quraşdırılıb. Bundan əlavə, 6 ay ərzində 35, 10 və 0,4 kilovoltluq 306, 5 kilometr yeni kabel və 1559,3 kilometr yeni hava xətləri çəkilib. Yanvar-iyun aylarında yarımstansiyalarda olan avadanlıqların texniki vəziyyəti yoxlanılaraq aşkar edilmiş nasazlıqların aradan qaldırılması üçün 6, 10, 35 və 110 kilovoltluq 1348 ədəd elektrik avadanlığının təmir, bərpa və sınaq işləri aparılıb.

Bundan əlavə, hesabat dövründə ölkə üzrə, ümumilikdə, 6305 kilometrdən artıq elektrik verilişi xətlərində və 590 ədəd güc transformatorunda təmir, bərpa və sınaq işləri həyata keçirilib, təhlükəsizlik tədbirlərini gücləndirmək məqsədilə 90 ədəd komplekt transformator məntəqəsində çəpərləmə işləri yerinə yetirilib. Eyni zamanda, “Azərişıq” ASC-nin Tədbirlər Planına salınmış 40 kəndin 18-də elektrik şəbəkəsinin yenilənməsi işləri yekunlaşdırılıb. Digər 22 kənddə isə analoji işlər davam etdirilir.

V. Qənbərov, həmçinin bildirdi ki, cari ilin birinci yarısında əhali istehlakçılarına aid 139 min 807 ədəd, qeyri-əhali istehlakçılarına aid isə 11 min 677 ədəd uçot dəsti bərpa olunub. Görülmüş işlər nəticəsində istehlakçılara satılan faydalı elektrik enerjisinin həcmi 9,2 milyard kilovat-saata çatdırılıb, bunun müqabilində yığım səviyyəsi 98,7 faiz təşkil edib. O, eyni zamanda, ölkədə həyata keçirilən “100 kənd” layihəsi və Qarabağda görülmüş işlər barədə media nümayəndələrinə ətraflı məlumat verdi.

“Azərişıq” ASC-nin Enerji Satışı Departamentinin informasiya araşdırma idarəsinin rəis müavini Rüstəm Quliyev 2023-cü ilin 6 ayı ərzində 10 milyard 95 milyon kilovat-saat elektrik enerjisinin alındığını və bu dövrdə 140 min ədəd elektrik sayğacının quraşdırıldığını diqqətə çatdırdı. Rəis müavini, həmçinin ilin ötən dövründə enerji satışı fəaliyyəti üzrə həyata keçirilmiş tədbirlər, əldə olunan nəticələr və cari ilin sonuna nəzərdə tutulan hədəflər barədə ətraflı məlumat verdi. Son illər elektrik enerjisinin tələbatında iqlim şərtlərinin birbaşa təsiri olduğunu və bunun nəticəsi olaraq yay mövsümündə enerjiyə daha çox ehtiyacın yarandığını bildirən R. Quliyev bu istiqamətdə aparılan araşdırma və təhlillər barədə məlumat verdi.

Qeyd edildi ki, cari ilin avqust ayında ölkədə elektrik enerjisinə olan tələbatın 2 milyard 90 milyon kilovat-saata çatacağı proqnozlaşdırılır ki, bu da rekord göstərici sayıla bilər. Bütövlükdə isə, ilin sonunadək ölkədə 21 milyard 122,5 milyon elektrik enerjisinin istehlakı gözlənilir. Bu isə 2022-ci illə müqayisədə 1 milyard 38 milyon kilovat-saat çoxdur.

Qurum rəsmisi, həmçinin ilin sonunadək yığım səviyyəsinin 97,2 faizə çatdırılacağını və 280 mindən çox sayğacın quraşdırılacağını bildirdi. Qeyd olundu ki, bu il üçün texniki itkilərin maksimum faiz həddinin 8,6 faiz olacağı proqnozlaşdırılıb.

Daha sonra “Azərişıq” ASC üzrə “Asan Xidmət” vasitəsilə müraciətlərin qəbul edilməsi, emalı və icrası barədə Cəmiyyətin Asan Xidmətlə İş və Elektron Xidmətlər Departamentinin direktor müavini İnam Yusifov müvafiq məlumatları media nümayəndələrinin diqqətinə çatdırdı.

Cəmiyyətin İnformasiya Texnologiyaları Departamentinin şöbə rəisi Vüsal İsayev cari ilin ötən dövrü ərzində elektron xidmətlər, sms-xəbərdarlıq, rəqəmsal həllər və müasir proqram tətbiqləri barədə ətraflı məlumat verdi, yeni tətbiqlərin istifadə qaydalarını nümayiş etdirdi.

Sonda media nümayəndələrini maraqlandıran suallar ətraflı cavablandırıldı.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

***Hadrut***



# Qarabağ və Şərqi Zəngəzurda “ağıllı” aqrar şəbəkə genişlənir

## Bu rayonlarda ət və süd istehsalı yüksəlib

**Ölkədə kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi ilə bağlı artıq çoxsaylı təcrübələr yaranıb. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi-tədqiqat institutları tərəfindən təcrübə xarakterli, özəl şirkətlər tərəfindən isə kommersiya məqsədi ilə “ağıllı istixana” və “ağıllı bağ”lar qurulub, torpaq və su sensorları, “ağıllı” suvarma sistemləri, aqrodronlar, aqrorobotlar, “dəqiq” əkin texnologiyaları tətbiq olunub.**

Aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması, səmərəliliyinin və şəffaflığının artırılması, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədi ilə institusional islahatlar həyata keçirilib. “Elektron kənd təsərrüfatı” informasiya sisteminin (EKTİS) tətbiq edilməsinə başlanılıb, artıq 2020-ci ildən başlayaraq bitkiçilik və heyvandarlıq sahəsində fermerlərə subsidiyaların alternativsiz olaraq EKTİS vasitəsilə verilməsi təmin edilib.

Aqrar sığorta sahəsində kompleks islahatlar aparılıb, yeni qanunvericilik bazası və dövlət-özəl tərəfdaşlığı mexanizminə əsaslanan idarəetmə sistemi yaradılıb. Yeni aqrar sığorta mexanizmi artıq 2020-ci ildən etibarən həm bitkiçilik, həm də heyvandarlıqda tətbiq edilir. Hazırda aqrar sığorta sisteminin tətbiqinin genişləndirilməsi istiqamətində tədbirlər ardıcıl olaraq həyata keçirilir və aqrar sığorta göstəriciləri hər il yüksəlir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının dövlət qayğısı ilə əhatə olunması bütün əsas istiqamətlərdə irəliləyişlərə yol açıb. Son 10 il ərzində ölkədə real ifadədə kənd təsərrüfatı məhsulları istehsalı 46,8 faiz (o cümlədən bitkiçilik məhsulları istehsalı 53 faiz, heyvandarlıq məhsulları istehsalı 42,5 faiz) artıb. Bu dövr ərzində kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac həcmi təqribən 26,9 faiz artıb ki, bu da xüsusilə ilkin kənd təsərrüfatı məhsullarının ixrac həcminin bir neçə dəfə çoxalması hesabına olub.

Əsas ərzaq məhsulları üzrə yerli istehsal potensialının gücləndirilməsi hesabına özünütəminetmə səviyyəsi əksər məhsullar üzrə yaxşılaşıb. Hazırda özünütəminetmə səviyyəsi meyvə-tərəvəz, bostan məhsulları və yumurta üzrə 100 faiz, ət və süd məhsulları üzrə ümumən 85-86 faiz, kartof üzrə təqribən 90 faiz, buğda üzrə təqribən 60 faiz təşkil edir.

Təbii resursların məhdudluğu səbəbindən yerli fermerlər tərəfindən zəruri həcmdə və ya keyfiyyətdə, həmçinin sərfəli qiymət şərtlərinə uyğun səviyyədə istehsal oluna bilməyən ərzaq məhsullarının daha əlverişli şərtlərlə idxal olunaraq ehtiyatlarının yaradılması və emal olunması üçün müvafiq saxlama infrastrukturu və istehsal bazası yaradılıb. Belə ki, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun təkmilləşdirilməsi məqsədilə son illər ərzində dövlət dəstəyi hesabına regionlarda 400 min ton tutumu olan soyuducu anbarların, 1,9 milyon ton tutumu olan müasir taxıl elevatorlarının və digər logistika obyektləri qurulub. Bu sahənin potensialının reallaşdırılmasına yönəldilən resursların həcmi artırılır.

Son illər ərzində kənd təsərrüfatı məhsulları istehsalında dinamik artım müşahidə olunur, bitkiçiliyin canlanması üçün intensiv və ekstensiv amillərə xüsusi diqqət yetirilir, heyvandarlıq sahəsinin tərəqqisi isə tədrici intensiv metodlara əsaslanılır. Bir sözlə, aqrar sektorun potensialının gücləndirilməsi müxtəlif istiqamətlər üzrə reallaşdırılan genişmiqyaslı tədbirlərlə həllini tapır.

Respublikada meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi vəsaitləri hesabına son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi hesabına tətbiq olunan müasir suvarma sistemlərinin payı artıq 5 faizdən çox yüksəlib.

Bütün bu tədbirlərin nəticəsidir ki, son dövrlər qlobal ərzaq bazarında yaşanan böhranın daha da dərinləşməsinə baxmayaraq, Azərbaycanın idxaldan asılı olduğu məhsullar üzrə təminatında heç bir problem nəzərə çarpmır. Bununla yanaşı, ərzaq qiymətlərində baş verən bahalaşmanın mənfi təsirlərinin qismən də olsa kompensasiyası məqsədilə ölkəyə idxal olunan bir sıra ərzaq məhsullarının və xammalların gömrük rüsumlarından və ƏDV-dən azad olunması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edilir.

| Azad edilmiş rayonlar | Ət istehsalı (ton) | Süd istehsalı (ton) |
|---|---|---|
| Ağdam | 2549 | 22458 |
| Füzuli | 1509 | 14679 |
| Xocalı | 117 | 875 |
| Xocavənd | 684 | 1941 |
| Şuşa | 199 | 1243 |
| Cəbrayıl | 1085 | 4573 |
| Kəlbəcər | 1951 | 13366 |
| Qubadlı | 115 | 605 |
| Laçın | 1419 | 12069 |
| Zəngilan | 69 | 282 |

Bu istiqamətdə görülən işlərin sayəsində torpaq resurslarının məhdudluğu və təbii-iqlim şərtlərinin əlverişli olmaması səbəbindən yerli fermerlər tərəfindən zəruri həcmdə istehsal oluna bilməyən buğda, şəkər və bitki yağları xammalı, yem xammalı və s. məhsullar daha əlverişli şərtlərlə idxal olunaraq ehtiyatlar yaradılır, emal olunur və hətta ixrac edilir.

Azərbaycanda ərzaq təhlükəsizliyini gerçəkləşdirən, ixrac potensialının daha da güclənməsinə, habelə kənd yerlərində əhalinin rifahının daha da yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prioritet istiqamətlərdən biridir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda ölkəmizdə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq aqrar sektorun inkişafı məqsədilə çoxşaxəli dövlət dəstəyi sistemi qurulur,

Dövlət Statistika Komitəsinin hesabatına əsasən, cari ilin yanvar-iyun aylarında işğaldan azad edilmiş rayonlarda quş əti də daxil olmaqla diri çəkidə 9697 ton ət, 72091 ton süd istehsal olunub.

Hesabata görə, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6 faiz və ya 551 ton, süd istehsalı isə 5,2 faiz və ya 3 min 582 ton artıb.

Qeyd edək ki, ən çox ət və süd Ağdamda istehsal edilib. Belə ki, hesabat dövründə rayonda 2 min 549 ton ət, 22 min 458 ton isə süd istehsal olunub.

*V.BAYRAMOV,*
*“Xalq qəzeti”*

# Naxçıvan xəbərləri

## Vergi ödəyicilərin sayı 2,1 dəfə artıb

***Naxçıvan Muxtar Respublikasında cari ilin yanvar-iyun aylarında 2936 yeni vergi ödəyicisi qeydiyyata alınıb. Bunların 88,3 faizi fiziki, 11,7 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.***



Dövlət Vergi Xidmətindən bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 2,1 dəfə, o cümlədən fiziki şəxslərin sayı 2 dəfə, hüquqi şəxslərin sayı isə 34 dəfə artıb. Cari ilin I yarımilində kommersiya qurumlarının 55,4 faizi elektron qaydada, 44,6 faizi isə kağız daşıyıcılar vasitəsilə edilən müraciətlər əsasında uçota alınıb.

Yeri gəlmişkən, hesabat dövründə vergi daxilolmaları da artıb. Belə ki, bu ilin I yarısında Naxçıvan Dövlət Vergi Xidməti xətti ilə dövlət büdcəsinə 75,9 milyon manat vergi daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 36 faiz çoxdur.

Məlumata görə, təkcə iyun ayında muxtar respublikada vergi daxilolmaları 12,6 milyon manat təşkil edib ki, bu da 1 il əvvələ nisbətən 20,8 faiz çoxdur.

## I yarımildə 68 milyon dollarlıq mal idxal edilib



***Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi cari ilin I yarısında 67,804 milyon ABŞ dolları dəyərində idxal əməliyyatları qeydə alıb.***

2023-cü ilin yanvar-iyun ayları ərzində Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən qeydə alınan idxal əməliyyatlarının həcmi 67 milyon 804 min ABŞ dolları, ixrac əməliyyatlarının həcmi isə 7 milyon 936 min ABŞ dolları dəyərində olub. 2022-ci ilin eyni dövrü ilə müqayisədə idxalın həcmi 1,2 dəfə, ixracın həcmi isə 2,9 dəfə artıb.

## Tikinti-abadlıq işləri genişlənir

***Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” həm Naxçıvan şəhərinin, həm də muxtar respublikanın bütün rayon və kəndlərinin inkişafına təkan verəcək.***



Dövlət Proqramının icrası çərçivəsində yaşayış komplekslərinin, sosial yönümlü obyektlərin müasir memarlığın tələblərinə uyğun şəkildə tikintisi davam etdiriləcək.

Naxçıvan Dövlət Xalça Muzeyi üçün yeni bina, 1000 yerlik yeni məktəb binasının inşası planlaşdırılıb, Naxçıvan və Ordubad şəhərlərinin tarixi hissəsinin yenidən qurulacağı nəzərdə tutulub. Eyni zamanda, Naxçıvanda Qızlar bulağı, Əcəmi seyrangahı, Möminə xatun türbəsi, Mərkəzi bazar və Bazarçay gölünün ətrafında da yeni layihələrin icrası planlaşdırılıb.

*“Xalq qəzeti”*

# Aqroparklara dövlət dəstəyi gücləndirilir

## “Tərtər Aqropark” MMC-yə 200 min manat güzəştli kredit verilib

**Torpaq sahələrindən səmərəli istifadə, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün aqroparklar innovativ və əlverişli mexanizmdir. Aqroparklar həm də hər bir bölgənin infrastrukturuna yeni töhfələr verir, məşğulluq səviyyəsinin artırılmasında da əhəmiyyətli rol oynayır.**



Aqroparkların yaradılması bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafı istiqamətində görülən işlər, dövlətimizin başçısının bu sahənin təkmilləşdirilməsi və müasirləşdirilməsi üçün qəbul etdiyi qərarlar ölkəmizin hərtərəfli inkişafına yeni stimul verir. Bu baxımdan, Tərtərdə fermerlərin öz şəxsi vəsaiti hesabına yaratdıqları “Tərtər Aqropark” MMC-nin fəaliyyəti təqdirəlayiqdir. Tərtər rayonunda yaradılmış aqropark uzun illər formalaşdırılmış fərdi təsərrüfat aktivlərinin kapital qoyuluşuna yönəldilməsi ilə formalaşdırılıb.

Şirkətin nizamnamə kapitalı 770 min manatdır. Hazırda balans aktivləri 500 baş iribuynuzlu cins damazlıq heyvanlardan və ferma kompleksindən ibarətdir. Burada ən yüksək şərait yaradılıb, mal-qaraya vaxtlı-vaxtında yem verilir, qulluq olunur. Aqroparkda südlük-ətlik istiqamətli heyvanlar saxlanıldığından müəssisə ildə 1200 ton süd və 20 ton ət istehsal etmək imkanına sahibdir.

Heyvanların yemə olan tələbatı da əsasən daxili imkanlar hesabına ödənilir. Aqroparka məxsus sahələrdə buğda, arpa, qarğıdalı, yonca və çovdar əkilməsi üçün fermerlərin adında olan torpaq sahələri və kənd təsərrüfatı texnika və avadanlıqları qiymətləndirilərək əlavə kapital qoyuluşu çərçivəsində Aqroparkın balansına verilib.

Bundan başqa, “Tərtər Aqropark” MMC-yə güzəştli kreditlərin, vergi güzəştlərinin, subsidiyaların verilməsi, aqrolizinq xidmətlərinin göstərilməsi istiqamətində də mühüm addımlar atılır. Məsələn, bu günlərdə Sahibkarlığın İnkişafı Fondu “Tərtər Aqropark” MMC-nin südlük istiqamətli heyvandarlığın inkişafı layihəsinə 200 min manat güzəştli kredit verilməsini təmin edib. Bu kredit stabil keyfiyyətli süd istehsalını təmin edəcək və rayonun süd məhsullarına tələbatının ödənilməsində əhəmiyyətli rol oynayacaq.

Bu gün “Tərtər Aqropark” MMC əhalinin keyfiyyətli süd və ət məhsulları ilə təmin olunmasında, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə yüksək məhsuldarlığın əldə edilməsində və regionda yeni iş yerlərinin yaradılmasında əhəmiyyətli rol oynayır. Eyni zamanda ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına mühüm töhfələr verir.

*P. ƏFƏNDİYEV,*
*“Xalq qəzeti”nin bölgə müxbiri*

# Fermerlərə dəyən zərər ödəniləcək

**Bu ilin əvvəlindən Aqrar Sığorta Fonduna (ASF) əkin sahələrinə dəyən zərərlərlə bağlı 7 minə yaxın müraciət daxil olub.**




Fondun İdarə Heyətinin sədri Fuad Sadıqovun sözlərinə görə, cari il ərzində 400 min hektara yaxın əkin ərazisi sığortalanıb: “Artıq bu ərazilərin 125–130 min hektarı müxtəlif dərəcədə tam və yaxud qismən ziyan dəyib. Həmin sahələrdə, təqribən, 135 milyon manatlıq istehsal həcmi var ki, onlar tərəfimizdən sığortalanıb. Hətta elə fermerlər var ki, əkin sahəsi mövsüm ərzində müxtəlif cür zərər görüb–bir dəfə dolu düşüb, bir dəfə güclü külək-fırtına olub və digər hallar baş verib. Hazırda qiymətləndirmə prosesi gedir, dəyən zərərlər qiymətləndirilir, proses tamamlandıqdan sonra təzminat ödənişlərinə başlanılacaq”.

F.Sadıqov daha sonra bildirib ki, sahələrə dəyən zərər müstəqil ekspertlər tərəfindən iki mərhələdə qiymətləndirilir. Birinci mərhələ zərər baş verən anda qiymətləndirmədir. Yəni, müstəqil aqrar sığorta eksperti sahəyə gedərək sığorta hadisəsini qeydə alır, dəyən zərəri ilkin olaraq təqribi qiymətləndirir. İkinci qiymətləndirmə prosesi isə biçindən üç-beş gün əvvəl aparılır, bu zaman fermerin gözlədiyi məhsuldarlıqla real olaraq əldə etdiyi məhsulların arasındakı fərq, yəni, dəyən zərər dəqiqləşdirilir. Hazırda proses davam edir. Artıq ölkədə biçin mövsümü tamamlanmaq üzrədir və qiymətləndirmə prosesi bu ayın sonuna qədər tamamlanacaq. Avqust ayının sonlarında zərərin ödənişlərinə başlanılması nəzərdə tutulur.

*“Xalq qəzeti”*

# Aqrar sektor 3 faizdən çox böyüyüb



**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, I yarımildə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə artım 3 faizdən çox olub.**

Kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri isə 5 milyard 865 milyon manat təşkil edib. Bu göstəricinin 2 milyard 897 milyon manatı heyvandarlıq, 2 milyard 968,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb.

*“Xalq qəzeti”*

# Buğda idxalı 23 faiz çoxalıb

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin 6 ayında Azərbaycan 493 min 210 ton buğda idxal edib. Bu strateji xammalın dəyəri 145 milyon 565 min ABŞ dolları təşkil edib.**



2022-ci ilin müvafiq dövrü ilə müqayisədə məhsulun həcmi 92 min 462 (23 faiz) ton, dəyəri isə 2 milyon 462 manat (1,8 faiz) çoxdur. Xatırladaq ki, bu, Azərbaycanın ümumi buğda idxalının 1,78 faizini təşkil edib.

Bölgələrdə isə taxıl biçini davam edir. Artıq 658 min 339 hektar sahədə biçin başa çatıb, zəmilərdən 2 milyon 164 min 746 ton məhsul yığılıb. Taxıl üzrə orta məhsuldarlıq 32,9 sentnerdir.

Respublika üzrə arpa sahələrinin 80 faizində biçin yekunlaşıb, sahələrdən 1 milyon tona yaxın məhsul yığılıb. Orta məhsuldarlıq 30,6 sentnerdir. Buğda zəmilərinin isə 50 faizində biçin aparılıb, 333 min 88 hektar biçilmiş sahədən 1 milyon 169 min 774 ton buğda yığılıb. Orta məhsuldarlıq 35,1 sentnerə çatıb.

*“Xalq qəzeti”*

# Bozalqanlının Vətən müharibəsi qəhrəmanı

**Orxan Cabbarov 1995-ci il oktyabrın 16-da Tovuz rayonunda anadan olub. Bir müddət Rusiyada yaşayan ailəsi 2008-ci ildə Azərbaycana dönüb. 2002–2008-ci illərdə Vladivostok şəhərində 34 saylı, sonrakı illərdə isə Binəqədi rayonundakı 179 saylı tam orta məktəbdə təhsil alıb. Sərbəst güləş və karate ilə məşğul olub. Ailəli idi. Ayxan adlı bir oğlu yadigar qalıb.**

Orxan orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində əsgəri borcunu yerinə yetirməyə gedib. İkiillik xidmət zamanı komandiri onun intizam və qabiliyyətini, cəsarətli olduğunu görüb "sən yaxşı hərbçi ola bilərsən" – deyib, Xüsusi Təyinatlı Qüvvələrin təlim kursuna yazılmasını məsləhət görüb. Orxanın özünün də hərb sənətinə böyük marağı olub və təklifi qəbul edib. 6 aylıq gizir hazırlayan kursa daxil olub. Çətin məşqlər, təlimlər keçib kursu bitirdikdən sonra müddətdən artıq xidmət hərbi qulluqçusu (MAXE) kimi fəaliyyətə başlayıb. O, 2015-ci ildən Vətən müharibəsinə qədər Xüsusi Təyinatlı Qüvvələrin Cəlilabad və Xızı rayonlarında yerləşən "N" saylı hərbi hissələrində xidmət edib. 2016-cı ilin aprelində Talış istiqamətində döyüşlərdə iştirak edib.



Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan "Canavar" ləqəbli Orxan Cabbarov Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. O, Ermənistan silahlı qüvvələrinin zabitini əlbəyaxa döyüş zamanı məhv edib. Orxan Cabbarov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Bozalqanlı kəndində atasının uyuduğu qəbiristanlıqda, onun yanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsi, eləcə də, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Orxan Cabbarova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. O, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə də təltif edilib.

**Nənəsi Gülsüm xanım deyir:**

– Mənim oğlum olmayıb. Nəvəmi bir yaşından oğul əvəzinə bağrıma basıb böyütmüşdüm. Özü bu çətin, əziyyətli yolu seçdi. Aprel döyüşlərində onların dəstəsindən iki nəfər sağ qalmışdı, biri Orxan idi. Binəqədidən olan şəhidləri Orxan gətirmiş, dəfnlərində iştirak etmişdi. Vətən müharibəsində o, bir dəfə (oktyabrın 25-də) 4 nəfərlə yaralanıb, lakin bizə bildirməyib. Tam sağalmamış yatdığı Ələt xəstəxanasından yenə döyüşə yollanıb. Deyib ki, mənim yaramı sarıyın, mən burda qalmayacam, döyüş meydanında işlərim yarımçıq qalıb. Onu dilə tutub iki gün saxlayıblar ki, heç olmasa, qanaxma dayansın.

Orxan belə övlad idi. Nə qədər yanıb-yaxılsam da, bir an belə unutmasam da, "hər kəsin bir alın yazısı var" – deyirəm. Orxanıma ölümlərin gözəli nəsib oldu. Vətən uğrunda özünü qurban verdi balam. Nə əziyyətim var, ona halal etmişəm. Çünki o ölümü ilə bizim alnımızı açıq, başımızı dik edib. Əvvəl bizim balamız idi, indi Tovuzun, Azərbaycanın qəhrəman oğludur.

Anası isə deyir ki, son dəfə oktyabrın 28-də zəng etmişdi. Əvvəllər də hər dəfə hal-əhval tutur, nənəsinin səsini eşidib rahatlanır, sonra sağollaşırdı. Ancaq onu deyirdi ki, özünüzdən muğayat olun, hər şey yaxşı olacaq. Bu dəfə də elə oldu. Heç 2 dəqiqə danışammadıq, sağollaşdı.

Bir də 12 gün sonra, noyabrın 9-da eşitdik ki... onu Şuşadan gətirirlər...

...Ailədə Orxanın indi Ayxan adlı bir yadigar balası böyüyür. Nənəsi deyir ki, müharibədən əvvəl zəngləşəndə soruşurdum ki, "ay Orxan, necədir Ayxan?" Gülürdü ki, "nənə, bir yerdə dayanmır ee, biz də elə olmuşuq?" Deyirdim: "Əlbəttə, bala, hamınız əziyyətlə böyümüsünüz, nadinc olmusunuz".

Orxanın kiçik qardaşı Ruslan da müharibədə topçu kimi düşmənə qan uddurub.

Qonşular danışır ki, hələ məhəllədə Orxan kimi böyüklərə qayğı, uşaqlara diqqət, sevgi göstərən olmayıb, olmayacaq da. Biri çağırırdı: "Orxan, kompüterim xarab olub", biri səslənirdi ki, uşağın velosipedi sınıb, biri deyirdi, mənə taksi çağır... Hamısına da can-başla kömək edirdi, elədiyi kömәkdən zövq alırdı. Orxan tək ailəsindən yox, bütün eldən getdi.

Bəli, hər şəhidimiz öz təkrarsız ölümü ilə ölümsüzləşib. Ayxan böyüyüb məktəbə gedəndə atasının qəhrəmanlığı ilə fəxr edəcək, şəhid övladı, Vətən Müharibəsi Qəhrəmanının oğlu olması ilə qürur duyacaq. Görəcək ki, Tovuz rayonu Qovlar şəhər inteqrasiya təlimli internat tipli gimnaziyaya atası–Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Orxan Rövşən oğlu Cabbarovun adı verilib. Eşidəcək ki, Binəqədi rayonu Biləcəri qəsəbəsindəki küçələrdən biri onun atasının adını daşıyır.

Ruhun şad, məkanın cənnət olsun, Orxan. Sən tarix yazan oğullar sırasında tarixə döndün.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***

# Qısa ömrün əbədiyyəti

**Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunlarının əsgəri olan Qamət Şəmşir oğlu Qurbanov 2020-ci il sentyabrın 27-də ordumuz tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonu istiqamətində gedən döyüşlərdə savaşıb və savaşın 3-cü günü Qamət Talış və Suqovuşan istiqamətində şəhidlik zirvəsinə ucalıb.**

Pulemyotçu kimi hərbi xidmətini yerinə yetirən Qamət özünün cəsurluğu, sərrastlığı və əsl igid əsgər kimi digər keyfiyyətləri ilə fərqlənib.

Qamət Qurbanov 2001-ci il iyulun 25-də Ağsunun Keçdiməz kəndində dünyaya göz açıb. Uşaq yaşlarından Qarabağ uğrunda döyüşlərdə həlak olmuş 3 həmkəndlisi – dayısı Sirac, həmçinin Azər və Ziyad haqqında söhbətlərə maraqla qulaq asıb. Elə həmin hekayələr də onu gələcəkdə hərbçi kimi Vətəni qorumağa həvəsləndirib. O da hərbi libas geyinərək işğalçıları məhv etmək, əzəli torpağımız olan Qarabağı düşmənlərdən təmizləmək arzusu ilə böyüyüb. Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanıb. Ön cəbhədə düşmənin xeyli sayda canlı qüvvəsi və texnikasının məhv edilməsində Qamət misilsiz xidmətlər göstərib.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən Qamət Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Doğma Ağsu rayonunda ölməz şəhid Qamət Şəmşir oğlu Qurbanovun xatirəsinə ehsan bulağı istifadəyə verilib. Mərasimdə iştirak edən şəhidin yaxınları onun döyüş meydanında göstərdiyi qəhrəmanlıqlardan, Vətən müharibəsində qazanılan qələbənin əhəmiyyətindən danışıblar. Eyni zamanda yaxınları Qamət Qurbanovla bağlı xatirələrini bölüşüblər. Həmin tədbirdən bir qədər sonra isə Qamətin haqqında yazılmış kitabda Keşdiməz kəndində təqdim olunub. Müəllif Abdulla Salqalanlı kitabı, ilk növbədə, şəhidin valideynlərinə hədiyyə edib. Mərasim iştirakçıları bu kitabın, ümumilikdə, respublika gənclərinin hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşmasında, şəhidlərimizin təbliğatında böyük rolu olacağına inam ifadə ediblər. Şəhidin valideynləri də mərasim iştirakçılarına və kitabın müəllifinə öz təşəkkürlərini bildiriblər.



Bəli, Qamət qısa, lakin şərəfli həyat yolu keçib. Onun 21-ci doğum günündə üzümüzü atası Şəmşir kişiyə tutub deyirik: – Qamətini düz tut, şəhid atası! Sənin oğlun Qamət Qurbanov canını Vətən yolunda qurban verərək əbədi həyat qazanıb!

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

**İkinci Qarabağ müharibəsi və qazanılan möhtəşəm qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyətinin, ordumuzun qüdrətinin və xalqımızın birliyinin təntənəsi oldu. Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin həyat yoldaşı, "Azərbaycan bayrağı" ordenli şəhid leytenant Elton Qənbərlinin isə bacısı olan Nargül xanımla söhbətimizin başlıca mövzusu bu idi.**

# Şərəf zirvəsinin fatehləri

20 gün ərzində qardaşını və ömür-gün dostunu itirmiş Nargül İbrahimli dözümlü, dəyanətli Azərbaycan xanımıdır. "Vətən sağ olsun!" deyərək, itkilərin ağrısına sinə gərir, anasına və qayınanasına dayaq olur, əmanət balalarının qayğısını lazımınca çəkir. Nargül xanım Adillə Eltonu bir ağacın iki budağı timsalında görür. Adil Eltondan 5 yaş böyük idi. Hər ikisi hərb sənətinə könül vermişdi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişdilər. Şəhid olanda Adil baş leytenant, Elton isə leytenant rütbəsində idi.



Söhbətimiz zamanı Nargül xanıma dedim ki, Adilin vaxtilə Sumqayıtda mənim də oxuduğum 14 nömrəli məktəbin məzunu olması ilə qürur duyuram. Xəfifcə gülümsədi.

Adilin atası Asəm bəy də vətənpərvər kişilərdəndir. Birinci Qarabağ müharibəsinin qazisidir. 1992-ci ildə müharibəyə könüllü gedib. Elə həmin ildə dünyaya gəlmiş Adildə hərb sahəsinə marağı da o və əmisi – HHQ-də xidmət etmiş polkovnik Elman İbrahimov oyadıb. Onların yolunu davam etdirmək istəyən Adil arzusuna doğru inamla, qətiyyətlə gedib. Hərbi təhsil aldıqdan sonra zabit kimi Vətən qulluğunda layiqincə dayanıb. 2017-ci ildə XTQ-yə qəbul edilib və orada fəaliyyət göstərdiyi zaman Türkiyədə "Komando" kursunu fərqlənmə ilə bitirib.

Nargül xanım Adili 12 yaşından bəri tanıdığını deyir. Evlilikləri cəmi üç il olsa da, onların sevgisi uzun bir yol qət edib.

– Toyumuzdan bir həftə sonra təlimə getdilər, – deyə Nargül xanım bildirdi. – Heç bir ad günümüzü, heç bir evlilik ildönümümüzü birlikdə keçirə bilmədik. Daim kurslarda, təlimlərdə oldu. Həsrət çəkdik. İndi də məni ömürlük həsrətdə buraxıb getdi...

Həmsöhbətim sonra fəxrlə bildirdi ki, Adil əsl mənada peşəkar hərbçi olub. Son vəzifəsi qrup komandiri və baş kəşfiyyatçı idi. Döyüş yoldaşları onun cəsarətindən, müharibənin ən qızğın döyüşlərindəki şücaətindən, son damla qanınadək vuruşmasından ağızdolusu danışırlar. O, Murovdağ uğrunda gedən ölüm-dirim savaşında, Suqovuşan, Füzuli, Hadrut, Xocavənd, Şuşa döyüşlərində iştirak edib, 40 gün vuruşub. Son tapşırığı Xocavənddə olub. Orada da böyük rəşadət göstərib, yaralı olsa da, qəhrəmancasına vuruşub. 2020-ci ilin noyabrın 7-də Böyük Qələbəyə saatlar qalanda Adil şəhidlik zirvəsinə yüksəlib.

Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası ilə bağlı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Adil İbrahimli ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Həmçinin, "Vətən Uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Adil İbrahimlinin dəfn mərasimi zamanı həyat yoldaşı Nargül də çiynini onun tabutunun altına verib. Həm həyat yoldaşı, həm də qardaşını itirən xanımın bu barədə söylədikləri çox təsirlidir: "Həyatımda ən ağır an o idi ki, Eltonun qəbrinə ilk torpağı özüm atdım. Sonra isə gedib Adilimi çiynimdə gətirdim. Fikirləşdim ki, bu dünyada cismimiz bir-birinə sadəcə o an yaxın olacaq. Onun başı mənim çiynimdə… İndi mən müqayisə eləməyə çalışıram ki, qardaşımın üzərinə ilk torpaq atdığım an ağır idi, yoxsa Adili çiynimdə aparmağım…" – Təbii ki, bu hisslər, bu acılar heç bir müqayisəyə gəlməz. Nə yoldaşı Adili, nə də qardaşı Eltonu bir-birindən ayıra bilməyəcəyini o, özü də anlayır…

Adilin atası Asəm bəy: "Fəxr edirəm ki, Vətən üçün elə bir oğul böyütmüşəm. 1988-ci ildən bu günə qədər şəhid olan bütün igidlərin ruhları şad olsun! Adil barədə hər zaman gözəl sözlər eşidirəm. General Hikmət Mirzəyevlə görüşəndə mənə dedi: "Sağ ol ki, belə igid böyütmüsən". Müharibə zamanı Adillə iki dəfə danışdıq. Birincisi, oktyabrın 20-də idi. Onda Gülnarın qardaşı Elton Qənbərli şəhid olmuşdu. Xəbərin düzgünlüyünü bizdən soruşurdu. "Vətən sağ olsun"– dedi. İkinci dəfə isə oktyabrın 30-da danışdıq. Dedi ki, ata, işlərimiz yaxşıdır. Təlimlərimiz yaxşı gedir. Heç vaxt "döyüş" deməzdi. Tezliklə gələcəyini bildirdi. Neçə müddət təlimlərdə, cəbhə xəttində olanda da bir dəfə demədi ki, döyüşə gedirik".

Asəm İbrahimli 2021-ci il sentyabrın 27-də Anım Günü münasibətilə Bakının mərkəzində keçirilən yürüşdən də fəxrlə danışdı: "Yürüşdə Prezident, Ali Baş Komandan İlham Əliyev oğlumun şəklini əlində tutmuşdu. Bundan hədsiz qürur duyuram. Biz Adilin şəklinin ön sıralarda olacağını bilirdik, amma Prezidentimizin onu tutacağını bilmirdik. Bu, çox qürurlu bir an idi".

Qəhrəmanın qayını leytenant Elton Qənbərli oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı fərqləndiyi üçün "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", Cəbrayılın və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

Gənc zabit Elton 2014–2018-cü illərdə Azərbaycan Ali Hərbi Akademiyasında hərbi təhsil alıb. Sonra qatıldığı təlimləri yüksək nəticələrlə başa vurub. Onun iştirak etdiyi belə kurslardan biri də "SAT" hərbi kursu olub. Kursa qatılan 176 nəfərdən yaşca ən kiçiyi olsa da, sonda təlimi uğurla başa vuran 8 nəfərdən biri Elton olub. Daha sonra isə o, XTQ kursunu birinciliklə bitirərək "N" saylı hərbi hissəyə yollanıb.

Bacısı Nargül xanım deyir ki, bir dəfə "WhatsApp"da onun uğurları haqqında paylaşım etmişdim. Məndən xahiş etdi ki, bacı, onları sil. "Mən bunları göstəriş üçün etməmişəm". Heç vaxt uğurlarını paylaşmağı xoşlamazdı. "Eltonun icra etdiyi son vəzifəsi kəşfiyyatçı qrup komandirinin müavini olub. Dostları, çiyindaşları onun müharibədə necə döyüşməsindən danışır. Elton Suqovuşan, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı döyüşlərində iştirak edib. 23 gün böyük qəhrəmanlıqlar göstərərək vuruşub. Döyüşlər zamanı yaralansa da, hospitala getməyib, dostlarını meydanda tək qoymayıb. Axırda isə Qubadlıda şəhadətə qovuşub… Elton hərtərəfli istedadlı idi. O həm də incəsənətə – rəqsə, musiqiyə maraq göstərirdi. Musiqi məktəbini bitirib, gözəl nağara çalmağı bacarırdı, 12 növ "Şərur yallısı"nı bilirdi"…

Şərur rayonu Şəhidlər Xiyabanında oğlu Elton Qənbərlini torpağa tapşıran anası Sona Qənbərova belə demişdi: "Erməni vandalları görsün ki, biz necə övladlar yetişdirmişik. Vətən uğrunda canlarından keçirlər. Bu gün oğlumla fəxr edirəm. O, cənnətin açarlarını bizə – valideynlərinə verib getdi. Vətən sağ olsun!"

Bəli, indi şərəf zirvəsinin fatehləri olan Adil də, Elton da cənnət sakinləridir, xatirələrdə əbədi ömür qazanıblar. Vətən belə oğullarla fəxr edir.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

# Qorxubilməz qəhrəman

**Vətən müharibəsi başlayanda Elyar artıq 10 il idi ki, Xüsusi Təyinatlı Qüvvələrin giziri idi. O, Vətən müharibəsinə kimi 2016-cı ilin aprel döyüşlərinin və 2020-ci ilin Tovuz döyüşlərinin iştirakçısı olmuşdu. II Qarabağ müharibəsində Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda döyüşüb. Oktyabrın 19-da Qubadlı döyüşləri zamanı şəhid olub.**

Vətən Müharibəsi Qəhrəmanı Elyar Vəliyev 1991-ci il oktyabrın 17-də Qobustan rayonunun Sədəfli kəndində doğulub. Vəliyevlər ailəsinin ilki olan Elyar kənd orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Oradaca hərbçi olmaq qərarına gəlib. Xidmətini başa vurub qayıtdıqdan sonra, xüsusi təlimlər keçərək 2010-cu ildə Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə daxil olub və burada öz şücaəti ilə komandir heyətinin rəğbətini qazanıb.



Görünür, müharibə qəhrəmanı olmaq gənc Elyarın taleyinə yazılıbmış. Döyüşçü yoldaşları onu qorxmaz, cəsur və Vətən eşqi ilə alışıb yanan bir dost kimi xatırlayırlar. Elyar Vətən müharibəsinin gedişatında bir neçə dəfə hərbçi yoldaşlarını ölümdən xilas edib. Belə döyüşlərin birində Elyar Vəliyev və digər hərbçi yoldaşları Füzuli rayonunun Horadiz kəndi yaxınlığında düşmənin 200-ə yaxın canlı qüvvəsini məhv ediblər. Həmin gecə onların xüsusi şücaəti sayəsində düşmənin 12 tankı və xeyli sayda hərbi sursatı darmadağın edilib, bir neçə texnikası ələ keçirilib.

Daha sonra Cəbrayıl istiqamətindəki döyüşlərə yollanan Elyarın növbəti tapşırığı içərisində düşmənin yüksək rütbəli zabitləri olan hərbi nəqliyyat vasitələrini partlatmaq olub. Tapşırıq uğurla yerinə yetirilib. Elyar düşmənin UAZ markalı avtomobilini partladaraq biri polkovnik olmaqla bir neçə erməni zabitinin külünü göyə sovurub.

Döyüş başlayan gündən bir an belə gözlərini yummayan, qorxu hissinin nə olduğunu unudan Elyarın son döyüşü Xocavənd rayonunun Qırmızı Bazar ərazisində olub.Yanındakı hərbçi yoldaşları şəhid olandan sonra döyüş meydanında tək qalan qəhrəmanımızın döyüş sursatı tükənib. Bu zaman xain düşmənin snayper gülləsi gizir Elyar Vəliyevin ürəyinə sancılıb. Tale elə gətirib ki, ömrünün 29-cu payızını yaşayan gizir Elyar Vəliyev doğum günündən iki gün sonra ən uca – şəhidlik məqamını fəth edib.

Atası Arif Vəliyev onu görünüşcə sərt təsiri bağışlayan, amma ürəyi yumşaq, mülayim bir övlad kimi xatırlayır:

– Xüsusi təyinatlı dəstənin giziri olan oğlum 2016 və 2020-ci illərdə 3 döyüşdə iştirak edib, çoxlu sayda yaralı yoldaşlarını xilas edib. Vətən Müharibəsi zamanı düşmənin 12 tankını, 200-ə yaxın canlı qüvvəsini məhv edib, bir yaralı erməni əsgərini əsir götürüb. Cəbrayılın azad edilməsi zamanı dəstəsi ilə bir hərbi avtomobili partladıb, yüksək rütbəli zabitləri məhv ediblər. Bir "KamAZ" dolu erməni əsgərinin külünü göyə sovurublar. Elyar erməni qərargahını ələ keçirib və erməni polkovniki məhv edib. Gülləsi başa çatanadək döyüşüb. Ölüm hamıya nəsib olacaq. Fəxr edirəm ki, ölümün gözünə dik baxan, torpaqlarımızın azadlığı naminə canını Vətənə qurban edən belə oğlum olub.

Anası Səmayə Vəliyeva yana-yana danışır ki, Elyarın qardaşı da hərbçidir: "Hər iki oğlum hərbçi kimi müharibədə iştirak edib. Sonuncu dəfə oktyabrın 18-də Elyarla telefonla danışmışdıq. Ayın 19-da şəhid olduğu xəbəri gəlib. Neyləyim? Bu elə ağrıdır ki, məni içimdən didib parçalayır. Amma hara gediriksə, Elyara görə bizə xüsusi ehtiram göstərirlər. O ölməyib. Həmişə bizimlədir, həmişə yanımızdadır".

Elyarın dəfələrlə həyatlarını xilas etdiyi hərbçi yoldaşları bu gün onu ehtiramla yad edirlər. Şəhidimizlə çiyin-çiyinə döyüşən Səxavət Salmanov deyir ki, peşəkar döyüşçü olan Elyar sanki hərbçi olmaq üçün doğulmuşdu: "Onunla uzun müddət xüsusi təyinatlılar qrupunda xidmət etmişik. Elyar Aprel və Tovuz döyüşlərində çoxlu yaralının həyatını xilas edib. O, döyüş tapşırıqlarını həmişə yüksək səviyyədə yerinə yetirib. Mən döyüşlərin birində yaralanmışdım. Elyar mənə vaxtında tibbi yardım göstərməsəydi, çoxlu qan itirəcəkdim və şəhidlik zirvəsinə ucalacaqdım. Bu gün mən onun sayəsində yaşayıram. Elyarın əhatəsində olan 50 nəfərlik dəstə 600 nəfərlik erməni ordusunu tamamilə məhv etmişdi".

Şəhidin idman müəllimi Sərhad Quliyev ona əlbəyaxa döyüşün sirlərini öyrətdiyini xatırlayır. Deyir ki, o, idman sahəsində göstərdiyi gücü torpaqlarımızın işğaldan azad olunmasında da göstərdi. O, əsl qəhrəman idi.

Şəhid Elyar Vəliyev üçəm olmaqla beş övlad atası idi. Anası deyir ki, müharibəyə yollananda Elyarın son sözü o olub ki, övladlarım üçün, onların xoşbəxt gələcəyi naminə döyüşə getməliyəm.

Qeyd edək ki, şəhid Elyar Arif oğlu Vəliyev ölümündən sonra " Vətən uğrunda" medalı və "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı ilə təltif olunub. Xatirəsinin əbədiləşdirilməsi məqsədilə onun adı Qobustan rayonunun mərkəzi küçələrindən birinə verilib.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

"XalqTV"-nin qonaqları

# Filmləri qoruyan xəzinə

## Müsahibimiz Dövlət Film Fondunun direktoru Cəmil Quliyevdir

**Məlum olduğu kimi, Azərbaycan kinosunun 125, "Azərbaycanfilm" kinostudiyasının isə 100 illiyi tamam olur. Dövlət Film Fondunun direktoru, görkəmli kinorejissor və ssenari müəllifi Cəmil Quliyevin 60 illik yubileyini də bu siyahıya əlavə etmək olar. Milli Mətbuat və Jurnalistika Günü ərəfəsində "XalqTV"-nin qonağı olan Cəmil Quliyevi həm yubileylər münasibətilə, həm də AJB-nin üzvü kimi təbrik edərək onunla söhbətə başladıq.**



**– Cəmil müəllim, sizi geniş tamaşaçı kütləsinə təqdim etməyə ehtiyac yoxdur. Hələ uşaq yaşınızdan "Alma almaya bənzər" filmində hamının tanıdığı bir personajı – Kərimov rolunu oynamaqla yadda qalmısınız. Təxminən yarım əsr əvvəlki həmin debütünüz düşərli olub, elə deyilmi?**

– Elədir. Məndə teatra, kinoya məhəbbəti atam Elşad Quliyev yaradıb. Xatırladım ki, atam uzun illər "AZTV"nin rəhbər vəzifələrində çalışıb, özü də görkəmli teatr rejissorlarımız Mehdi Məmmədov və Tofiq Kazımovla dostluq edib. Onlar atamı tez-tez öz tamaşalarına dəvət edirdilər, mən də onunla gedirdim. Belə-belə bu mühitə qaynayıb-qarışdım. Daha öncə "Şərikli çörək"lə "Leyla və telefon" filmində rol almalıydım, amma qismət olmadı. Nəhayət, İçərişəhərdə qonşumuz olan kinorejissor Arif Babayev "Alma almaya bənzər" filmində məni sınadı və Kərimov roluna təsdiq edildim. İlk addımlarım, həqiqətən də, düşərli olub.

**– O filmdə həm də rəhmətlik əminiz Hacıbaba Bağırovla tərəf-müqabili olmusunuz...**

– Bəli, baş rollardan birini Hacıbaba müəllim ifa edirdi. Onunla bir yerdə çox məmnuniyyətlə çəkildim. Biz Quba şəhərində bir yerdə qalırdıq. Çox gözəl, unudulmaz günlər idi...

**– Cəmil müəllim, keçək bugünkü duruma. Mədəniyyət və İncəsənət Universitetinin professorusunuz, orada kafedra müdiri də, dosent də olmusunuz. Kino sahnəsində bir çox vəzifə tutaraq, öhdəsindən layiqincə gəlmisiniz və hazırda Dövlət Film Fondunun direktorusunuz. Bir qədər də bu barədə danışın.**

– Dövlət Film Fondu 1993-cü ildə ümummilli lider Heydər Əliyev tərəfindən yaradılıb. Bu təsisatdan əsas məqsəd milli filmlərin qorunub saxlanılması, onların təbliğidir. 1994-cü ildə təşkilat tam olaraq formalaşıb və keçmiş Qələbə kinoteatrında məskunlaşıb. 2008-ci ildə möhtərəm Prezidentimiz İlham Əliyevin tapşırığı ilə "Azərbaycanfilm" kinostudiyasının ərazisində müasir standartlara cavab verən iki korpuslu bina inşa edildi və bugünədək fondumuz fəaliyyətini orada davam etdirir. Onu da qeyd edim ki, Dövlət Film Fondu Beynəlxalq Kino Arxivlər Federasiyasının üzvüdür. Bununla da fondumuz beynəlxalq səviyyədə Azərbaycanı təmsil edir. Beynəlxalq əlaqələrimiz fondun inkişafına böyük təkan verir.

**– İlk Azərbaycan filmləri və yaxud bizim baxıb, gördüyümüz o filmlərin ilkin variantları da Film Fondunda yer alırmı?**

– Azərbaycan kino tarixinin yaranması bakılı fotoqraf Aleksandır Mişonun ilk çəkilişləri dövründən hesablanır. O, Fransada keçirilən yarmakadan kino aparatı alaraq Bakıya gətirmişdi. Həmin aparatla ilk çəkilişləri edib. Təbii ki, bunlar məşhur çəkilişlərdir. Bibiheybət və Balaxanıda neft yanğını, fontanı və s. Bu görüntülər bizdə yox idi, 90-cı illərin sonunda kinoşünas Ayaz Salayev Fransada olarkən oradan həmin filmlərin lentlərini əldə edərək bizim dövlət fonduna gətirdi. İndi o görüntülər tez-tez televiziyada nümayiş olunur. Sadaladığım faktlardan yola çıxaraq demək olur ki, bizim kino tariximiz 1898-ci ildən başlayır. İlk nümayişlər may, iyun və avqust aylarında olub. Bizim ilk səssiz filmimiz İbrahimbəy Musabəyovun 1916-cı ildə lentə alınan "Neft və milyonlar səltənəti" filmidir. Filmin rejissoru Boris Svetlovdur. Baş rolda unudulmaz aktyorumuz Hüseyn Ərəblinski çəkilmişdi. Hüseyn Ərəblinski Azərbaycanın ilk kinoaktyoru hesab olunur. Sonrakı dövrlərdə çəkilən filmlərin heç biri bu günə qədər gəlib çıxmayıb. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra – 1923-cü ildə Azərbaycan Kino-Foto İdarəsi yaradılıb. Həmin idarənin yanında Bakı kinostudiyası təşkil edilib. O dövrün ilk filmi "Qız Qalası" olub. Filmin rejissoru Vladimir Ballyuzekdir. Kinomuzun milliləşməsində böyük pay sahibi olan şəxs isə görkəmli xadimi Şamil Mahmudbəyovdur. O, Zaqafqaziyada ilk kinolaboratoriya yaradıb və filmlərin emalı prosesi Azərbaycanda həyata keçirilməyə başlanıb. Ən əsası isə onun azərbaycanlıları kino istehsalatına cəlb etməsidir. Həmin dövrdə görkəmli rejissor Mikayıl Mikayılov, Azərbaycanın ilk kino operatoru Camal İsmixanov, rejissor Əbdül Həsənov və başqaları Azərbaycan kinosuna cəlb olunublar. İlk azərbaycanlı kinorejissor – görkəmli teatr xadimi Abbas Mirzə Şərifzadə "Bismillah" filmini çəkib. Əfsuslar olsun ki, bütün bunların təşəbbüskarı Şamil Mahmudbəyov məhz azərbaycançılıq ideyalarına, milli kadrları irəli çəkdiyinə görə represiya olunub.

**– Siz öncə 2006-2013-cü illərdə Dövlət Film Fonduna rəhbərlik etmisiniz, indi yenidən 3 ilə yaxındır ki, fondun direktorusunuz. Həm kino xadimi, həm fondun rəhbəri, həm də pedaqoq kimi tanınırsınız. Bir çox beynəlxalq təşkilatın üzvüsünüz. Bu barədə də danışsanız, yaxşı olar.**

– Bu gün kino arxiv təşkilatlarının fəaliyyəti birbaşa olaraq beynəlxaq əlaqələrə bağlıdır. Arxivlər bir-biri ilə təmasda olmalı və əldə etdikləri materialları bölüşməlidirlər. Bizim arxivimiz bir çox ölkələrlə müqavilə imzalayıb. Həmin ölkələrdə Azərbaycan kinosu ilə bağlı xeyli material var idi ki, biz onları elektron formatda ölkəmizə gətirdik. Litva, Latviya, Belarus, Ukrayna, Rusiya, Gürcüstan, Moldova, Qazaxıstan kino arxivləri ilə müvafiq sazişlərimiz var.

**– Sovet dövründə çəkilən bəzi Azərbaycan filmləri Moskvanın yoxlamasından keçərkən qayçılanıb. Onların bərpası ilə bağlı addımlar atılıbmı?**

– Müəyyən filmlər olub ki, o dövrdə rəflərə qoyulub. Məsələn, "Bir ailə" filmi 1943-cü ildə çəkilib və ssenari müəllifi görkəmli ədib Mir Cəlal Paşayev olub. Rejissor Qriqori Aleksandrov olsa da, filmdə əsas işi yerli rejissorlar Rza Təhmasib və Mikayıl Mikayılov görüblər. Filmdə müharibə dövründə Azərbaycanın qələbəyə verdiyi töhfələrdən bəhs edilir, Azərbaycan xalqının qəhrəmanlığı ön plana çıxarılır. Bu filmdə Sovet idealogiyasından heç nə olmadığı üçün film Moskvada tənqid olunub ekranlara buraxılmayıb. 2008-ci ildə biz Moskvada bu filmin neqativini tapdıq, daha sonra səs fonoqramını əldə etdik. Akademik Nərgiz xanım Paşayevanın təşəbbüsü ilə filmi bərpa etdik. "Bir ailə" hazırda Dövlət Film Fondunda qorunub saxlanılır. Bu il onun 80 illiyidir. Rəflərə qoyulan filmlərdən biri də "Bakının işıqları" idi. Bu film sonrakı illərdə ekranlara buraxıldı. Rəflərə qoyulan filmlərdən ən məşhuru isə "Dəli Kür"dür. Düzdür, sonradan bu film də ekranlara çıxdı, lakin sovet senzurası onu ağır şəkildə qayçılamışdı. Filmin final hissəsinə edilən dəyişiklikləri bərpa etmək mümkün oldu. Təsadüf nəticəsində filmin finalı operator Yuri Varnovskinin evində qalmışdı. Biz o lenti tapdıq. Bu hissə hazırda Dövlət Film Fondunda qorunub saxlanılır. Rejissor Eldar Quliyevin "Bir cənub şəhərində" filmi də yayımlanmama təhlükəsi ilə üzləşib. Ümumiyyətlə, belə filmlərimiz çox olub.

**– Sizin rejissoru, aktyoru, ssenari müəllifi, bədii rəhbəri, prodüseri olduğunuz filmlərin sayı çoxdur, sadalasaq, xeyli vaxt aparar. Bu gün siz artıq daha təcrübəli, yaradıcılığı və fəaliyyəti daha geniş arealda olan bir şəxsiyyət kimi yeni filmlə bağlı ideyalarınız varmı?**

– Rejissor olan hər bir kəsin fikrində həmişə film çəkmək istəyi olur. Amma bu gün film çəkmək o qədər də asan məsələ deyil. Bu, əvvəla, böyük sərmayə tələb edir. Eyni zamanda, gözəl aktyor ansamblı, yüksək səviyyədə yaradıcı heyət gərəkdir. Bunların hamısını formalaşdırmaq, təşkil etmək çətindir. Bu problemləri həll etmək olsa, filmi çəkmək olar. Hazırda mənim əsas məqsədim, məramım Dövlət Film Fondunun arxivlərinin zənginləşdirilməsidir, qorunmasıdır. Vaxtilə itmiş filmlərimizi axtarırıq və bir çoxunu da tapmışıq. Başlıca vəzifəmiz bir arxiv kimi Azərbaycan kinosunun tarixinə xidmət etməkdir. Filmi isə ilk imkan olan kimi çəkə bilərik.

**– Cəmil müəllim, bayaq rəhmətlik atanız Elşad Quliyevin adı çəkildi. Onun vaxtında Azərbaycan televiziyasında kino ilə bağlı bir çox maraqlı verilişlər var idi, bu, sonra da müəyyən müddət davam etdi. Amma indi belə layihələr azdır. Siz özünüz bir müddət İctimai Televiziyanın rəhbərliyində olmusunuz və bu işin içində olan adamsınız. Film Fondunun əldə etdiyi, bərpa etdiyi hissələrin tamaşaçılar üçün əlçatan olması baxımından hansısa bir verilişə ehtiyac varmı?**

– Bu gün "Azərbaycanfilm" kinostudiyası tapılan, bərpa edilən filmləri "YouTube" kanalında nümayiş etdirir. Çünki o filmlərin müəllif hüquqları onlara aiddir. Biz ancaq filmləri qoruyuruq, saxlayırıq. Əldə edilmiş hissələri izləmək istəyənlər "Azərbaycanfilm"in "YouTube" səhifəsinə müraciət edə bilərlər. Amma TV kanallarında da belə verilişlər olmalıdır. Elşad müəllimin dövründə "Retro" verilişi var idi, hamımız şənbə günləri axşam o verilişi izləyirdik. Aparıcısı da o zaman gənc kinoşünas olan Ayaz Salayev idi. Həmin dövrlərdə AZTV-də kino ilə bağlı digər verilişləri İlham Rəhimli, Leyla Bədirbəyli, Həmidə Ömərova da aparıblar. "Yeni filmlər" rubrikasında kinoteatrlarda göstərilən filmlərin anonsu yayımlanırdı. Bəli, kino həmişə televiziyaların diqqət mərkəzində olmalıdır. Bu, elə bir incəsənət növüdür ki, hamı ona maraq göstərir.

**– Maraqlı söhbətə görə çox sağ olun! Arzu edirik ki, yaxın vaxtlarda hansısa beynəlxalq film festivalından böyük bir mükafatla qayıdasınız!**

– Minnətdaram.

*Müsahibəni apardı:*
***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Günün söhbəti

**Ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərə diqqəti hər zaman ölkəmizdə hamıya örnək olub. Mədəniyyət və incəsənətimizin böyük hamisi olan görkəmli şəxsiyyət teatr sənətinə xüsusilə yüksək qiymət verib: "Teatr müqəddəs yerdir. İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır".**

# İrəvan Teatrında Ulu öndərin işıqlı obrazı

Ulu öndər teatra, premyeralara getməyə həmişə vaxt tapıb və adəti üzrə, tamaşalar bitdikdən sonra səhnə arxasına keçərək yaradıcı heyətlə söhbətlər edib, fikirlərini bildirib. Ömrünün son günlərinə qədər bu ənənəni davam etdirən Heydər Əliyev teatr sənətinin məna və mahiyyətini, onun insanların duyğu və düşüncələrinə dərin təsirini, tərbiyəvi əhəmiyyətini, ideya-estetik keyfiyyətini dərindən duyması ilə seçilirdi; bu sənətin təcrübi və nəzəri əsaslarına yaxşı bələd idi.

**Həmsöhbətimiz sənətşünaslıq üzrə fəlsəfə doktoru, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru və aktyoru, Əməkdar mədəniyyət işçisi İftixar Piriyevdir. O, böyük qədirbilənliklə bildirdi ki, Ümummilli lider ömrünün sonuna qədər Azərbaycan incəsənətinin, o cümlədən, Azərbaycan teatrının inkişafı üçün əlindən gələni əsirgəməyib:**



– Məhz ulu öndərin diqqəti sayəsində müstəqillik dövründə Azərbaycan teatrı böyük inkişaf yolu keçərək, ideya-məzmun cəhətdən xeyli zənginləşib, milli-vətənpərvərlik yönümlü tamaşalar ərsəyə gəlib. Heydər Əliyev ölkə mədəniyyətinə yeni ruh bəxş etməklə yanaşı, öz şəxsiyyəti, dövlətçilik uğrunda mübarizəsi ilə də milli məfkurəni, bədii-estetik düşüncəni yeniləşdirib və zənginləşdirib. Təsadüfi deyil ki, ulu öndər İrəvan teatrında hazırlanmış tamaşaların baş qəhrəmanı sayılır. 2009-cu ildə bu teatrın səhnəsində dramaturq Aqşin Babayevin "Xilaskar" və 2013-cü ildə mənim yazdığım "Qurtuluş dastanı", 2016-cı ildə Hidayətin "Burdan min atlı keçdi" əsərlərində ümummilli liderin bədii obrazı yaradılıb. Beləliklə də, milli teatr tariximiz Heydər Əliyev obrazını onun adına və əzəmətinə layiq bir şəkildə canlandırmaqla ən şərəfli missiyanı həyata keçirmiş olub.

Xatırladaq ki, İftixar Piriyevin ifasında görkəmli şəxsiyyətin obrazı özünün mükəmməl bədii ifadəsini tapıb. 2011-ci ildə Beyləqan şəhərində premyerası gerçəkləşdirilən və baş qəhrəman olaraq Heydər Əliyev dühasının canlandırıldığı "İşıqlı, nurlu sabah" adlı mənzum tarixi dastanı da böyük maraqla qarşılanıb. Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşdirilən bu tamaşanın həm mətn müəllifi, həm də quruluşçu rejissoru İftixar Piriyev olub.

Milli-vətənpərvərlik mövzusunun qabarıq ifadə olunduğu tamaşalardan biri də İftixar Piriyevin qələmə aldığı iki hissəli "Qurtuluş dastanı" tarixi dramıdır. Əsərdəki hadisələr qısa bir dövrü əhatə edir. Lakin burada böyük tarixi proseslərin gedişi və nəticələri – sovet imperiyasının çökməsi, milli özünüdərkin inkişafı və bunun nəticəsi olaraq müstəqillik ideyalarının meydana çıxması, parlaması, dövlətçilik ənənələrimizin dirçəldilməsi üçün möhkəm ideya zemininin formalaşması öz dolğun, inandırıcı bədii ifadəsini tapıb.

**İftixar Piriyev bildirdi ki, səhnə mexanizminin fırlanan olması tamaşanın yaradıcılarına imkan verir ki, hadisələrin coşqun dönəmini, şəkillərin gah Moskva, gah da Bakıda cərəyan etdiyini hərlənən tərtibat üzərində bədii baxımdan daha effektli şəkildə təqdim edə bilsinlər.**

– Tamaşa Moskva mühiti ilə başlanır, arxa plandakı qırmızı rəngli Kreml (daha dəqiq desək, Spasskaya qülləsi) görünür, qüllə zənglərinin səsi eşidilir. Orada əsas iştirakçılar – Heydər Əliyevlə Mixail Qorbaçov üz-üzə gəlir və bədii tərtibatın tam əhatə olunması üçün düzgün əlbisə-kostyum həlli özünü qabarıq göstərir. Obrazların kostyumları düzgün seçilərək reallığı – qəhrəmanların cəmiyyətdəki nüfuz və mövqeyini, eyni zamanda daxili aləmini olduğu kimi göstərir. Hər baxımdan ulu öndərin obrazı xeyli üstün təsir bağışlayır.

Beləcə, tamaşaçı rəğbəti istər-istəməz Heydər Əliyev obrazının üzərində cəmləşir. Daha mütənasib, effektli geyim tərzi, şax duruş, səmimiyyət ifadə edən üz cizgiləri bu rəğbəti şərtləndirir. Digər obraz isə Mixail Qorbaçovdur. Heydər Əliyevi gözü götürməyən, onun nüfuzuna həsəd aparan Qorbaçov öz "rəqibini" istefaya göndərməklə ondan qurtulmaq, rahat olmaq istəyir. Obrazın mənfi xisləti bir çox xüsusiyyətlərdə – kostyumun, rəsmi olsa belə, bir qədər yöndəmsiz təsir bağışlamasında, ikibaşlı danışıq tərzində, hətta başındakı qırmızımtıl ləkədə də özünü büruzə verir.

Əminik ki, bundan sonra da teatrlarımız ulu öndərə həsr olunmuş mövzulara geniş yer verəcək və biz böyük şəxsiyyətin əzəmətli obrazının aşıladığı dərslər sayəsində yeni-yeni uğurlar qazanacağıq.

Əlavə edək ki, "Burdan min atlı keçdi" tamaşası da mükəmməl səhnə həlli ilə yaddaşlarda qalıb. Əsər bir sıra teatrın səhnəsində oynanılıb. İrəvan və Sumqayıt teatr kollektivləri təmsilçilərinin çıxış etdiyi tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmovdur. Burada tarixən Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın taleyi fonunda Ümummilli liderin yorulmaz fəaliyyəti işıqlandırılır. Ulu öndərin bədii obrazının ehtiva etdiyi milli məfkurə, Vətən, torpaq və xalq sevgisi, dövlətçilik prinsipləri təcəssüm etdirilir.

Onu da qeyd edək ki, istedadlı aktyor, yazar, bacarıqlı teatr təşkilatçısı olan İftixar Piriyev Heydər Əliyevə həsr olunmuş "Böyük Turanın himni", türk, rus, ingilis, alman, fransız, italyan, ispan, ərəb, fars dillərinə tərcümə olunmuş "Müstəqil vətənin memarı" poemaları, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin anadan olmasının 50 illiyi münasibətilə yazdığı və tamaşaya hazırladığı "İşıqlı, nurlu sabah" və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsçüsü olduğu "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində yazaraq səhnələşdirdiyi "Soyqırımı tarixinin dastanı" mənzum pyesləri kitab şəklində bir çox dildə oxuculara təqdim edilib.

Onu da xatırladaq ki, İftixar Piriyev 1999-cu ildə ümummilli lider Heydər Əliyevin Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının fəaliyyətini gücləndirmək məqsədilə verdiyi tapşırığa əsasən ölkəmizin Mədəniyyət Nazirliyi tərəfindən iki il müddətinə Gürcüstanın paytaxtına ezam olunmuşdur. 2000-ci ildən isə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına rəhbərlik edir. Bir çox səhnə uğurları olub. Ulu öndərin obrazını yaratmasını isə həyatının ən böyük sevinci, dəyəri sayır.

Türkiyənin Niğdə şəhərində çıxışımız vardı, – deyə o, daha bir fərəhli hadisəni xatırladı. – Tamaşadan sonra şəhər valisi Gümrüz Bədər oradakı "Qızıl alma" parkının adını dəyişdirərək Heydər Əliyev parkı adlandıracağını bildirdi. Çox keçmədən bununla bağlı rəsmi protokolun surətini bizə təqdim etdi. Üstəlik də məndən xahiş etdi ki, ulu öndərin nəzərdə tutulan heykəlinin qoyulacağı yeri seçim. Bir də Niğdə şəhərinə yolum düşsə, ilk növbədə məhz həmin parka gedəcək, ulu öndərin abidəsini ziyarət edəcəyəm.

Qeyd edək ki, "Heydər Əliyev İli" ilə əlaqədar Mədəniyyət Nazirliyinin təşəbbüsü və dəstəyi ilə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının "Nurlu ömrün anları" tamaşası Oğuz, Bərdə, Masallı, Salyan, Sabirabad, Biləsuvar, Tərtər, Ağcabədi, İmişli, Balakən, Göyçay, Şamaxı rayonlarında, Gəncə, Sumqayıt və Şirvan şəhərlərində nümayiş olunub. Tamaşa İftixar Piriyevin "Müstəqil Vətənin Memarı" poemasının əsasında səhnələşdirilib. Bu əsər də Ümummilli liderin həyat yolu və fəaliyyətinin ən vacib anlarından bəhs edir.

– Yolumuz Heydər Əliyev yoludur, – deyən müsahibimiz bunun hər bir sənətçinin üzərinə böyük məsuliyyət qoyduğunu vurğuladı. – Gələcəyə addımlayan gənclərimizi "Böyük Turanın Himni", "Müstəqil Vətənin Memarı", "Nurlu ömrün anları", "İşıqlı, nurlu sabah", "Azərbaycan bayrağı", "Qalx ayağa, Azərbaycan!" "Qurtuluş dastan", "Qurtuluşa gedən yol" adlı poema və səhnə əsərlərimlə məhz bu işıqlı yolun qədrini bilməyə çağırıram. Bu yolu bizə böyük siyasi xadim, Qurtuluş Gününün qəhrəmanı, Azərbaycan xalqının əsl milli qəhrəmanı ölməz Heydər Əliyev bəxş edib.

***Ə.DOSTƏLİ,***
***"Xalq qəzeti"***

# Din pərdəsi altında təxribatlar yolverilməzdir

**Dünən Gəncə şəhərində din–dövlət münasibətlərinin tənzimlənməsinə həsr olunmuş "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans öz işinə başlayıb.**



Məclisi giriş sözü ilə açan Gəncə ŞİH-nin başçısı Niyazi Bayramov vurğulayıb ki, Ümummilli lider Heydər Əliyevin böyük dövlət idarəçiliyi təcrübəsi, yüksək bacarığı, uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərinin düzgün qurulması üçün zəruri addımlar atılıb. Ulu öndərin bu sahədə həyata keçirdiyi siyasəti Prezidentimiz İlham Əliyev uğurla davam etdirir.

Dini Qurumlarla İş Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev bildirib ki, bəzən din altında ölkə əleyhinə, dövlətçiliyə qarşı təxribat xarakterli işlər görənlər olur. Dini siyasiləşdirərək təsir mexanizminə çevirirlər. Bu cür təxribatlara əl atanlar vaxtında dəqiqləşdirilir və onların barəsində müvafiq tədbirlər görülür.

Diqqətə çatdırılıb ki, Dövlət Komitəsi ölkəmizdə dövlət–din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi məqsədilə müxtəlif formatlarda silsilə maarifləndirici tədbirlər təşkil edir.

Bu işdə müvafiq qurumlar, yerli icra hakimiyyəti orqanları ilə də yaxından əməkdaşlıq edilir.

Milli Məclisin deputatı, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev müstəqil Azərbaycanın qurucusu, dahi şəxsiyyət Heydər Əliyevin ölkəmizin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdiyini bildirib. Millət vəkili Ulu öndərin bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldığını, eləcə də dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdiyini diqqətə çatdırıb.

***"Xalq qəzeti"***

# “Bilgəh”də yay məktəbinin açılışı

**İyulun 24-də Dövlət Təhlükəsizliyi Xidmətinin “Bilgəh” İstirahət Mərkəzində 12-16 yaş arası məktəbli və yeniyetmələr üçün təşkil ediləcək “Cyber Summer School - 2023” beynəlxalq yay məktəbinin açılış tədbiri keçirilib.**



Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, “Azerconnect MMC”, “Caspel”, “Cyberpoint”, “Techpro DC” və “Huawei Technologies” şirkətlərinin sponsorluğu, “Gesco”, “A2Z Technologies”, “CISCO” və “Azerobot” şirkətlərinin tərəfdaşlığı ilə iyulun 30-dək Bakı Ali Neft Məktəbində keçiriləcək yay məktəbinə cəlb olunmuş yeniyetmələrin və onların valideynlərinin iştirak etdikləri açılış tədbirində aidiyyəti dövlət qurumlarının, xarici ölkələrin ölkəmizdə fəaliyyət göstərən səfirliklərinin, eləcə də ali təhsil müəssisələrinin rəhbər vəzifəli şəxslərinin çıxışları dinlənilib.

Bununla yanaşı, açılış tədbirinin iştirakçıları texnoloji sərgidə “Caspel”, “Cyberpoint” “Techpro DC”, “Huawei”, “A2Z Technologies”, “Cisco” və “Azerobot” şirkətlərinin texnoloji həlləri və xidmətləri ilə tanış olublar.

Ənənəvi olaraq hər il təşkil olunan yay məktəbi ərzində yerli və xarici mütəxəssislər tərəfindən iştirakçılar üçün kibertəhlükəsizlik sahəsində təlimlər, texnoloji turlar, habelə iştirakçılar arasında kibertəhlükəsizlik sahəsində bilik yarışının (“CTF”) keçirilməsi planlaşdırılıb.

Qeyd etmək lazımdır ki, “Cyber Summer School - 2023” yay məktəbinin əhatə dairəsi və beynəlxalq əhəmiyyəti bu il daha da genişləndirilib. Belə ki, iyulun 30-dək davam edəcək yay məktəbinə Azərbaycan, İsrail və Türkiyə ilə yanaşı, Türk Dövlətləri Təşkilatına üzv olan Qazaxıstan, Özbəkistan, Qırğızıstandan da yeniyetmələr olmaqla, ümumilikdə 125 iştirakçı cəlb edilib.

Ödənişsiz əsaslarla ingilis dilində təşkil ediləcək beynəlxalq yay məktəbinə 12-16 yaş aralığında olan, zəruri ingilis dili, habelə informasiya texnologiyaları üzrə biliklərə malik və müsabiqədən keçmiş şəxslər cəlb olunub. Bakı Ali Neft Məktəbində təşkil ediləcək təlim və praktiki seminarlar isə Azərbaycan, İsrail və Türkiyənin sahə üzrə ekspertləri tərəfindən keçiriləcək. Ümumilikdə yay məktəbinin davam edəcəyi müddət ərzində 20 təlimçi tərəfindən kibertəhlükəsizliyin müxtəlif aspektləri üzrə 20-dən çox təlim və praktiki seminarların, sonda isə yay məktəbi iştirakçıları arasında bilik (“CTF”) yarışının keçirilməsi nəzərdə tutulub.

***Q.QASIMOV,***
***“Xalq qəzeti”***

# Bu həftə dörd oyunumuz var



**Bu həftə Avropa miqyaslı turnirlərdə Azərbaycanın ən yaxşı klublarının iştirakı ilə keçiriləcək oyunlarla zəngin olacaq. Zarafat deyil, futbol pərəstişkarlarımız “Qarabağ”, “Sabah”, “Neftçi” və “Qəbələ”nin üst-üstə səkkiz məsul görüşünün həyəcanını yaşayacaqlar.**

UEFA Çempionlar Liqası turnirinin birinci təsnifat mərhələsində Cəbəllütariqin “Viktoriya” səddini iki qələbə ilə keçən (səfərdə 2:1, evdə 4:0) ölkəmizin 1 nömrəli klubu “Qarabağ” ikinci raundun qapısını taybatay açmışdır. Bu dəfə isə Qurban Qurbanovun komandasının rəqibi yaxşı futbol ənənələrinə malik ölkə təmsilçisidir. Təbii ki, Azərbaycan çempionu kimi, Polşanın “Rakuv” komandası da qitənin ən nüfuzlu klub turnirində mümkün qədər uzağa getmək əzmindədir. Kimin ustalığının və iddialarının üstün olduğu meydançada kəskin rəqabətin yekununda məlum olacaq.

Rəqiblər ikinci təsnifat mərhələsinin startında polyakların arenasında “münasibətləri aydınlaşdıracaqlar”. İyulun 26-na təyin edilmiş “Rakuv”—“Qarabağ” görüşünü isveçrəli hakimlər briqadası idarə edəcək. Avqustun 2-də Bakı Olimpiya Stadionunda keçiriləcək cavab matçında isə ədaləti Almaniya Futbol Federasiyasını təmsil edən hakimlər heyəti qoruyacaq.

Burada Çempionlar Liqasından Konfrans Liqasına keçid alıb, əvvəlcə sonuncu milli çempionatımızın gümüş mükafatçısı “Sabah”dan danışaq. Rusiyalı mütəxəssis Murad Musayev bu komandanın “sükanı arxasına” keçdikdən sonra kollektiv cəmi bir il ərzində tam dəyişib, mükəmməl oyunu ilə təkcə öz azarkeşlərinin deyil, Azərbaycanın bütün futbol ictimaiyyətinin rəğbətini qazanmışdır. Qarşısına ciddi məqsədlər qoymuş “Sabah”ın daha işıqlı gələcəyinə inam böyükdür.

Buna baxmayaraq, Latviyanın RŞF komandası ilə oyunlarda çox diqqətli olmaq lazımdır. Əks-təqdirdə, Latviya klubu birinci mərhələdə Şimali Makedoniyanın “Makedoniya” komandasının “başına açdığı oyunu “ (1:0 və 4:1) təkrarlaya bilər. Deməli, qarşımızdakı özünə böyük hörmət tələb edən komandadır. Onun hələ ötən il Konfrans Liqasının qrup mərhələsində oynaması çox şeydən xəbər verir.

Rəqiblər iyulun 26-da Riqada, avqustun 3-də isə Bakıda qarşılaşacaqlar. UEFA Latviya paytaxtında oyunu çexiyalı hakimlərə etibar etmişdir.

“Jelezniçar”(Sarayevo) – “Neftçi”. Qardaş şəhərlərin təmsilçiləri. Azərbaycan paytaxtı ilə Bosniya və Herseqovinanın baş şəhərinin təxminən yarım əsrdir ki, qardaş şəhərlər olduğunu xatırlatmağa, bəlkə də, ehtiyac yoxdur. Bu iki gözəl şəhərin əlaqələrinin ildən-ilə daha da möhkəmlənəcəyinə inamımızı ifadə edərək, onların futbolçularına iyulun 27-də Sarayevoda, avqustun 3-də isə Bakıda dərin məzmunlu oyun arzulayaq.

Həmçinin xatırladaq ki, əgər bakılılar “konfransa” rumıniyalı yeni baş məşqçiləri Adrian Mutunun rəhbərliyi ilə ikinci mərhələdən başlayırlarsa, birinci raunddan mübarizəyə qoşulan “Jelezniçar” bu yarış çərçivəsində artıq ilk qələbə sevincini yaşamışdır. Bosniyalılar Belarusun “Dinamo” (Minsk) komandasını turnirlə vidalaşmağa məcbur etmişlər. İndi isə onlar ilk müvəffəqiyyəti daha da inkişaf etdirməyə çalışacaqlar. Amma mərhələni kimin keçəcəyini proqnozlaşdırmaq çətindir.

Nəhayət, “Qəbələ” – “Omoniya” (Kipr) rəqabəti haqqında. “Qarabağ”, “Sabah” və “Neftçi”dəki dostlarından fərqli olaraq, “Qəbələ” futbolçuları ilk görüşdə rəqibi öz azarkeşləri qarşısında qəbul edəcəklər. Ötən mövsümdə onları Azərbaycan Kuboku ilə sevindirmiş, Premyer Liqada da kifayət qədər yüksək dördüncü yerə sahib olmuş Elmar Baxşıyevin komandası futbol dairələrində özü haqqında yaxşı təəssürat yaratmış “Omoniya”nı iyulun 27-də Qəbələ şəhər stadionunda sınağa çəkəcək. Bundan bir həftə sonra isə özü səfər görüşündə ciddi imtahan verəcək.

Beləliklə, top meydanın mərkəzindədir. Və nə qədər ki, oyunlar başlamayıb, bütün rəqiblərin imkanları bərabərdir. Yəni heç kim uğursuzluğu ağlına belə gətirmir, hamı mərhələ keçməyə ümid edir. Kimin ümidinin doğrulacağı isə başqa məsələdir…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

İdman şərhi

**Bugünlərdə 16 yaşadək qızlardan ibarət komandamızın Andorrada keçirilən basketbol üzrə Avropa çempionatının C divizionunda parlaq qələbəsi Azərbaycanın idman ictimaiyyətini və xalqımızı sevindirdi. Komandamızın bütün oyunlarda inamla çıxış etməsi basketbolçularımızın yarışa mükəmməl hazırlığından xəbər verir.**

# Qız basketbolçularımızın Avropa qələbəsi



**U-16 qızlardan ibarət yığmanın baş məşqçisi Evren Alkaya “Xalq qəzeti”nə açıqlamasında** məhz görülən kompleks işlər nəticəsində komandamızın yüksək nəticə əldə etdiyini bildirdi: “Hər hansı idman növünü inkişaf etdirmək istəyiriksə, mütləq aşağı yaş qruplarında istedadlı idmançıların yetişməsinə nail olmalıyıq. Bu baxımdan üzərimizə böyük məsuliyyət düşür. Bu yeniyetmə idmançılarımızın hər birinin potensialı var və biz onu inkişaf etdirmək üçün böyük səy göstəririk. Komandamızda 16 yaşadək güclü basketbolçularımız var. Basketbol Federasiyası Avropa çempionatına hazırlıq üçün bütün şəraiti yaratdı. Əldə edilən qələbədə əməyi keçən hər kəsə minnətdarıq”.

Baş məşqçi yığmamızın hər bir üzvünün imanla, inadla mübarizə apardığını, sonda qalib gəldiyini dedi: “Komanda idman növündə hər bir fərdin güclü olması ilə yanaşı, birgə mübarizə ruhunun yüksək olması da əsas şərtdir. Qızlarımız bütün qarşılaşmalarda gözəl oyunlar sərgilədilər. Sonda isə layiqli qələbəyə nail oldular. Andorra yığmasını həm qrupda, həm də həlledici mərhələdə məğlub etdilər. Yığmamız artıq B divizionunda yarışa biləcək”.

**Köməkçi məşqçi Aygün Eynullayeva** ötən 10 ay ərzində komandanın qitə yarışına böyük səylə hazırlaşdığını bildirdi. O qeyd etdi ki, yüksək səviyyədə qurulan təlim-məşqlər, yoldaşlıq görüşləri millinin hazırlığında önəmli rol oynadı: “Yığmamızın B qrupunda ilk oyunu Andorra ilə oldu. Qızlarımız çox həyəcanlı olsalar da, potensiallarından maksimum istifadə edərək rəqibi 14 xal üstələdilər. Sonrakı oyunda Moldovanı da böyük hesabla udduq. Təcrübəli Albaniya komandası ilə oyun bir az çətin olsa da, biz də zəif deyildik. Buna görə qələbə əldə edib qrup lideri olduq. A qrupunda çox təcrübəli komanda olan Gürcüstanla qarşılaşma həddindən artıq gərgin keçdi. Oyun bərabər idi və son saniyələrdə komandamızın üzvünün topu səbətə daxil etməsi bizə iki xal üstünlük qazandırdı. Finalda Andorra yığması ilə qarşılaşma nisbətən rahat keçdi. Artıq rəqibi tanıyırdıq.

Bizim qızlarımızdan fərqli olaraq rəqib komandalar daha təcrübəli idilər. İlk dəfə idi ki, belə bir yarışda çıxış edirdik. Komandamızın sona qədər bütün oyunları qələbə ilə başa vurması onun potensialından xəbər verir. İlk dəfədən çempion olduq. Ölkəmizi layiqincə təmsil etdiyimiz üçün çox sevinirik. Bizə dəstək verən hər kəsə minnətdarıq”.

Komandanın üzvü, Sumqayıt basketbol məktəbinin yetirməsi Səlminaz Ramazanlı qalib olmaq hissinin çox gözəl olduğunu bildirdi: “Bir var tək qalib olasan, bir də var ki, komandanla. Bu çox gözəl hissdir. Yığmamızın hər bir üzvü bu qələbəni qazanmaq üçün böyük inamla mübarizə apardı. Komandada yüksək ruh var. Bu qələbənin əldə edilməsi üçün məşqçilər də çox əziyyət çəkiblər. Əsas o idi ki, onlar bizə inandılar. Biz isə onların etimadını doğrultduq”.

Komandanın digər üzvü Ayanın 14 yaşı var. Xətai rayon 269 nömrəli məktəbin şagirdi gələcəyə böyük ümidlə baxır: “Komandamızla qürur duyuram. Bu uğurun davamını birgə gətirəcəyimizə inanıram. Rəqib komandalarla gərgin keçən oyunlarımız da oldu, bir qədər rahat matçlar da. Gürcüstan yığması ilə qarşılaşmada sanki ölüm-dirim mübarizəsinə girmişdik. Sona qədər inamla mübarizə apardıq. Birgə mübarizəmizlə son saniyələrdə rəqib komandanı məğlub edə bildik. Xoşbəxtik ki, Azərbaycanı layiqincə təmsil etdik”.

U-16 komandamızın uğurlarının davamlı olacağına inanırıq. Azərbaycan Basketbol Federasiyasının son illər uşaq və yeniyetmələr arasında bu idman növünün inkişafı istiqamətində atdığı ardıcıl addımlar artıq bəhrəsini verməyə başlayır. Ümid edirik ki, basketbolçularımızın qələbə soraqları daha yüksək zirvələrdən gələcək.

***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

# Alimlərimiz Almatıda beynəlxalq konfransda

**Əl-Fərabi adına Qazax Milli Universitetinin ev sahibliyi və TİKA, Türk Dünyası Bələdiyyələr Birliyi, TÜRKSOY, İSTESOB, İstanbul 29 Mayıs Universiteti, Ahi Kültürünü Araştırma və Eğitim Vəqfinin dəstəyi ilə Qazaxıstanın Almatı şəhərində keçirilən XI Beynəlxalq Altay Topluluqları Simpoziumunda azərbaycanlı alimlər də iştirak ediblər.**



Beynəlxalq tədbirin iştirakçısı AMEA-nın Folklor İnstitutunun dosenti Aynur İbrahimova bildirib ki, tədbiri açan Əl-Fərabi adına Qazax Milli Universitetinin rektoru, professor Janseit Tuymebayev simpoziumun əhəmiyyətindən danışaraq, beynəlxalq əməkdaşlığın genişləndirilməsinin önəmini vurğulayıb.

Mötəbər tədbirdə Qırğızıstan, Özbəkistan, Türkiyə, Azərbaycan, Rusiya, Polşa, Macarıstan, Yaponiya, Tayvan, Monqolustan və başqa ölkələrdən 184 alim və tədqiqatçının məruzəsi dinlənilib. Simpoziumda AMEA Folklor İnstitutunun dosenti Qalib Sayılov “Türk xalqlarının mənəvi birliyinin qorunub saxlanması və elmi-mədəni əlaqələrin inkişafı”, Dilçilik İnstitutunun professoru İsmayıl Kazımov “Dağlıq Altay toponimlərinin formalaşmasında sintaktik üsulun rolu” mövzusunda çıxış ediblər.

***“Xalq qəzeti”***


## “Şüşəplastmas” ASC-nin 2022-ci il üzrə mühasibat balansı

| | 01.01.2022 | 01.01.2023 |
|---|---|---|
| Əsas vəsaitlər | 683960,56 | 683960,56 |
| İstehsal ehtiyatları | 106643,46 | 116653,07 |
| Debitorlar | 18238,26 | 10661,49 |
| Pul vəsaitləri | 4423,03 | 17298,22 |
| Balans aktivləri | 813265,31 | 846792,55 |
| Nizamnamə kapitalı | 7348 | 297348 |
| Kapital ehtiyatları | 403378,67 | 388251,65 |
| Kreditorlar | 112538,64 | 161192,9 |
| Balans passivləri | 813265,31 | 846792,55 |
| Məhsulların satışından mədaxil | 272473,21 | 148252,7 |
| ƏDV | 41563,71 | 26685,49 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 217164,28 | 159632,31 |
| Mənfəət | 13745,22 | -11379,61 |
| Əmlak vergisi | 6890,62 | 6839,61 |
| Mənfəət | 6905,61 | -18219,22 |

## “Nəsimi Məişət Malları” ASC-nin 2022-ci il üzrə mühasibat balansı

| | 01.01.2022 | 01.01.2023 |
|---|---|---|
| Əsas vəsaitlər | 83481,82 | 79380,77 |
| İstehsal ehtiyatları | - | - |
| Debitorlar | - | - |
| Pul vəsaitləri | - | 7127,36 |
| Balans aktivləri | 19444,11 | 19444,11 |
| Nizamnamə kapitalı | 85582 | 85582 |
| Kapital ehtiyatları | - | 1627,88 |
| Kreditorlar | 17263,93 | 18742,36 |
| Balans passivləri | 102845,93 | 105952,24 |
| Məhsulların satışından mədaxil | - | 10599,99 |
| ƏDV | - | 1616,95 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 517,42 | 6129,72 |
| Mənfəət | -517,42 | 2853,32 |
| Əmlak vergisi | 813,91 | 813,91 |
| Mənfəət | -1331,33 | 2039,41 |

## “ALMET” ASC-nin 2022-ci il üzrə mühasibat balansı

| | 01.01.2022 | 01.01.2023 |
|---|---|---|
| Əsas vəsaitlər | 457803.79 | 417045.68 |
| İstehsal ehtiyatları | 194861.69 | 194861.69 |
| Debitorlar | 82388.98 | 72856.01 |
| Pul vəsaitləri | 286.06 | 473.37 |
| Balans aktivləri | 835008.11 | 836973.00 |
| Nizamnamə kapitalı | 314454 | 314454.00 |
| Kapital ehtiyatları | - | - |
| Kreditorlar | 520554.11 | 522519.00 |
| Balans passivləri | 835008,11 | 836973.00 |
| Məhsulların satışından mədaxil | 3389,34 | 52674,12 |
| ƏDV | 367,69 | 8035,13 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 17422,12 | 34913,26 |
| Mənfəət | -14032,28 | 9726,33 |
| Əmlak vergisi | 4496,68 | 4293,79 |
| Mənfəət | -18528,96 | 5432,54 |

## “Bakı Tikinti Quraşdırma” ASC səhmdarlarının nəzərinə!

“Bakı Tikinti Quraşdırma” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 9 sentyabr 2023-cü il saat 10.00-da keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.

**2.** Cəmiyyətin qalıq pul vəsaitinin səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq olunması.

**3.** Cəmiyyətin səhmlərinin ləğv edilməsi və dövriyyədən çıxarılmasına aid məsələnin müzakirəsi.

**4.** Digər məsələlər.

Sənədlərlə tanışlıq üçün həftənin iş günləri saat 11.00-dan 15.00-dək cəmiyyətin ləğvetmə komissiyasına müraciət etmək olar.

**Əlaqə telefonu- 070 – 560 – 05 – 06.**

**Ünvan-Bakı şəhəri, Nizami rayonu, H.Əliyev prospekti 6-cı köndələn küçəsi 1.**

## BİLDİRİŞ

**“Azəristiliktəchizat” ASC-nin** xüsusi texnika və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə 2023-cü il iyunun 20-də elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən “Avto Texnika Detaling” MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il iyulun 24-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 155 (30271) 26 iyul 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

### Cüdoçularımız bürünc medal qazanıblar

**Mariborda keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalında cüdoçularımız mübarizəyə başlayıblar.**




Dünən cüdo yarışlarının birinci günündə oğlanlar 50, 55, qızlar isə 40, 44 kiloqram çəki dərəcələrində mübarizə aparıblar. Komandamızın üzvlərindən Nihad Məmişov (50 kq) və Ayxan Mirzəzadə bürünc medal qazanıblar.

### Oğlan basketbolçularımız da irəliləyirlər



**16 yaşlı oğlanlardan ibarət basketbol millimiz Kosovonun paytaxtı Priştinada təşkil edilən Avropa çempionatının C divizionunda uğurlu çıxışını davam etdirir.**

Yığmamız B qrupundakı son oyunda San Marino seçməsinə 96:47 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib.

Basketbolçularımız finala gedən yolda Kosovo – Andorra cütünün məğlubu ilə gücünü sınayacaq. Növbəti oyun iyulun 26-da keçiriləcək.

### Atıcılıq üzrə “Bakı-2023”ün maskotu

**Bakıda keçiriləcək atıcılıq üzrə dünya çempionatının maskotu ictimaiyyətə təqdim edilib. Avqustun 14-dən sentyabrın 1-dək keçiriləcək 53-cü dünya çempionatının maskotu “Targy” seçilib.**




“Targy”nin kökündə ingiliscə “target”- “hədəf” sözü dayansa da, özündə birləşdirdiyi Olimpiya nişanı, alov, nar, hədəf və atıcı görüntüləri-nin vəhdətindən yaranmış simvollar xarakterizə edir.

Maskot çempionat iştirakçılarını “Hədəfini vur!” şüarı ilə mübarizəyə və qələbəyə ruhlandıracaq.

***Leyla SABİRQIZI, “Xalq qəzeti”***

## Texnologiya yenilikləri



### “Apple” evə çatdırır...

**“Apple” şirkəti yeni proqram təqdim edir. Bu xidmətlə məhsulların müştərilərin evlərinə çatdırılacağı planlaşdırılır.**

“Apple” öz mağazaları üçün yeni tətbiqi avqustun əvvəlində istifadəyə verəcək. “EasyPay”– onlayn sifariş adlanan bu xidmət mağazadan alış-veriş edən müştərilərə məhsullarını evlərinə çatdırmaq imkanı yaradacaq. Müştərilər məhsulları təkcə onlayn deyil, mağazadan almaq istədikdə də şirkət tərəfindən xüsusi olaraq evlərinə gətiriləcək.

Qeyd edək ki, şirkət “iPhone 15” seriyasının təqdimatından əvvəl bu proqramı işə salmaqla, yeni modellər tükəndiyi halda müştərilərə evə çatdırılma variantını təklif etməyi hədəfləyir.

***Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”***

### “Netflix”də yeni funksiya

**“Netflix”in bloq səhifəsində dərc edilən açıqlamaya görə, “Yükləmələr” tabı “Mənim Netflixim” tabı ilə əvəz olunacaq. Bu yeni tab “Netflix”in interfeysindəki qeyri-müəyyənliyi aradan qaldıracaq və istifadəçilərə nə izləmək istədiklərinə qərar verməyə kömək edəcək.**




Bu xüsusiyyət sayəsində tamaşaçılar izləmək istədikləri bütün serial və filmlərə tək bir yerdən asanlıqla daxil ola biləcəklər. Burada, həmçinin tv şoular, endirmələr, treylerlər, xatırlatmalar, bəyənmələr, “izləməyə davam et” və “Siyahım” bölmələri olacaq.

Mobil istifadəçilər üçün hazırlanmış bu yeni funksiya bu gündən etibarən iOS cihazlarında istifadəyə veriləcək. Android cihazları üçün isə avqustun əvvəlində əlçatan olacaq. “Netflix”in açıqlamasına görə, bu funksiya sayəsində izləmək üçün qeyd etdiyiniz və ya endirdiyiniz bir şeyi tez seçə, həmçinin bütün serialları və filmləri yenidən kəşf edə biləcəksiniz.

***F. SALMANOVA, “Xalq qəzeti”***

## Maraq dünyamız

### At var ki, maşından 10 qat bahadır...

**Dünyada özəl xüsusiyyətləri ilə tarixən fərqlənən bir çox at cinsləri var. Onlardan bəziləri təkcə gözəlliyi və zərifliyi ilə deyil, həm də inanılmaz dəyəri ilə seçilir.**



Ən bahalı at cinslərindən biri ərəb atıdır. Bu cins zərifliyi, yüksək sürəti və nadirliyi ilə tanınır. Araşdırmalar göstərir ki, ərəb atının minilliklərə gedib çıxan qədim tarixi var. Bu at Şərqlə Qərb arasında ticarətdə qiymətli pul vahidi idi və ondan atların digər cinslərini yaxşılaşdırmaq üçün istifadə olunurdu. Məhz bu nadirliyinə və tarixi dəyərinə görə ərəb atı kifayət qədər bahalıdır. Onun qiyməti bir neçə milyon dollara çata bilər.

Ən bahalı atlar sıralamasında yüksək mövqe tutan başqa biri at cinsi Friz atıdır. Hollandiyadan gələn bu cins at gücü və zərifliyi ilə seçilir. Ağır iş və hərbi məqsədlər üçün istifadə edilir. Nadirliyinə və yüksək texniki xidmət xərclərinə görə Friz atı olduqca bahalıdır. Onun qiyməti bir neçə yüz min dollara çatır.

Axaltəkə kimi tanınan at cinsini də qeyd etmək lazımdır. Türkmənistan atı dözümlülüyü, sürəti və gözəlliyi ilə fərqlənir. Axaltəkə atından hərbi məqsədlər və idman tədbirləri üçün istifadə edilib. Nadirliyinə görə, bu at kifayət qədər bahalıdır. Onun da qiyməti bir neçə yüz min dollara çata bilər.

### Roma papalarını niyə isveçrəlilər qoruyur?

**Parlaq qırmızı və sarı formaları ilə tanınan İsveçrə qvardiyası Vatikanın ən tanınmış rəmzlərindən biridir. 1506-cı ildə Papa II Yuli etibarlı müdafiəyə ehtiyac olduğunu anlayaraq daimi mühafizəçi dəstə yaratmağı qərara alıb. O zaman İsveçrə hərbi ənənələri və döyüşdə misilsiz şücaəti ilə məşhur idi. Buna görə də Papa sadiq müdafiəçilər tapmaq üçün nəzərini bu kiçik alp ölkəsinə çevirib. İsveçrə qvardiyasının rəsmi formalaşdırılması isə 22 yanvar 1506-cı ildə baş verib. Əvvəlcə mühafizəçilər 150 nəfər olub. Hazırda onların sayı 135 nəfərdir.**



Papanın mühafizəçisi kimi isveçrəlilərin seçilməsinin əsas səbəblərindən biri onların etibarlı və qorxmaz döyüşçülər kimi şöhrət qazanması olub. Onlar öz hərbi bacarıqları və nizam-intizamı ilə seçilirmiş. Eyni zamanda, öz vəzifələrinə sadiqliyi ilə də tanınırmışlar. Bu keyfiyyətlər onları Papanın mühafizəçiləri olmağa ideal namizədlər etmişdi. Bundan əlavə, isveçrəlilər Avropada heç bir siyasi ambisiyaları olmayan neytral millət olub. Bu, Papaya isveçrəlilərin onun təhlükəsizliyini təhdid edə biləcək siyasi intriqalara və münaqişələrə qarışmayacağına əmin olmağa imkan verib. Zaman keçdikcə İsveçrə qvardiyası təkcə Papanın təhlükəsizliyinin qarantı deyil, həm də Vatikanın mədəni və tarixi irsinin mühüm hissəsinə çevrilib.

### Neptunu kim kəşf edib?

**Neptun haqqında bu günə qədər çox şey məlum deyil, çünki Yerdən uzaqdadır və əlçatmazdır. Bununla belə, planet haqqında bəzi maraqlı məlumatlar var.**



Neptunun müşahidəsinə dair ilk qeydlər Qalileo Qalileyə məxsusdur. O, 28 dekabr 1612-ci il və 27 yanvar 1613-cü ildə Neptunu müşahidə etmişdir, buna baxmayaraq alim onun hərəkətsiz olduğunu düşünmüş və ulduz olduğunu zənn etmişdir. Bu səbəbdən də Qalileo Qalileyin müşahidəsi Neptunun kəşfi kimi qiymətləndirilmir. Qalileyin ilk müşahidə apardığı vaxtlar Neptun və Yerin orbitdəki hərəkət istiqamətləri tərsinə idi. Bu qısa müddətdə planetlər Yerdən hərəkətsiz kimi müşahidə olunur. Bu da o dövrün teleskopu ilə Qalileyin Neptunun hərəkətini müşahidə etməsini çətinləşdirmişdir.

1845–1846-cı illərdə Urban Leverye müstəqil şəkildə yeni planetin yeri ilə bağlı bir sıra hesablamalar aparmışdır. Buna görə də planetin kəşfi də ona aid edilir.

Kəşfindən keçən qısa müddət ərzində Neptun “Leveryenin planeti”, ya da “Uranın orbitinin xaricində yerləşən planet” kimi tanınırdı. Adla bağlı ilk təklif İohann Qotfrid Qal tərəfindən edilmişdir. O, “Yanus” adını təklif edirdi. İngiltərədə isə Ceyms Şali “Okean” adını təklif etmişdir.

Kəşfinə ad vermək haqqının özünə aid olduğunu bildirən Urban Leverye yeni planeti “Neptun” olaraq adlandırmışdır.

Neptunun atmosferinin 80 faizini hidrogen, 19 faizini helium təşkil edir. Atmosferdə az miqdarda metana da rast gəlinir.

***P.ƏFƏNDİ, “Xalq qəzeti”***

## Sağlamlıq

### Yayda necə sərinləyək?

**Terapevt Tamara İlinskayanın fikrincə, isti yay günlərində bədəni bəzi üsullarla tez soyutmaq istəsək də bu, orqanizmə zərər verir. Məsələn:**



**Soyuq duş.** Soyuq su bədənə donma siqnalı verir, o, istilik buraxır. Eyni zamanda, qan damarları daralır ki, istilik bədəni tərk etməsin. Nəticədə, hərarət daha da artır. Ən yaxşısı ılıq su ilə yuyunmaqdır.

**Yağlı yeməklər və çox yemək.** Temperatur 30 dərəcədən çox olarsa, ağır, yağlı qidalar bədəni yükləyir, həzm prosesi daha çox istilik yaradır.

**Alkoqol qəbulu.** Alkoqol istinin təsirindən genişlənən qan damarlarını daha da genişləndirir. Bu, huşunu itirmə ilə nəticələnə bilər.

**Dondurma yemək.** T.İlinskayanın fikrincə, isti havada dondurma və ya sərinləşdirici içki baş ağrısına səbəb olur, çünki damarlar daralır və spazm yaranır.

**Havalandırma.** Yayda sərinlik məqsədilə otağı səhər və axşam havalandırmaq lazımdır. Günün isti vaxtı isə pəncərələri bağlı saxlamaq daha yaxşıdır.

**Dənizə getmək.** Suya tələsik yox, yavaş-yavaş girmək lazımdır. İlk addımda bədəni bir ovuc su ilə islatmaq məsləhətdir. Yoxsa, vücud isti, soyuq təzadından qıc ola bilər.

***Z.HÜSEYNLİ, “Xalq qəzeti”***

## Proqnoz

### Güclü külək əsəcək, leysan yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 26-da Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 19-24°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən şimal və şərq rayonlarında leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi dağlıq rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 29-34°, dağlarda gecə 8-13°, gündüz 13-18° isti olacaq.

***Q. QASIMOV, “Xalq qəzeti”***

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Bakı Şəhər Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalova əzizi

ZAHİD MÜƏLLİMİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu və professor-müəllim heyəti Bakı Şəhər Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalova əzizi

ZAHİD MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məhərrəm Səfərli AzTV-nin əməkdaşı, telejurnalist

NATAVAN BABAYEVANIN

vaxtsız vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4624
SİFARİŞ 1851
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00